RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 60 (9227) 18 MART 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Doğma yurdlara qayıdış yazın Odlar diyarına builki gəlişinə xüsusi ab-hava qatır

### Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhvali-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan Novruz bayramı əcdadlarımızın indiki nəsillərə müqəddəs yadigarıdır. Zamanın bütün sınaqlarından çıxaraq əsrlərin yaddaşında silinməz izlər qoyan bu el bayramı uzaq dövrlərdən bəri xalqımızın mənəvi dünyasının dərinliklərinə nüfuz etmiş, ənənəvi dəyərlərimizin təşəkkülündə mühüm rol oynamışdır. Ulu babalarımızın zəngin daxili aləmi, müdrik həyat fəlsəfəsi və gələcəklə bağlı işıqlı arzuları bahar bayramında dolğun təcəssümünü tapmışdır.

Ülvi bəşəri hisslərin daşıyıcısına çevrilən, yeniləşdirici gücə malik Novruz bayramı bu gün də insanlar arasında səmimi münasibətlərə yol açaraq dostluq, mərhəmət və xeyirxahlıq duyğularını möhkəmləndirir, cəmiyyətimizin vahid məfkurə ətrafında inkişafının ahəngdarlığını təmin edir. Milli varlığımızın ayrılmaz parçası saydığımız və yad təsirlərdən qoruduğumuz Novruz ənənələri mənəvi sərvətlərimizə hörmətlə yanaşmağımızın yüksək ifadəsi, eyni zamanda bəşər mədəniyyəti xəzinəsinə qiymətli töhfəmizdir.

Xatirəsini daim minnətdarlıqla andığımız şəhidlərimizin öz canları, qanları bahasına azadlıq bəxş etdikləri əzəli torpaqlarımızda gerçəkləşdirilən irimiqyaslı layihələr, geniş vüsət alan quruculuq işləri və əhalimizin doğma yurdlara qayıdışı ilə yenidən canlanan həyat yaz fəslinin Odlar diyarına builki gəlişinə xüsusi ab-hava qatır və rəmzi məna qazandırır.

Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan, qəlbi vətən sevgisi ilə döyünən və baharı bizimlə birgə qarşılayan soydaşlarımıza bayram salamlarımı yetirirəm.

Bu əlamətdar bayramın hər evə, hər ocağa yeni sevinc, bol ruzi-bərəkət və firavanlıq gətirməsini arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2023-cü il*

## Qardaşlığın Ankara Zirvəsi



### İlham Əliyevin təşəbbüsü türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz təcəssümü kimi qiymətləndirildi

Dostluq, qardaşlıq münasibətləri getdikcə daha da güclənən, mövcud əlaqələri və qarşılıqlı əməkdaşlıqları şaxələnən türkdilli dövlətlər martın 16-da dünyaya daha bir mesaj ünvanlayaraq sarsılmaz münasibətlərinin möhkəm təməl üzərində qurulduğunu bəyan etdilər.

İmzalanan Ankara Bəyannaməsində əksini tapan ifadələr və Türk İnvestisiya Fondunun yaradılmasına dair razılaşma isə bir daha təsdiq etdi ki, dost və qardaş ölkələr çətin gündə dərhal bir-birinə lazımi dəstək verəcək və bu istiqamətdə əlindən gələni əsirgəməyəcək.

#### Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib

Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Zirvə görüşünün mədəniyyətimizin paytaxtı Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Prezident İlham Əliyev Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış etmişdi.

Azərbaycan Prezidentinin bu xoşməramlı təklifindən sonra digər iştirakçı ölkələrin rəhbərliyi ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunmuş və İlham Əliyevin təklifi dəstəklənmişdi.

Əlbəttə ki, bu, ilk növbədə bir daha Azərbaycan-Türkiyə qardaşlığının, türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

→ 4

## Vladimir Putin İlham Əliyevə zəng edib



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Rusiya, Azərbaycan və Ermənistan liderlərinin məlum üçtərəfli razılaşmaları əsasında Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin təmin olunmasına yönəlmiş praktiki tədbirlər müzakirə edilib.

Həmçinin regionda nəqliyyat-logistika və iqtisadi əlaqələrin inkişafı məsələlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" 2022-ci il noyabrın 23-də Belqrad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

## Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına namizədliyi təklif edilib



Prezident Rəcəb Tayyib Ərdoğanın görkəmli şəxsiyyət və dünya səviyyəli siyasətçi olduğunu vurğulayan türkmən xalqının liderinin dediyinə görə, Türkiyə rəhbəri bütün müsəlman xalqları üçün sülhün təmin edilməsi, həmçinin regional və qlobal miqyasda təhlükəsiz və davamlı inkişaf naminə çox iş görür: "Bunun əsasında Türkiyə Prezidentinin Nobel sülh mükafatına namizədliyinin irəli sürülməsi təklif edilir və biz bütün müvafiq təklifləri tam dəstəkləyirik. O, bu beynəlxalq mükafata layiq liderdir".

Bu günlərdə Vladimir Zelenski və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub və Türkiyə lideri növbəti dəfə sülhə töhfə verməyə hazır olduğunu bildirib.

→ 12

## Azərbaycanın türk birliyinə tarixi töhfəsi

Üç il öncə Azərbaycan hərbi savaşın səngərində mübarizə apardığı vaxtlarda türk dünyası, xüsusən də qardaş Türkiyə, onun lideri Rəcəb Tayyib Ərdoğan, eləcə də bütün Türkiyə xalqı bizimlə eyni mənəvi duyğuları paylaşırdı. Bu gün isə Türkiyədə baş vermiş "əsrin fəlakəti"ndə 48 mindən artıq insan həyatını itirib. Belə ağır vəziyyətdə, Azərbaycan və Türkiyə ürək ağrıları, gözyaşları, həyəcanla birlikdə eyni səngərdə mübarizəyə qalxıb, fəlakətə sinə gərirlər. Şübhəsiz ki, bu, "bizim qanımız da, canımız da birdir" duyğusunun təntənəsidir.

44 günlük müharibə dövründə ölkəmizə dəstək təkcə dövlət səviyyəsində göstərilmədi, bütün Türkiyə xalqı Azərbaycanın yanında oldu. Prezident daha sonra qardaş Türkiyədə çoxsaylı insan tələfatına səbəb olan dəhşətli zəlzələnin, onun yaratdığı ağır fəsadların Azərbaycan dövləti və xalqı tərəfindən ürək ağrısı ilə qarşılandığını söylədi. Prezidentin qeyd etdiyi kimi, ilk andaca Azərbaycan dövləti bütün varlığı ilə Türkiyənin yanında oldu. İstər dövlət, istər vətəndaşlarımız bir sinədə döyünən Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olundu.

→ 4

◆ Milli Məclisin iclasında

## Milli Məclisdə Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib

Martın 17-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib.

Parlamentin Sədri Sahibə Qafarova qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu strategiya ölkəmizdə təşəkkül tapmış makroiqtisadi sabitliyi və maliyyə dayanıqlılığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini təmin etməyə imkan yaradıb. Bildirilib ki, dövlət başçısı tərəfindən ölkəmizin inkişafı sahəsində strateji hədəflərin müəyyən edilməsi hökumətin fəaliyyətində məqsədyönlülüyü və səmərəliliyi yüksəldib.

→ 3

## Azərbaycan Avropa üçün logistik imkanları baxımından da cəlbedici ölkədir

### Hayastan isə yenə yaxşını yamandan ayıra bilmir

Prezident İlham Əliyev Almaniya iş adamlarına bu sahədə ölkəmizin gördüyü işlər barədə məlumat verərək demişdir: "İndi Mərkəzi Asiyadan Azərbaycana doğru böyük dönüşlə əlaqədar biz gərgin işləməliyik. Məlumat üçün sizə bildirim ki, hazırda Azərbaycan məhdud imkanları olan Bakı-Tbilisi-Qars dəmir yolunun, onun Gürcüstan hissəsinin genişlənməsinə investisiya yatırır. Ola bilsin ki, gələn il bu investisiya layihəsi tamamlanacaq. O, bir milyon tondan beş milyon tonadək genişləndiriləcək. Azərbaycanın əlavə investisiyaları 120 milyon ABŞ dollarından çox olacaq və ümidvarıq ki, biz onu gələn il tamamlayacağıq. Başqa dar keçidlər də var, onlardan biri bizim Dəniz Ticarət Limanı ola bilər. Hazırda biz onun 15 milyon tondan 25 milyon tona və 1 milyon TEU-dək genişlənməsinin texniki əsaslandırmasının tamamlanması prosesindəyik".

→ 5

## Qərəz və riyakarlıq ünvanı

O Avropa Parlamenti ki, Azərbaycan torpaqlarının Hayastanın işğalı altında olduğu 30 illik böyük bir zaman kəsimində işğalçıya qarşı bircə dənə də olsun qətnamə qəbul etməyib. Halbuki şovinist erməni milliyyətçiləri işğalçılıq siyasəti ilə yüz minlərlə soydaşımızı tarixi yurdlarından didərgin salmış, qaçqına, məcburi köçkünə çevirmişdi. İşğal müddətində erməni vandalları həmin ərazilərdə daşı daş üstündə qoymayıb, tarixi, dini, mədəni irsimizi yerləyeksan edib, bu yerlərdə "yanmış torpaq" siyasəti həyata keçiriblər.

→ 6

## Ekofəallar tələblərində israrlıdırlar

Məsələ burasındadır ki, aksiya keçirilən müddət ərzində heç bir zorakılıq faktı, qanunazidd hərəkət müşahidə edilməsə də, aksiya iştirakçıları yoldan istifadə etmək istəyən dinc vətəndaşlar üçün yolun açıq olduğunu dəfələrlə bəyan etsələr də, erməni tərəfi hələ də yoldan istifadə etmədikləri görüntüsünü yaratmağa çalışırlar. Dünyaya səs salıb blokadada olduqlarını, humanitar böhran yaşadıqlarını isbatlamağa cəhd edirlər.




→ 8

## Azərbaycan əhalisinin sayı 10 milyon 131 min 373 nəfər təşkil edib

2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının nəticəsi əsasında yenidən hesablanmış əhalinin sayı 2023-cü il fevral ayının 1-i vəziyyətinə 10 milyon 131 min 373 (Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazisindəki əhali istisna olmaqla) nəfər təşkil edib.

AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadla bildirir ki, əhalinin 54,6 faizi şəhər, 45,4 faizi kənd sakinlərindən, 49,8 faizi kişilər, 50,2 faizi isə qadınlardan ibarətdir.

# R.M.Məmmədovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Rəhim Məmməd oğlu Məmmədov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2023-cü il*

# E.N.Məmmədovun Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Elşad Novruz oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2023-cü il*

# "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında" 2022-ci il noyabrın 23-də Belqrad şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

# "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında" 2022-ci il noyabrın 16-da Əbu-Dabi şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 fevral 2023-cü il*

# Peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədar **qərara alıram:**

1. Peşə təhsili müəssisələrində 2023-cü il aprelin 1-dən peşə təhsili pilləsinin bütün səviyyələri üzrə dövlət büdcəsinin vəsaiti hesabına kadr hazırlığı mərhələli şəkildə adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət sifarişi ilə həyata keçirilsin.

2. Adambaşına maliyyələşdirmə prinsipi əsasında kadr hazırlığı həyata keçirilən peşə təhsili müəssisələrində 2023-2026-cı illərdə 12 000 (on iki min) təhsilalana münasibətdə ayrı-ayrı ixtisaslar üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalı tətbiq edilsin.

3. Müəyyən edilsin ki:

3.1. hər tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili pilləsinin bütün səviyyələrinə dövlət sifarişi ölkənin əmək bazarının xüsusiyyətləri və prioritet inkişaf istiqamətləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmış təklifləri əsasında müəyyənləşdirilir;

3.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət sifarişinə uyğun olaraq, hər tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili pilləsinin bütün səviyyələrinə tələbə qəbulunu həmin il may ayının 1-dək təsdiq edir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarını, habelə yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydalarını bir ay müddətində təsdiq etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi hər növbəti təqvim ili üçün dövlət büdcəsinin vəsaiti hesabına adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət sifarişi ilə kadr hazırlığını həyata keçirəcək peşə təhsili müəssisələrinin siyahısını və təhsilalanlarının sayını, eləcə də hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalı tətbiq ediləcək təhsilalanların sayını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın icrasından irəli gələn tədbirlərin dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2023-cü il*

# Azərbaycanın Baş naziri Əli Əsədov Dağıstan Xalq Məclisinin sədri ilə görüşüb



Martın 17-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasının Dağıstan Respublikası Xalq Məclisinin sədri Zaur Askenderovla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Zaur Askenderovun səfərinin Azərbaycanla Dağıstan arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafına, o cümlədən qanunverici orqanların qarşılıqlı fəaliyyətinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Tərəflər Azərbaycan və Dağıstan arasında müxtəlif sahələrdə münasibətlərin inkişafını müsbət qiymətləndiriblər.

Görüşdə həmçinin ikitərəfli əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Moskvada MDB İqtisadi Şurasının 97-ci iclası keçirilib

Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) İqtisadi Şurasının 97-ci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycanı iclasda Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.



Qırğız Respublikasının sədrliyi ilə keçirilən iclas nümayəndə heyətlərinin məhdud tərkibdə görüşü ilə başlayıb. Görüşdə MDB-də iqtisadi əməkdaşlığın aktual məsələlərinə dair fikir mübadiləsi aparılıb. MDB-nin aqrar-sənaye kompleksi üzrə Hökumətlərarası Şurasının 2019-2022-ci illərdə fəaliyyəti və Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurasının növbəti iclasının keçirilməsi məsələləri müzakirə olunub.

Nümayəndə heyətlərinin geniştərkibli görüşündə nüvə enerjisinin ictimai məqbulluğunun formalaşdırılmasında MDB-yə üzv dövlətlər arasında əməkdaşlığın əsas istiqamətləri, 2030-cu ilə qədər olan dövr üçün MDB ölkələrinin innovasiyalar sahəsində əməkdaşlığının Dövlətlərarası Proqramının iştirakçıları olan dövlətlərin innovasiyaların kommersiyalaşdırılması mərkəzlərinin fəaliyyəti məsələlərinə baxılıb.

İclasın yekununda radiasiya vəziyyəti ilə bağlı monitorinq məlumatlarının mübadiləsində MDB-yə üzv dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında saziş layihəsi, "Radionaviqasiya" Dövlətlərarası Şurasının 2018-2021-ci illərdə fəaliyyəti haqqında, Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin müəyyən edilməsi qaydaları haqqında 2009-cu il 20 noyabr tarixli sazişə dəyişikliklər edilməsi barədə Protokolun layihəsi, Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin yer təkindən istifadə və onun mühafizəsi üzrə 2021-2025-ci illər üçün birgə işlərin uzunmüddətli planının icrası haqqında layihə və digər sənədlər imzalanıb. MDB İqtisadi Şurasının növbəti iclasının bu il iyunun 23-də onlayn formatda keçirilməsi qərara alınıb.

İqtisadi Şura öz işini MDB İqtisadiyyat Forumu ilə davam etdirib.

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri regional əməkdaşlığı müzakirə ediblər

Martın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı xarici işlər nazirləri Azərbaycanla Türkiyə arasında ikitərəfli və regional əməkdaşlıq məsələlərini, habelə beynəlxalq təşkilatlar çərçivəsində gündəlikdə duran aktual mövzuları müzakirə ediblər.

Tərəflər həmçinin bölgədəki mövcud vəziyyət, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# MSK-nin nümayəndə heyəti Qazaxıstanda parlament və yerli nümayəndəlik orqanlarına seçkiləri müşahidə edəcək

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti 2023-cü il martın 19-da Qazaxıstan Respublikasında keçiriləcək növbədənkənar parlament və yerli nümayəndəlik orqanlarına seçkiləri müşahidə etmək məqsədilə bu ölkəyə səfər edib.

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, Qazaxıstan Mərkəzi Seçki Komissiyasının sədri Nurlan Abdirovun dəvətinə əsasən reallaşdırılan səfər çərçivəsində M.Pənahovun qazaxıstanlı həmkarı və digər rəsmi şəxslərlə bir sıra görüşlər keçirməsi, ali seçki qurumları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılması nəzərdə tutulur.

Qeyd edək ki, MSK-nin təmsilçiləri, həmçinin Türk Dövlətləri Təşkilatı və Müstəqil Dövlətlər Birliyinin müşahidə missiyalarının tərkibində də sözügedən seçkilərin müşahidəsində iştirak edirlər.

Mərkəzi Seçki Komissiyasının nümayəndələri səsvermə günü paytaxt və bölgələrdə yerləşən seçki məntəqələrində müşahidə aparacaqlar.

# Rusiya ilə sərhəddə yerləşən "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsi istifadəyə verilib

Martın 17-də Rusiya Federasiyası ilə sərhəddə yerləşən Şimal Ərazi Baş Gömrük İdarəsinin "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsi istifadəyə verilib. "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsində tikinti işləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən həyata keçirilib.





AZƏRTAC xəbər verir ki, açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk, Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Dağıstan Respublikası Hökumətinin sədri Abdulmüslüm Abdulmüslümov və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə Xaçmaz şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə əklil qoyulub.

İki ölkənin dövlət sərhədində yerləşən "Samur" və "Yaraq-Qazmalar" gömrük-keçid məntəqələrində olan nümayəndə heyətinin üzvləri sərhədkeçmə prosesləri, buraxılış qabiliyyəti ilə bağlı fikir mübadiləsi aparıblar.

Sonra "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsində yenidən inşa edilən infrastrukturun açılışı olub. Nümayəndə heyətlərinin üzvlərinə məlumat verilib ki, layihənin ümumi sahəsi 6,85 hektar, yaşıllıq əraziləri 3331 kvadratmetr, tikililərin sahəsi 20 min 104 kvadratmetr, buraxılış məntəqəsinin sahəsi isə 22 min kvadratmetrdir.

Açılış mərasimində çıxış edən Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev iki ölkə arasında bütün sahələrdə səmərəli və işgüzar əməkdaşlığın qurulduğunu, Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Rusiya Federasiyası ilə iqtisadi-ticarət əlaqələrinin inkişaf etdiyini, nəticədə ötən il ticarət dövriyyəsinin 3.7 milyard dollara çatdığını bildirib. "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə ölkələrimiz arasındakı səmərəli əməkdaşlıqdan, Azərbaycan tərəfinin yol infrastrukturunun yenidən qurulması, logistika imkanlarının genişləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən danışan Ş.Mustafayev yenidən inşa olunan "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi, yükdaşımaların artırılması, nəqliyyat və sərnişin axınının səmərəli şəkildə tənzimlənməsində əhəmiyyətli rol oynayacağını diqqətə çatdırıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov beynəlxalq standartlara uyğun inşa edilən, "Şimal-Cənub" beynəlxalq dəhlizi üzərində yerləşən "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsinin hər iki ölkənin idxal-ixrac imkanlarını daha da genişləndirəcəyini diqqətə çatdırıb. Vurğulanıb ki, Azərbaycan və region üçün strateji əhəmiyyətə malik olan "Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsinin əhəmiyyəti daha da artacaq.

Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk çıxışında bildirib ki, 2022-ci ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi təxminən 4 milyard dollaradək artıb. Bu o deməkdir ki, əlaqələrimizin möhkəmləndirilməsi və inkişafı ölkələrimiz üçün qarşılıqlı maraq doğurur.

"Xanoba" dövlət sərhədindən buraxılış məntəqəsində gün ərzində hər istiqamət üzrə 550-dən artıq yük və 1000-dən artıq minik nəqliyyat vasitəsinin, 30-dan artıq avtobusun və 5000 nəfərədək fiziki şəxsin gömrük sərhədindən keçidi nəzərdə tutulub.

Dövlət sərhədindən buraxılış məntəqəsində nəqliyyat vasitələrinin hərəkəti üçün 13 keçid xətti müəyyən olunub ki, bu da yük, avtobus, minik nəqliyyat vasitələri üzrə sərhəd və gömrük nəzarətinin sürətli qaydada aparılmasına əlverişli şərait yaradır. Nəqliyyat vasitələrinin sərhəd və gömrük qeydiyyatı, eləcə də ilkin baxış buraxılış məntəqəsində aparılacaq, digər zəruri rəsmiləşdirmə əməliyyatları terminalda həyata keçiriləcək.

Milli Məclisin iclasında

# Milli Məclisdə Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyətinə dair hesabatı dinlənilib

*Əvvəli 1-ci səh.*

Ötən il ümumi daxili məhsulun 4,6 faiz artdığını qeyd edən Sahibə Qafarova vurğulayıb ki, iqtisadi artım əsasən qeyri-neft sektoru hesabına əldə olunub, ixrac iki dəfədən çox artıb, ölkənin valyuta ehtiyatları il ərzində 5,3 milyard dollar artaraq 58,5 milyard dollara yüksəlib.

Milli Məclisin Sədri deyib ki, bu gün Azərbaycanın malik olduğu resurslar böyükmiqyaslı infrastruktur layihələrini həyata keçirməyə imkan verir və işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri sürətlə davam etdirilir.

S.Qafarova Azərbaycanın nail olduğu inkişaf səviyyəsinin Prezident İlham Əliyev tərəfindən daha gözəl ifadə olunduğunu bildirib: "Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil".

Qeyd edilib ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılıb. Bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat parlamentə təqdim olunub.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyətinə dair hesabatla çıxış edib.

Baş nazir bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, uğurlu xarici və daxili siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da artıb, milli iqtisadiyyatımızın inkişafı davam etdirilib, müdafiə qabiliyyəti gücləndirilib, əhalinin sosial rifahı daha da yaxşılaşıb. Hesabat ilində hökumət tərəfindən iqtisadi fəallığın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, müdafiə və ordu quruculuğu, təhsil və səhiyyə sisteminin inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində mühüm tədbirlər görülüb.

O qeyd edib ki, Nazirlər Kabinetində il ərzində 462 qərar qəbul edilib, 820 sərəncam imzalanıb. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq hökumət tərəfindən hazırlanan "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" Prezidentin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilib. Hökumətin vəzifəsi strategiyanın yeni inkişaf mərhələsindəki hədəflərinə çatmaq, ölkəmizin qüdrətli dövlətə çevrilməsini təmin etməkdir. Diqqətə çatdırılıb ki, BMT-nin 2022-ci ildə təqdim etdiyi "Dayanıqlı İnkişaf üzrə Hesabat"ında Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına dair indeks üzrə Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 163 ölkə arasında 50-ci yerdə qərarlaşıb. 2022-ci ildə qlobal geosiyasi gərginlik və Rusiya-Ukrayna münaqişəsi şəraitində dünya iqtisadiyyatında qeyri-müəyyənliklər və resessiya risklərinə baxmayaraq, Azərbaycanda iqtisadi artım davam edib.

Məlumat verilib ki, 2022-ci ildə ölkədə 133,8 milyard manatlıq və ya 2021-ci illə müqayisədə 4,6 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Qeyri-neft sektoru üzrə ÜDM-in artımı 9,1 faiz, qeyri-neft sənayesində 7,1 faiz, kənd təsərrüfatı istehsalında 3,4 faiz artım olub. Əhalinin hər nəfərinə düşən ÜDM isə 4,1 faiz artaraq 13,3 min manat təşkil edib. Ötən il xarici ticarət dövriyyəsi təxminən 56,2 milyard ABŞ dollarına çatıb. 2021-ci illə müqayisədə xarici ticarət dövriyyəsi 57,7 faiz artıb. Strateji valyuta ehtiyatları 5,3 milyard ABŞ dolları artaraq 58,5 milyard ABŞ dolları təşkil edib və xarici birbaşa dövlət borcunu 8 dəfədən çox üstələyir. Hazırda ehtiyatlarımız 62,5 milyard ABŞ dollarıdır, artım isə 2 ayda 4 milyard ABŞ dolları təşkil edib. 2022-ci ilin sonuna xarici birbaşa dövlət borcunun məbləği 9,5 faiz azalaraq 6,7 milyard ABŞ dolları olub və ÜDM-in 8,5 faizini təşkil edir. Hesabat ili ərzində vergi və gömrük daxilolmaları üzrə yığımlar proqnozdan 4,8 milyard manatdan çox olub və bu da 2022-ci ilin dövlət büdcəsinə yenidən baxılmasına (dürüstləşməyə), sosial və investisiyayönümlü xərclərin artımına imkan verib. Bütövlükdə, 2022-ci ildə dövlət büdcəsinin gəlirləri təxminən 31 milyard manat, xərcləri isə 32 milyard manat icra olunub.

Bildirilib ki, 2022-ci ildə Azərbaycanda orta illik inflyasiya 13,9 faiz təşkil edib. Xüsusilə ərzaq qiymətləri idxal vasitəsilə daxili ərzaq inflyasiyasına ciddi təsir göstərib. Buna baxmayaraq, yüksək neft qiymətləri şəraitində tədiyə balansının profisitli olması, valyuta bazarında tarazlıq, qəbul edilmiş makro-fiskal çərçivə parametrləri və monetar şərait inflyasiya təzyiqlərini nisbətən məhdudlaşdırıb. Antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında Nazirlər Kabinetinin 2022-ci il 21 fevral tarixli sərəncamına əsasən, müvafiq Tədbirlər Planı təsdiq edilib və hesabat ili ərzində aidiyyəti dövlət qurumları tərəfindən görülən tədbirlər inflyasiya proseslərinə azaldıcı təsir göstərib.

Əli Əsədov deyib ki, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı daxili bazarda özünütəminat səviyyəsinin qorunması və əhalinin əsas ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması istiqamətində vacib işlər görülüb. Əsas ərzaq məhsulları üzrə ehtiyatların yaradılması ilə bağlı qərarlar qəbul olunub. Minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının tədarükü və emalı ilə məşğul olan sahibkarlara güzəştli şərtlərlə kreditlər, faiz subsidiyaları və vergi-gömrük güzəştləri verilib. Ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 540 milyon manat vəsait sərf edilib. Ölkə Prezidentinin "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci il 19 iyul tarixli Fərmanına uyğun olaraq, 2023-cü ildə müvafiq tədbirlərin həyata keçirilməsi üçün 180 milyon manat vəsait nəzərdə tutulub. Prezidentin müvafiq sərəncamları ilə regionların sosial-iqtisadi inkişafı üçün dövlət büdcəsindən 208 milyon manat vəsait ayrılıb. Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi üçün vacib olan su problemlərinin həlli ilə bağlı lazımi addımlar atılıb, su ehtiyatlarından səmərəli və qənaətlə istifadə olunur. Əsas su anbarlarında suyun həcmi 2023-cü il yanvarın 1-nə 12,5 milyard kubmetr təşkil edib ki, bu da 2022-ci illə müqayisədə 600 milyon kubmetr, 2020-2021-ci illərlə müqayisədə 2 milyard kubmetrdən çoxdur.

Baş nazir diqqətə çatdırıb ki, hesabat ilində əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin və təqaüdlərin, xüsusən də aztəminatlı təbəqənin sosial ödənişlərinin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunub. 2022-ci ildə minimum əməkhaqları 20 faiz artırılaraq 250 manatdan 300 manata çatdırılıb. Minimum pensiya məbləği 20 faiz, sosial müavinətlər və Prezident təqaüdləri 26 faiz artırılıb. Aylıq müavinətlərin orta məbləği üzrə artım 33 faiz təşkil edib. Ümumilikdə ötən il ərzində 3,4 milyon nəfəri əhatə edən və əlavə illik maliyyə yükü 2,1 milyard manat olan sosial islahat paketi həyata keçirilib. 2022-ci ildə dövlət büdcəsi xərclərinin 11 milyard 577 milyon manatı və ya 36 faizi sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib.





Hesabatda bildirilib ki, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə, şəhid ailələrinə, həmçinin sosial cəhətdən həssas təbəqədən olan digər ailələrə post-müharibə dövründə 4500-dən artıq, o cümlədən 2022-ci ildə 1500 mənzil təqdim edilib. Keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təminatı üçün 2022-ci ilin dövlət büdcəsindən 365 mln. manat vəsait yönəldilib. Silahlı Qüvvələrin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, ordu quruculuğu, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi və hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş xüsusi tədbirlər görülüb.

Əli Əsədov son dövrlərdə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminində və nəqliyyat dəhlizlərinin inkişafında rolunun daha da artdığını, ölkəmizin regionda elektrik enerjisi ixrac edən aparıcı dövlətə çevrildiyini söyləyib. Baş nazir "Cənub qaz dəhlizi" vasitəsilə hesabat ili ərzində ümumilikdə 21 milyard, o cümlədən Avropaya 11,4 milyard kubmetr qaz ixrac edildiyini deyib. O qeyd edib ki, ötən il Azərbaycanla Avropa İttifaqı arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında imzalanmış memoranduma əsasən, 2027-ci ilədək TANAP-la qaz nəqlinin indiki 16 milyard kubmetrdən 31 milyard kubmetrə, TAP-la isə 11 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Eyni zamanda bərpaolunan enerji potensialından səmərəli istifadə edilməsi istiqamətində mühüm işlər görülür.

Diqqətə çatdırılıb ki, dünyada və regionda cərəyan edən geosiyasi hadisələr fonunda Azərbaycanın nəqliyyat-tranzit infrastrukturuna da tələbat artıb. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz regionun mühüm nəqliyyat və logistikahabı kimi tanınır. Ötən il Azərbaycan ərazisindən keçən tranzit yükdaşımalar 75 faizdən çox artıb. Ölkədə yol infrastrukturunun tikintisi, yenidən qurulması və bərpası davam etdirilib. Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində qazanılan qələbədən sonra regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar açılıb. Bu kontekstdə yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin, xüsusilə Zəngəzur dəhlizinin açılması böyük əhəmiyyət kəsb edir.

Baş nazir Prezidentin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edildiyini, proqramda nəzərdə tutulan tədbirlərin icrasının təmin edilməsi məqsədilə Nazirlər Kabinetinin sərəncamının imzalandığını söyləyib. O, Vətən müharibəsindən ötən müddət ərzində azad olunmuş ərazilərdə müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində görülən işlərdən danışıb.

Baş nazir qeyd edib ki, yaddaqalan tarixi hadisələrdən biri işğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə başlanılmasıdır. Cari ilin sonuna qədər isə laçınlıların birinci qrupunun yerləşdirilməsi planlaşdırılır. Diqqətə çatdırılıb ki, 2022-ci il oktyabrın 20-də Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə müasir səviyyədə inşa olunmuş Zəngilan Beynəlxalq Hava Limanının açılışı olub. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının vahid enerji şəbəkəsinə qoşulması təmin olunub. Azad olunmuş torpaqlarda 11 su-elektrik stansiyası inşa edilib. Habelə hesabat dövründə işğaldan azad edilmiş ərazilərdə ümumi uzunluğu 2241 km təşkil edən 19 avtomobil yolunun layihələndirilməsi və tikintisi işləri, Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar işlərin yerinə yetirilməsi davam etdirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parklarında ümumilikdə 18 sənaye müəssisəsi qeydiyyata alınıb. Kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatı qeydiyyatdan keçib. Bildirilib ki, son iki ildə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına ümumilikdə 6,5 milyard manat vəsait yönəldilib.

Ötən il Azərbaycanın incisi olan qədim Şuşa şəhərinin 270 illiyinin qeyd edildiyini deyən Baş nazir dövlət başçısının 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında Sərəncamının icrasını təmin etmək məqsədilə bir çox mədəniyyət və digər tədbirlərin keçirildiyini, eyni zamanda Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edildiyini söyləyib.

Çıxışının sonunda Əli Əsədov 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illiyinin tamam olduğunu, Ulu Öndərin yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Prezidentinin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzaladığını vurğulayıb. O, Prezidentin rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyevin miras qoyduğu müasir müstəqil, dünyəvi və demokratik Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, Vətənimizin daha da inkişaf etdirilməsi üçün səylərin artırılmasının vacibliyindən danışıb.

* * *

Sonra Milli Məclisin profil komitələrinin sədrləri çıxış ediblər.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan dövlət siyasətinin nəticəsi olaraq son illər həyata keçirilən iqtisadi islahatlar, genişmiqyaslı layihələr 2022-ci ildə ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələr verib. Eyni zamanda bu münbit şərait dövlət başçısı tərəfindən hökumət qarşısında qoyulan tapşırıqların icrasının təmin edilməsi üçün lazımi imkanlar yaradıb.

Tahir Mirkişili hesabat ilində ölkəmizdə qeydə alınmış artımları, maliyyə sabitliyinin və büdcə dayanıqlılığının qorunub saxlanılmasını yüksək nəticələr kimi qeyd edib.

O, dövlət büdcəsinin ümumi icra vəziyyətini müsbət qiymətləndirib, 2022-ci ildə dövlət büdcəsi xərclərinin 99,3 faiz səviyyəsində icra olunmasını qənaətbəxş hesab edib.

Komitə sədri Nazirlər Kabinetinin 2022-ci il üçün fəaliyyəti haqqında hesabatını müsbət qiymətləndirib.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev hesabat barədə fikirlərini, bir sıra qeyd və təkliflərini açıqlayıblar.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov hesabatın yüksək səviyyədə və əhatəli şəkildə hazırlandığını deyib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət nəticəsində ölkənin enerji təhlükəsizliyi təmin edilib, ölkə əhalisinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatının etibarlılığı və dayanıqlılığı gücləndirilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev hesabatın mükəmməl hazırlandığını və ölkəmizin iqtisadi-siyasi, sosial-mədəni, təsərrüfat həyatının bütün sahələrini özündə əks etdirdiyini söyləyib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev hökumətin 2022-ci ildə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirdiyini bildirib. Qeyd edib ki, hesabat ilində ölkəmizdə makroiqtisadi sabitliyə nail olunub, inflyasiyanın mənfi təsirlərinin aradan qaldırılması və əhalinin rifah halının yaxşılaşdırılması üçün təsirli tədbirlər görülüb.

Hesabatla bağlı müzakirələrdə Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov, deputatlar Mahir Abbaszadə, Elnur Allahverdiyev, Soltan Məmmədov, Ceyhun Məmmədov, Əli Məsimli və Jalə Əliyeva çıxış ediblər.

Fasilədən sonra Nazirlər Kabinetinin 2022-ci ildəki fəaliyyəti haqqında hesabata dair müzakirələr davam etdirilib.

Milli Məclisin komitə sədrləri Qənirə Paşayeva, Siyavuş Novruzov, Səməd Seyidov, Hicran Hüseynova, Zahid Oruc, deputatlar Naqif Həmzəyev, Vahid Əhmədov, Azər Badamov, Elman Nəsirov, Kamilə Əliyeva, Musa Qasımlı, Qüdrət Həsənquliyev, Kamal Cəfərov, Tahir Kərimli, Vüqar Bayramov, Vüqar İskəndərov, Bəhruz Məhərrəmov, Aqiyə Naxçıvanlı, Aqil Abbas, Etibar Əliyev, Sabir Rüstəmxanlı, Fəzail Ağamalı çıxış edərək sənəd barədə fikirlərini və bəzi qeydlərini səsləndiriblər.

Deputatlar dünyada baş verən mürəkkəb siyasi-iqtisadi hadisələr fonunda hökumətin ötən il məhsuldar çalışdığını, qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiyini bildiriblər. Ölkənin iqtisadi inkişafının sürətləndirilməsinə, xalqın rifahının yaxşılaşdırılmasına yönəlmiş proqramların həyata keçirilməsini təqdirəlayiq hesab ediblər. Deputatlar iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi, işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, regionların tarazlı inkişafı istiqamətində görülən işlərin vacibliyindən danışıb, fikirlərini səsləndirib, təkliflərini veriblər.

Çıxışlarda ölkəmizdə iqtisadi siyasətin sosial siyasətlə uzlaşdırılmasının Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin əsas prioritetlərindən olduğu bildirilib.

Deputatlar həmçinin seçicilərin üzləşdiyi bəzi problemləri hökumət üzvlərinin diqqətinə çatdırıb, bir sıra aktual məsələlərə toxunublar.

Ümumilikdə hökumətin 2022-ci ildəki fəaliyyəti qənaətbəxş hesab olunub.

Baş nazir Əli Əsədov deputatlar tərəfindən səsləndirilən fikirlərə münasibət bildirdikdən və qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyəti haqqında hesabat səsə qoyularaq nəzərə alınıb.

Parlamentin Sədri Sahibə Qafarova qarşıdan gələn Novruz bayramı münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlanmasını təklif edib.

Sahibə Qafarova Baş nazirə və hökumət üzvlərinə, deputatlara, media nümayəndələrinə də təbriklərini çatdırıb.

Bununla da Milli Məclisin bugünkü plenar iclası başa çatıb.



# Qardaşlığın Ankara Zirvəsi

## İlham Əliyevin təşəbbüsü türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz təcəssümü kimi qiymətləndirildi

*Əvvəli 1-ci səh.*

"Fəlakət-Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr olunan Zirvə görüşü Türkiyənin cənub və cənub-şərq bölgələrində baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirə edildiyi platforma oldu. Liderlər fəlakətlərlə mübarizədə Türk Dövlətləri Təşkilatı daxilində çoxtərəfli əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkərək, regionda mövcud çağırışlarla bağlı məsləhətləşmələr apardılar.

İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri olduğunu bəyan edib. Ötən ilin noyabrında Türkdilli Dövlətlər Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə görüşündə dövlət başçısı vurğulayıb ki, Azərbaycan həmişə türkdilli dövlətlərin sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq.

Hər zaman olduğu kimi, bu məsələdə də İlham Əliyevin sözü ilə əməli üst-üstə düşdü. Belə ki, ötən ilin dekabrında Buxarestdə imzalanmış müqaviləyə əsasən, Azərbaycan Avropaya, o cümlədən Türk Dövlətləri Təşkilatında müşahidəçi statusa malik Macarıstana "yaşıl enerji" ötürəcək. Bundan başqa, Azərbaycan Prezidentinin yanvarda Macarıstana səfəri və səfər zamanı imzalanmış sənədlər ölkəmizin təşkilatın genişləndirilməsi işinə töhfələrindən biri kimi qiymətləndirilməlidir.

### Azərbaycanla Türkiyə istər xoş, istərsə də çətin günlərdə bir-birinin yanındadır

Bu bir həqiqətdir ki, Azərbaycanın türk dünyası ilə əlaqələri kontekstində qardaş Türkiyə ilə münasibətlər xüsusi yer tutur. Azərbaycan və Türkiyə strateji müttəfiq ölkələr kimi bütün platformalarda bir-birini dəstəkləyir, istər xoş, istərsə də çətin günlərdə bir-birinin yanındadır.

İki ölkənin qardaşlıq nümunəsini İkinci Qarabağ müharibəsində, azad olunmuş torpaqlarımızda aparılan bərpa və yenidənqurma işlərində Türkiyənin ölkəmizə dəstəyində, eyni zamanda Azərbaycanın qardaş ölkədə baş vermiş meşə yanğınlarının söndürülməsi və zəlzələnin nəticələrinin aradan qaldırılması işlərində göstərilən "qardaş köməyi"ndə gördük. İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın liderlikləri ilə ölkələrimiz arasında formalaşan sıx münasibətlər digər türk dövlətləri arasındakı əlaqələrə də sirayət etməkdədir.

Ankarada keçirilən görüşdə çıxış edən Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını da ifadə etdi.

### Türk İnvestisiya Fondunun yaradılması əməkdaşlığın inkişafına mühüm töhfə verəcək

Ankara Sammitində türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarların qəbul olunduğunu vurğulayan Rəcəb Tayyib Ərdoğan bu baxımdan, Türk İnvestisiya Fondunun yaradılmasına dair qərarı xüsusi qeyd edib. Dövlət başçısı bu fondun üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcəyini bildirib. Dövlət başçısı qeyd edib ki, Türk İnvestisiya Fondunun yaradılmasına dair razılaşma Zirvə görüşünün konkret nailiyyətlərindən biridir. Bu fond qardaş ölkələrin iqtisadi birliyinin möhkəmlənməsinə töhfə verəcək.

Mövcud və gələcəkdə yaşana biləcək çətinliklərin dəf edilməsi üçün üzv ölkələrin həmrəyliyinin gücləndirilməsinin önəmini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, bunun üçün Türk Dövlətləri Təşkilatının imkanları artırılmalıdır. Tarixi, mədəni və humanitar dəyərlərə söykənməyən qurumların yerində saydığı bir dövrdə Türk Dövlətləri Təşkilatı yeni güc mərkəzinə çevrilməkdədir.

Qeyd edək ki, son illərdə Xəzər hövzəsində türk dünyası ölkələri neft, təbii qaz və elektrik enerjisi sahələrində irimiqyaslı layihələri birlikdə uğurla həyata keçirirlər. Bunun bariz nümunsi kimi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin 16 ildir Azərbaycan, Türkmənistan və Qazaxıstan neftinin dünya bazarlarına fasiləsiz çatdırıldığını göstərmək olar. "Cənub qaz dəhlizi" sayəsində türk dövlətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayırlar.

### Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub

Zirvə görüşündə çıxış edən İlham Əliyev bildirib ki, Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olublar. Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndəriliblər. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə 3 mindən artıq şəxsə tibbi xidmət göstərib.

Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesablarına köçürülüb. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılıb.

İlham Əliyev Azərbaycan və Türkiyənin həm sevincli, həm də kədərli günlərdə bir-birinin yanında olduğunu və bundan sonra da belə olacağını vurğulayaraq əminliklə qeyd edib ki, Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaq.

Prezident 44 günlük Vətən müharibəsində qardaş ölkənin Azərbaycana dəstəyindən də söz açaraq Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyinin bizə əlavə güc verdiyini deyib.

2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi isə əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qaldırılıb.

İlham Əliyev şanlı zəfərimizdən sonra regionda yaranmış reallıqdan, Böyük qayıdış proqramının icrasına balanmasından, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrdən söz açıb və qeyd edib ki, işğaldan azad edilmiş ərazilərimizdə tikinti-quruculuq işlərində Türkiyə şirkətləri uğurlu işlər həyata keçirirlər: "Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla gedib".

Prezident işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikilən məktəbə və Qazaxıstan tərəfindən inşa olunan yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirib, eyni zamanda qeyd edib ki, bu yaxınlarda Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğız İnkişaf Fondu yaradılıb.

Zirvə görüşündə Qazaxıstan TDT-nin X Zirvə görüşünə 2023-cü ilin oktyabr ayında bu ölkənin Türkistan şəhərində evsahibliyi etməyə hazır olduğunu təsdiq edib.

Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Düzdür, bu gün Türkiyə kimi güclü dövlətin Azərbacanla bir olması bəzi dövlətlərin qısqanclığına səbəb olsa da, bir şeyi anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə qardaşlığı illərin sınağından çıxaraq daha da möhkəmlənmişdir. Heç bir qüvvə bu birliyə xələl gətirə bilməz.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın türk birliyinə tarixi töhfəsi

Xəbər verildiyi kimi, martın 16-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib. Bu sammit Türkiyədə baş vermiş zəlzələdən sonra "Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr edilib. Fövqəladə Zirvə görüşü türk dövlətlərinin bütün qlobal çağırışlar qarşısında birgə addımladığından və ümumilikdə türk dünyasının yenilməz gücündən xəbər verir. Prezident İlham Əliyev sammitdəki çıxışında qeyd edib: "Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir".





Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü yeni dünya düzəninin formalaşmasına mühüm töhfədir.

### Ölkəmiz təşəbbüskarlığını davam etdirir

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Ankarada keçirilən Fövqəladə Zirvə görüşü tarixi hadisədir: "Qardaş ölkənin məruz qaldığı ağır zəlzələnin nəticələrinin aradan qaldırılması üçün fədakarlıq, böyük humanizm və səfərbərlik nümayiş etdirən türk dünyasının bu Zirvə görüşündə bir araya gəlməsi ciddi əhəmiyyət kəsb edir. Türk dövlətləri uzun əsrlər boyu qoruyub saxladıqları qardaşlıq ənənələrini, tarixi bağlarını, dini-mənəvi birliklərini zaman-zaman nümayiş ediblər. Son təşəbbüslərin əsas müəllifinin Azərbaycan lideri İlham Əliyevin olması da xüsusi məna kəsb edir. Bu, həmçinin ölkəmizin keçdiyi şərəfli yüksəliş yoluna işıq tutan və daha da gücləndiyimizi sübut edən ən mühüm göstəricilərdən biridir".

Zahid Oruc dedi ki, üç il öncə Azərbaycan hərbi savaşın səngərində mübarizə apardığı vaxtlarda türk dünyası, xüsusən də qardaş Türkiyə, onun lideri Rəcəb Tayyib Ərdoğan, eləcə də bütün Türkiyə xalqı bizimlə eyni mənəvi duyğuları paylaşırdı. Bu gün isə Türkiyədə baş vermiş "əsrin fəlakəti"ndə 48 mindən artıq insan həyatını itirib. Belə ağır vəziyyətdə, Azərbaycan və Türkiyə ürək ağrıları, göz yaşları, həyəcanla birlikdə eyni səngərdə mübarizəyə qalxıb, fəlakətə sinə gərirlər. Şübhəsiz ki, bu, "bizim qanımız da, canımız da birdir" duyğusunun təntənəsidir.

Komitə sədri vurğulayıb ki, belə sammitlərin təşkili bundan sonrakı dövrlərdə də türk insanının özünü yalnız hiss etməyəcəyinə zəmanət verir: "Tarixin müxtəlif dövrlərində çətin sınaqlarla üz-üzə qalan bu böyük millət bütün ağrılı mərhələləri uğurla adlayıb və bundan sonra da belə olacaq. Onu da xüsusi qeyd etmək lazımdır ki, mötəbər təşəbbüslər nəticəsində təşkil edilən belə görüşlər türk dövlətlərinin güclü format və siyasi struktur kimi formalaşdığının göstəricisidir. Dünyanın taleyinin həll olunduğu bu çətin dönəmdə türk dövlətlərinin vahid struktur kimi formalaşması mühüm əhəmiyyət kəsb edir".

### Türk dövlətləri yüksəliş dövrünü yaşayır

Milli Məclisin deputatı Rəşad Mahmudov qeyd edib ki, son dövrlər beynəlxalq siyasi münasibətlərdə baş verən proseslər yeni dünya düzəninin formalaşmasının başlanğıcı sayıla bilər: "Azərbaycanın yürütdüyü xarici siyasət kursu belə bir situasiyada dövlətimizin maraqlarının qorunmasına və qlobal arenada mövqelərinin möhkəmlənməsinə xidmət edir. Azərbaycan yeni siyasi düzənin bütün spektrləri üzrə fəal iş aparır. Qoşulmama Hərəkatında liderlik mövqeyi Azərbaycan üçün geniş geosiyasi müstəvidə böyük imkanlar yaradıb. Beynəlxalq münasibətlərdə ölkəmizin mühüm rol oynadığı platformalardan biri də Türk Dövlətləri Təşkilatıdır. İndi bu təşkilat dünyada yeni güc mərkəzi olmaqla yanaşı, həm də regional iqtisadi-siyasi proseslərə ciddi təsir imkanlarına malik nüfuzlu qurumdur. Prezident İlham Əliyevin təşəbbüsü ilə Ankarada keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin başçılarının Fövqəladə Zirvə görüşü isə yeni yüksəliş dövrünün başlanğıcı sayıla bilər".

Deputat bildirib ki, Fövqəladə Zirvə görüşü xüsusi əhəmiyyət kəsb edir: "Görüşdə Azərbaycan-Türkiyə münasibətlərinə toxunan dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimiz həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olub. Ölkə rəhbəri, həmçinin şərəfli Vətən müharibəsindən danışdı, Rəcəb Tayyib Ərdoğanın ilk anlardan başlayaraq son günə qədər göstərdiyi siyasi və mənəvi dəstəyinin Azərbaycana əlavə güc verdiyini xüsusi vurğuladı. 44 günlük müharibə dövründə ölkəmizə dəstək təkcə dövlət səviyyəsində göstərilmədi, bütün Türkiyə xalqı Azərbaycanın yanında oldu. Prezident daha sonra qardaş Türkiyədə çoxsaylı insan tələfatına səbəb olan dəhşətli zəlzələnin, onun yaratdığı ağır fəsadların Azərbaycan dövləti və xalqı tərəfindən ürək ağrısı ilə qarşılandığını söylədi. Prezidentin qeyd etdiyi kimi, ilk andaca Azərbaycan dövləti bütün varlığı ilə Türkiyənin yanında oldu. İstər dövlət, istər vətəndaşlarımız bir sinədə döyünən Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olundu".

Rəşad Mahmudovun sözlərinə görə, Türkiyədə baş vermiş zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyət Zirvə görüşünün əsas müzakirə mövzusu olsa da, bu toplantı digər məsələlərin də gündəmə gətirilməsi baxımından uğurlu platforma oldu. Türk dünyasının tək ürək, tək vücud olduğunu söyləyən Rəcəb Tayyib Ərdoğanın Türk Dövlətləri Təşkilatının enerji təhlükəsizliyinin təmin edilməsində, eləcə də regional nəqliyyat əlaqələrinin inkişafında və digər məsələlərdə strateji rol oynayacağı mesajı türk soyuna düşmən kəsilənlərə sərt zərbə oldu.

"Prezident İlham Əliyev daha ağrılı və kədərli bir problemdən danışaraq Türk dünyasının türk dövlətlərinin hüdudları ilə məhdudlaşmadığını, daha böyük coğrafiyanı əhatə etdiyini bildirdi. Belə ki, dünyada yaşayan azərbaycanlıların 50 milyondan çox olduğunu bəyan edən dövlətimizin başçısı cəmi 10 milyon nəfərin Azərbaycanda yaşadığını, qədim türk yurdu olan Qərbi Zəngəzurun sovet hökumətinin qərarı ilə Azərbaycandan ayrılıb Ermənistana verilməsini Türk dünyasının coğrafi cəhətdən ayrılması kimi xarakterizə etdi", - deyə deputat bildirib.

Deputat deyib ki, Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının Ankarada keçirilən Fövqəladə Zirvə görüşü Türkiyə-Azərbaycan müttəfiqliyinin və bütövlükdə Türk dünyasının inkişafında önəmli rol oynayacaq. Bu zirvə görüşü TDT-nin yüksəlişində Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın həm beynəlxalq müstəvidə, həm də Türk dünyasında liderliyini təsdiq etdi. Eyni zamanda dünya bir daha şahid oldu ki, bu iki liderin timsalında Azərbaycan-Türkiyə müttəfiqliyi kimi ikinci bir qardaşlıq nümunəsi yoxdur".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***




# Azərbaycan Avropa üçün logistik imkanları baxımından da cəlbedici ölkədir

## Hayastan isə yenə yaxşını yamandan ayıra bilmir

Prezident İlham Əliyevin Almaniyaya səfəri uğurlu oldu. Şübhəsiz ki, dövlətimizin başçısının apardığı danışıqlar Azərbaycan-Almaniya siyasi və iqtisadi əlaqələrinin inkişafında yeni mərhələnin başlanmasına təkan verəcək. Bu səfər həmçinin Azərbaycan-Avropa iqtisadi əlaqələrinin güclənməsinə də müsbət dinamika qatacaq.

Hazırda Avropanı maraqlandıran ən önəmli məsələ Azərbaycandan qaz və elektrik enerjisinin idxalıdır. Səbəbi məlumdur: Rusiya-Ukrayna müharibəsindən sonra "qoca qitə" Rusiya qazından asılılığı aradan qaldırmaq üçün alternativ yollar axtarır. Bu üzdən Azərbaycana etibarlı tərəfdaş kimi boşluğu müəyyən qədər doldura biləcək ölkə kimi baxılır.

Lakin dövlətimizin başçısının Almaniyanın aparıcı şirkətlərin təmsilçiləri ilə müzakirə etdiyi digər sahələr də oldu. Bunlardan biri indi Orta dəhliz adlandırılan "Şərq-Qərb" beynəlxalq marşrutudur. Alman iş adamlarının bu nəqliyyat dəhlizi ilə maraqlanması təsadüfi deyil. Çünki hazırda Çinlə Avropa arasında 1,5 trilyon dollar həcmində ticarət dövriyyəsi mövcuddur. Almaniya Çinlə ticarət aparan Avropanın öndə gedən ölkəsidir. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra şimal qonşumuzun ərazisindən keçən ənənəvi marşrut bağlanıb. Bu səbəbdən hazırda Almaniya ilə Çin arasında qarşılıqlı ticarətdə geriləmə mövcuddur. Alman iş adamları da bundan rahatsızdırlar və onlar ümud yeri kimi Orta dəhlizi görürlər. Azərbaycan isə bu marşrut üzrə açar ölkədir. Alman şirkətlərinin Azərbaycandan keçən Orta dəhlizə investisiya qoyaraq onun imkanlarını genişləndirməkdə maraqlı olmalarının səbəbi də budur.

Prezident İlham Əliyev Almaniya iş adamlarına bu sahədə ölkəmizin gördüyü işlər barədə məlumat verərək demişdir: "İndi Mərkəzi Asiyadan Azərbaycana doğru böyük dönüşlə əlaqədar, biz gərgin işləməliyik. Məlumat üçün sizə bildirim ki, hazırda Azərbaycan məhdud imkanları olan Bakı-Tbilisi-Qars dəmir yolunun, onun Gürcüstan hissəsinin genişlənməsinə investisiya yatırır. Ola bilsin ki, gələn il bu investisiya layihəsi tamamlanacaq. O, bir milyon tondan beş milyon tonadək genişləndiriləcək. Azərbaycanın əlavə investisiyaları 120 milyon ABŞ dollarından çox olacaq və ümidvarıq ki, biz onu gələn il tamamlayacağıq. Başqa dar keçidlər də var, onlardan biri bizim Dəniz Ticarət Limanı ola bilər. Hazırda biz onun 15 milyon tondan 25 milyon tona və 1 milyon TEU-dək genişlənməsinin texniki əsaslandırmasının tamamlanması prosesindəyik".

Bu yerdə görüş zamanı "Thales" şirkətinin Azərbaycan və Gürcüstandakı təmsilçisi Henrik Klanerin Prezident İlham Əliyevə ölkəmizdə gördükləri işlər barədə məlumat verərək dediyi sözləri sitat gətirək: "Biz Azərbaycan dəmir yollarını daha da təkmilləşdirməyə hazırıq. İlk layihə kimi deyə bilərəm ki, şirkətin Bakıda səlahiyyətli mərkəzinin açılması planlaşdırılır. Bu, Azərbaycan, Gürcüstan və Mərkəzi Asiyadakı fəaliyyətin özəyi olacaq".

Zəngəzur dəhlizinin açılması marşrutun şaxələnməsi baxımından Orta dəhlizin beynəlxalq əhəmiyyətini daha da artıracaq. Bu, təhlükəsizlik üçün də etibarlı qarantdır. Yəni dəhlizin bir hissəsində texnogen qəza və ya marşrutun keçdiyi ölkədə qeyri-sabitlik baş verdikdə onun başqa qolundan istifadə etməklə yükləri fasiləsiz daşımaq mümkün olacaq. Bu üzdən dünyanın əksər ölkələri Zəngəzur dəhlizinin açılmasını istəyir. Təbii ki, Hayastandan savayı.

Bəs Hayastan nə üçün bu dəhlizin açılmasını ləngidir? Burada qonşu ölkənin bir neçə marağı var. Birincisi, ermənilər dəhlizə Rusiya sərhədçilərinin deyil, özlərinin nəzarət etməsini istəyirlər. İkincisi, burada gömrük nəzarətini də həyata keçirməyə çalışırlar. Üçüncüsü, əlavə güzəştlər əldə etmək niyyətindədirlər. Bu, onların istəyidir, nəyə nə qədər nail olacağını zaman göstərəcək.

Hamını düşündürən bir sual: İrana nə düşüb ki, "Bu mənim qırmızı xəttimdir", - deyib Zəngəzur dəhlizinin açılmasının əleyhinə çıxır. İranda yaxşı başa düşürlər ki, bu marşrut hansı ölkədən keçsə, ona siyasi və iqtisadi dividendlər gətirəcək. Dünyadan təcrid olunmuş, siyasi və iqtisadi cəhətdən birləşmiş Qərb tərəfdən küncə sıxılmış İran dəhlizə böyük şans kimi baxır. O səbəbdən İran 44 günlük Vətən müharibəsi başa çatan kimi Zəngəzur dəhlizindən keçən ərazinin 5 kilometrliyindən həmin dəhlizə alternativ yol çəkmək barəsində ölkəmizə müraciət edib memorandum imzalamış, hətta Araz çayı üzərində körpünün tikilməsi üçün işə başlamışdır.

Hayastanda bir qədər ağıllı siyasətçi olsaydı, İranın onun ərazisindən keçən dəhlizin "qırmızı xətt" deyib əleyhinə çıxmasını anlamış olardı. Lakin ümid edirik ki, Hayastan gec-tez qonşusunun hiyləgər gedişlərini anlayıb daşı ətəyindən atacaq. Çünki hayları bir dəfə aldadıblar, ağılları olsa, növbəti dəfə "palçığa girməzlər".

Hələliksə Hayastanın oynadığı oyun ucuz siyasətdən başqa bir şey deyil. Bu ölkə sərhəddə və Azərbaycan ərazisində təxribatlar törətməklə əvvəlki kimi heç nəyə nail ola bilməyəcək. Əvəzində bir də görəcək ki, İran bütün yersiz iddialardan əl çəkib Zəngəzur dəhlizinin öz ərazisindən keçməsi barədə yalvarır. Hayastan isə ikinci tarixi şansını əldən verərək dalan ölkə kimi dünya üçün heç bir əhəmiyyət kəsb etməyəcək.

Və sonda: dünyanın nüfuzlu ölkələri Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. Üstəlik, Hayastanın buna müqavimət göstərəcək qədər gücü yoxdur. Ən əsası, Prezident İlham Əliyev də dəfələrlə bəyan etmişdir ki, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# ABŞ mətbuatı Azərbaycanın Qoşulmama Hərəkatındakı rolundan yazıb

Baş qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında "Azərbaycan və Qoşulmama Hərəkatı" sərlövhəli məqalə dərc olunub.




Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, tanınmış israilli politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın qələmə aldığı məqalədə Latviya Prezidenti Eglis Levitsə istinadən bildirilib ki, 120 üzv dövləti özündə birləşdirən Qoşulmama Hərəkatında mühüm rol oynayan Azərbaycan pandemiyanın tüğyan etdiyi bir vaxtda sözügedən dövlətlər blokuna sədrliyi dövründə bir çox ölkələri adıçəkilən fəlakətlə mübarizəyə ruhlandırıb, fəal şəkildə peyvənd diskriminasiyasına qarşı çıxıb, hazırkı beynəlxalq münasibətlərdə bir sıra yeni güclərin söz sahibi olmasının labüdlüyünü nəzərə alaraq BMT Təhlükəsizlik Şurasının genişlənməsi ideyasını müdafiə edib və ya müxtəlif ölkələrin müstəmləkəçi keçmişini açıq şəkildə tənqid edib.

Müxtəlif beynəlxalq ekspertlərin fikirlərinin yer aldığı məqalədə qeyd olunub ki, Azərbaycanın Qoşulmama Hərəkatında kifayət qədər uğurlu sədrliyi nəzərə alınıb və hərəkat üzvlərinin əksəriyyətinin qərarı ilə ölkəmizin sədrlik müddəti daha bir il uzadılıb. Bir çox ölkələrə peyvənd əldə etməyə yardım göstərən və bu ölkələrin çətin anlarda ayaq üstə qalmasına kömək etmək üçün maliyyə dəstəyi təklif edən Azərbaycan Prezidenti İlham Əliyev bütün ölkələrin peyvəndlərə bərabər çıxışının təmini üçün BMT-də xüsusi sessiyasının keçirilməsi ideyası ilə çıxış edib.

İsrailli politoloq Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündəki çıxışından iqtibas gətirib: "Yeni dünya düzəni yenidən formalaşmaqdadır. İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir. Təəssüf ki, bu gün biz neokolonializm meyilinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir".

Məqalədə Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşündəki açılış nitqində Fransaya sərt etirazını bildirdiyi də vurğulanıb. İsrailli politoloq Prezident İlham Əliyevin çıxışından "Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq" ifadələrini sitat gətirib. Yazıda Fransanın özünün keçmiş müstəmləkələri ilə rəftarı tənqid olunaraq qeyd edilib ki, Fransa keçmiş müstəmləkələri ilə daha böyük tərəfdaşlıq və razılaşmalara doğru getmək əvəzinə, onlara daha kiçik vassal dövlət kimi yanaşmaqda davam edir. Vurğulanıb ki, Fransanın öz imicini bu formatda qurmaq istəyi yanlış yanaşmadır. Fransa keçmişi dəyişdirə bilməz, lakin onun müasir reallıqlara uyğun olaraq dünyanın tamamilə rədd etdiyi köhnəlmiş metodlardan istifadə etməkdə davam etməsi qəbuledilməzdir.

# *Moldova xəbər portalı:* "Ermənistan Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır"

Moldovanın nüfuzlu "Noi" xəbər portalında Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının martın 16-da Ankarada keçirilən Fövqəladə Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına dair məqalə dərc edilib.




AZƏRTAC-ın materialları əsasında dərc olunan məqalədə dövlətimizin başçısının Ermənistan haqqında söylədiyi fikirlər yer alıb. Qeyd olunub ki, 2022-ci ildə Praqa və Soçidə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmayıb. Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır. Ermənistan həm də Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır.

Məqalədə, həmçinin vurğulanıb ki, 2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır.

# *Ayxan HACIZADƏ:* "Ermənistan XİN-in bəyanatı Azərbaycana qarşı törədilən təxribatları ört-basdır etmək cəhdidir"



"Martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışına istinadən Ermənistan Xarici İşlər Nazirliyinin növbəti dəfə yalan və iftira dolu bəyanatı Ermənistanın 30 ilə yaxın bir dövrdə həyata keçirdiyi işğal siyasətini, habelə hazırkı postmünaqişə dövründə Azərbaycana və azərbaycanlılara qarşı törətdiyi və gələcəkdə törədə biləcəyi təxribatları ört-basdır etmək məqsədi daşıyır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə Ermənistan XİN-in bəyanatına cavabında yer alıb.

A.Hacızadə bildirib ki, Ermənistan tərəfindən 30 illik işğal dövründə yüzlərlə şəhər və kəndimizin, tarixi və dini abidələrin Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılması; təbii sərvətlərimizin talanması; 4 minə yaxın vətəndaşımızın itkin düşməsi və kütləvi məzarlıqların aşkarlanması; Ermənistanın mina təhdidlərini davam etdirməsi; ərazi bütövlüyü və suverenliyə, eləcə də üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrini tam olaraq çıxarmaması; Zəngəzur dəhlizinin açılmasına maneçilik törətməsi; indiki Ermənistan ərazisindən azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirilməsi faktlarının və Qərbi Azərbaycan İcmasının öz doğma torpaqlarının təhlükəsiz və ləyaqətli şəkildə qayıtması tələbinin Ermənistana qarşı "ərazi iddiası" və "təcavüzə hazırlıq" kimi qələmə verilməsi tamamilə əsassızdır.

Eynilə həm sovet Ermənistanı dövründə, həm də 1990-cı illərdən bəri Ermənistan ərazisindəki minlərlə Azərbaycan toponimlərini məqsədyönlü şəkildə dəyişən, Ermənistan ərazisindən Azərbaycan izlərini pozan, tarixi abidələri dağıdan, bununla Azərbaycanın tarixi torpaqlarını erməniləşdirən Ermənistan tərəfinin Azərbaycanın "Qərbi Azərbaycan İcması" ifadəsindən istifadə etməsini beynəlxalq hüquq pozuntusu kimi təqdim etməsi riyakarlıqdır.

Otuz ilə yaxın işğal dövründə 9 şəhər və yüzlərlə kəndi talan edən, 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə həyata keçirən, onları öz evlərinə qayıtmaq hüququndan məhrum edən Ermənistanın, Azərbaycanın öz doğma torpaqlarını azad etməsindən və bu əraziləri bərpa etməsindən sonra məcburi köçkünlərin və qaçqınların hüquqlarından bəhs etməyə mənəvi haqqı yoxdur.

Qeyd olunub ki, Azərbaycan öz ərazisində yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində artıq addımlar atmaqdadır. Azərbaycan erməni sakinlərlə dialoq aparır və xoşniyyətli addım kimi bu çərçivədə növbəti görüşün Bakıda keçirilməsini təklif edib. Ermənistan tərəfi isə bunun əksinə, Qərbi Azərbaycan İcmasının dialoq təklifini tamamilə rədd edib. Bu isə Ermənistanın bölgədə sülh və sabitlikdə maraqlı olmadığının və ikiüzlü siyasət aparmasının göstəricisidir.

Vurğulanıb ki, Azərbaycan tərəfi Ermənistanın hər bir təxribatına qarşı beynəlxalq hüquq çərçivəsində bütün zəruri addımları atacaq.

# *XİN:* "Ermənistanın Zəngəzur dəhlizinin açılmasına maneçilik törətməsi tamamilə əsassızdır"



"Ermənistan tərəfindən 30 illik işğal dövründə yüzlərlə şəhər və kəndimizin, tarixi və dini abidələrin məqsədli şəkildə Ermənistan tərəfindən dağıdılması, təbii sərvətlərimizin talanması, 4 minə yaxın vətəndaşımızın itkin düşməsi və kütləvi məzarlıqların aşkarlanması, Ermənistanın mina təhdidlərini davam etdirməsi, ərazi bütövlüyü və suverenliyə, eləcə də üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrini tam olaraq çıxarmaması, Zəngəzur dəhlizinin açılmasına maneçilik törətməsi, indiki Ermənistan ərazisindən azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirilməsi faktlarının və Qərbi Azərbaycan İcmasının öz doğma torpaqlarınına təhlükəsiz və ləyaqətli şəkildə qayıtması tələbinin Ermənistana qarşı "ərazi iddiası" və "təcavüzə hazırlıq" kimi qələmə verilməsi tamamilə əsassızdır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadənin Ermənistan XİN-in bəyanatına cavabında yer alıb.

Ayxan Hacızadə, həmçinin vurğulayıb ki, həm sovet Ermənistanı dövründə, həm də 1990-cı illərdən bəri Ermənistan ərazisindəki minlərlə Azərbaycan toponimlərini məqsədyönlü şəkildə dəyişən, Ermənistan ərazisindən Azərbaycan izlərini pozan, tarixi abidələri dağıdan, bununla Azərbaycanının tarixi torpaqlarını erməniləşdirən Ermənistan tərəfinin Azərbaycanın Qərbi Azərbaycan İcması ifadəsindən istifadəsini beynəlxalq hüquq pozuntusu kimi təqdim etməsi riyakarlıqdır.

# Qərbi Azərbaycan İcması Ermənistan XİN-in qərəzli bəyanatını şərh edib

Qərbi Azərbaycan İcması Ermənistan Xarici İşlər Nazirliyinin Qərbi Azərbaycanla bağlı qərəzli bəyanatına cavab verib. Bu barədə AZƏRTAC-a icmanın mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Ermənistan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 16 mart tarixində Türk Dövlətləri Təşkilatında Qərbi Azərbaycan məsələsi ilə bağlı verdiyi bəyanatını yanıldıcı məzmunda təqdim etməyə cəhd edərək, bizim sülh yolu ilə, ləyaqətli və təhlükəsiz şəkildə qayıdış hüququmuza xələl gətirməyə cəhd göstərib.

İlk öncə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların sülh yolu ilə qayıdışına verdiyi siyasi dəstəyə görə və bu məsələni mötəbər beynəlxalq formatların tribunasından ifadə etməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür edirik.

Ermənistan hökumətinin etiraz etdiyi "Qərbi Azərbaycan" ifadəsinə gəlincə, qeyd edək ki, həmin bölgədə yaxın tarixədək azərbaycanlıların çoxluq təşkil etdiyini və son dövrlərədək qeydə alınmış toponimlərin və hidronimlərin 95 faizdən çoxunun Azərbaycan mənşəli olduğunu nəzərə alaraq, bu ifadəni işlətməyin ciddi əsasları var. Xüsusilə, oranın qanuni sakinləri olan azərbaycanlılar etnik təmizləmə yolu ilə öz evlərindən zorla çıxarılıblarsa, o ifadəni işlətmək törədilmiş insanlıq əleyhinə cinayəti rədd etmək baxımından bütün insanlığın borcudur.

İcmanın qayıdış konsepsiyasında həmin ərazidə yaranmış Ermənistan Respublikası hüquqi-siyasi reallıq kimi qəbul edilir, barışığa və reinteqrasiyaya əsaslanan yanaşma əsas götürülür.

Ermənistanın baş naziri Nikol Paşinyana göndərdiyimiz məktubumuzda da qeyd etdiyimiz kimi, öz evlərimizə sülh yolu ilə geri qayıtmaq tələbimiz Ermənistanın ərazi bütövlüyü və ya suverenliyinə xələl gətirə biləcək şəkildə yanlış təfsir edilə və ya qələmə verilə bilməz.

Belə olan təqdirdə, Ermənistan tərəfi "Artsax hökuməti", "Artsax xalqı", "Artsax ordusu" kimi ifadələr işlətməsinin izahatını verməlidir.

Nəhayət biz bir daha Ermənistan hökumətini o ərazinin qanuni sakinləri olan, qovulmuş azərbaycanlıların verifikasiya və zəmanət mexanizmləri və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma çərçivəsində öz evlərinə sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına şərait yaratmağa, bunun üçün etdiyimiz dialoq müraciətinə cavab verməyə çağırırıq.

# İkili standartlarla işləyən korrupsiya yuvası

## Qərəz və riyakarlıq ünvanı

### Azərbaycana qarşı erməni sərsəmləmələri ilə bağlı "sənəd"lər qəbul edən korrupsioner Avropa Parlamentinin bütün məkrli cəhdləri faydasızdır



Azərbaycan xalqının hər bir nümayəndəsi Avropa Parlamentinin 2023-cü il martın 15-də ölkəmizə qarşı qəbul etdiyi qərəzli qətnaməni qətiyyətlə pisləyir və rədd edir!

Üzümüzü korrupsioner və əl oyuncağına çevrilən avroparlamentarilərə tutub deyirik ki, xalqımıza qarşı sərgilədiyiniz bu ikiüzlü, mənfur, iyrənc siyasəti dayandırın!

Bəsdir "insan haqlarının keşikçisi" donuna bürünüb millətimizin haqq və hüquqlarını tapdalamağa çalışdığınız!

Onsuz da ard-arda qəbul etdiyiniz bu bir qara qəpik dəyəri olmayan kağız parçalarınız Azərbaycanı milli maraqlarını qətiyyətlə təmin etməkdən çəkindirə, döndərə bilməz.

Bir tərəfdən sizi də anlayırıq, axı, Vətən müharibəsində qazandığımız şanlı zəfərin sizin timsalınızda bəzi riyakar təşkilat və ölkələrin yuxusuna haram qatdığını, hələ də Hayastanın "dəmir yumruq" qarşısında baş əydiyi səhnənin gözünüzün qarşısından getmədiyini bilirik.

Amma korrupsioner avroparlamentarilər, siz də yaxşı bilin və yaddaşınıza birdəfəlik həkk edin ki, çirkli erməni puluna olan quduz iştahanız səbəbindən "demokratiya" adı altında çıxardığınız hoqqalarla heç nəyə nail ola bilməyəcəksiniz, necə ki 44 günlük müharibədə Azərbaycanın Hayastanı darmadağın etdiyini dişiniz dodağınızı kəsə-kəsə izləməkdən başqa çarəniz olmadı, eləcə də diplomatiya meydanında ölkəmizin haqq və ədaləti təmin etməsini başınızdan qara tüstü çıxa-çıxa seyr etməyə məcbursunuz.

### "Demokratik" deputatların "diqqətini çəkməyən" erməni cinayətləri

Nə sirri-hikmətdirsə "demokratik prinsipli" Avropa Parlamenti son dövrlər bütün iş-gücünü buraxıb yalnız Hayastanın "ərazi bütövlüyü", erməni sərsəmləmələri ilə bağlı hay-həşir qoparmaqla məşğuldur.

O Avropa Parlamenti ki, Azərbaycan torpaqlarının Hayastanın işğalı altında olduğu 30 illik böyük bir zaman kəsimində işğalçıya qarşı bircə dənə də olsun qətnamə qəbul etməyib. Halbuki şovinist erməni milliyyətçiləri işğalçılıq siyasəti ilə yüz minlərlə soydaşımızı tarixi yurdlarından didərgin salmış, qaçqına, məcburi köçkünə çevirmişdi. İşğal müddətində erməni vandalları həmin ərazilərdə daşı daş üstündə qoymayıb, tarixi, dini, mədəni irsimizi yerləyeksan edib, bu yerlərdə "yanmış torpaq" siyasəti həyata keçiriblər.

Birinci Qarabağ müharibəsindən etibarən Hayastan silahlı qüvvələri tərəfindən azərbaycanlı hərbçilərə, mülki şəxslərə qarşı misli görünməmiş qırğınlar törədilib. Hayastan silahlıları Birinci Qarabağ müharibəsi dövründə beynəlxalq hüquq normalarının və humanitar hüququn tələblərinə zidd olaraq mülki əhalini girov götürüb, olmazın işgəncələr verib, onları xüsusi amansızlıqla öldürüblər. Həmin insanların meyitlərini kütləvi məzarlıqlarda basdırıblar. Bu günə kimi rəsmi İrəvan Birinci Qarabağ müharibəsi zamanı əsir və girov düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verməyib.

### Azərbaycana qarşı ikiüzlü siyasət

İşğal müddətində torpaqlarımızı "mina tarlası"na çevirən Hayastan insanları hədəf alan bu cinayət əməlindən hələ də vaz keçməyib. Vətən müharibəsindən sonra Azərbaycanın üzləşdiyi mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşı partlayışların qurbanı olub. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan ərazilərində aşkarlanan minaların 2021-ci ildə Hayastanda istehsal olunması faktı onu göstərir ki, Hayastan yeni minalar basdırmaqla azərbaycanlılara qarşı hərbi cinayətlərini davam etdirir.

44 günlük müharibədən sonra Hayastan üçtərəfli Bəyanata zidd olaraq Laçın yolundan hərbi məqsədləri üçün istifadə edib, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Qarabağ İqtisadi Zonasına silah-sursat, mina daşıyaraq Azərbaycan ərazilərində təxribatlar törədib.

Bu gün Azərbaycanı erməniləri "blokada"da saxlamaqla suçlayan Avropa Parlamenti 30 ildir ki, blokadada olan Naxçıvanın və naxçıvanlıların talelərinə biganəlik sərgiləyir. AP deputatları Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirəcək yolun açılmamasına etiraz səslərini qaldırmırlar, Hayastanı öz ordusunun qalıqlarını Azərbaycanın hələ də işğal altında saxladığı 8 kəndindən geri çəkilməyə çağırmırlar. Bütün bunlar Avropa Parlamentinin Azərbaycana qarşı nümayiş etdirdiyi ikiüzlü siyasətinin göstəricisi deyilmi?

### Erməni puluna olan quduz iştaha

Məkr yuvasına çevrilmiş AP-nin martın 15-də növbəti dəfə Azərbaycana qarşı obyektivlikdən və reallıqdan uzaq, böhtan xarakterli qətnamə qəbul etməsi bu riyakar qurumun ölkəmizə münasibətdə necə düşmən mövqedə dayandığını sübut edir.

Korrupsioner qurumun vaxtaşırı bu kampaniya xarakterli anti-Azərbaycan fəaliyyəti ölkəmizin ədalətli mövqeyinə təsir göstərmək, Azərbaycanı gözdən salmaq və Hayastanın xeyrinə güzəştlər əldə etmək cəhdidir. Reallıqdan uzaq, erməni sərsəmləmələri ilə bağlı "sənəd"lər qəbul etməklə özünü nüfuzdan salan AP təkzibedilməz şəkildə sübut edir ki, erməni lobbisinin oyuncağına çevrilib, hər vəchlə Cənubi Qafqazda sülhə maneçilik törətməyə çalışır.

Korrupsioner AP deputatlarının bu çirkin əməllərinin məqsədi isə yalnız erməni təəssübkeşliyindən irəli gəlmir, erməni puluna olan quduz iştahalarından da qaynaqlanır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Korrupsiyaya bulaşmış Avropa Parlamenti

### Bu nüfuzdan düşmüş beynəlxalq təşkilatın Azərbaycana qarşı qərəzli münasibəti, erməniрərəst mövqeyi dəyişmir ki, dəyişmir





İkinci Qarabağ müharibəsindəki qələbəmizdən sonra Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli yanaşmasının, ədalətsiz, əsassız qətnamələrinin şahidi oluruq. Humanizmdən, ədalətdən danışan AP-nin özü bu dəyərləri açıq-aşkar heçə sayır. Bu təşkilat həqiqətən də Hayastanın oyuncağına çevrilib, hayların göstərişləri, müraciətləri əsasında hərəkət edir. Bununla da erməniрərəst mövqeyini ortaya qoyur.

Avropa Parlamentinin növbəti dəfə Azərbaycana qarşı obyektivlikdən və reallıqdan uzaq, böhtan xarakterli qətnamə qəbul etməsi təşkilatın riyakar siyasətindən bir daha xəbər verdi. Qərəzli qətnaməsi ilə AP Azərbaycanın sülhə nail olmaq səylərini qəsdən gözdən salmağa, Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasına əngəl törətməyə çalışır.

Amma həqiqət budur: qərəzli mövqeyə əsaslanan əsassız kağız parçaları Avropa Parlamentini nüfuzdan salmaqdan başqa bir işə yaramır.

### Avropa Parlamenti Hayastanın himayəçisi kimi davranır

Milli Məclisin deputatı Fəzail Ağamalı qəzetimizə açıqlamasında qeyd edib ki, Avropa Parlamenti xristian klubu kimi uzun illərdir Azərbaycana qarşı qərəzli, böhtan xarakterli əməllər sərgiləyir. Burada moderator kimi Fransa çıxış edir. Son dövrlərdə dünya mətbuatını zəbt edən korrupsiya halı Avropa Parlamentinin imicinə ağır zərbə vurub.

Deputat vurğulayıb ki, AP belə biabırçı fakta görə bütün Avropa, eləcə də Azərbaycan xalqından üzr istəmək və qəbul etmiş olduğu qərəzli qətnamələrdən dolayı ölkəmizə qarşı münasibətini obyektiv və ədalətli şərtlər üzərində yenidən qurmaqdansa, hələ də öz çirkin mərəzini davam etdirir və Hayastanın himayəçisi kimi fəaliyyətinə son qoymaq istəmir: "Onların qəbul etdiyi qətnamələr qərəzlidir. Parlamentin fəaliyyətində islamofobiya, türkofobiya var. Avroparlamentarilər Hayastanı - vandal ölkəni himayə edərək Azərbaycana qarşı barışmaz mövqe nümayiş etdirirlər. Bu qətnamələr kağız parçasından başqa bir şey deyil. Bu, Azərbaycanın Avropa İttifaqı ölkələri və digər Avropa dövlətləri ilə yüksəksəviyyəli münasibətlərinə hər hansı təsir göstərmək gücündə deyil".

Prezident İlham Əliyevin xarici siyasətində Avropa amilinin xüsusi yer tutduğunu vurğulayan Fəzail Ağamalı deyib ki, istər Aİ-nin təmsilçiləri, istərsə də ayrı-ayrı dövlətlərin prezidentləri, baş nazirləri səviyyəsində münasibətlərimiz yüksək səviyyədə qurulub. Avropa ölkəsi ilə aramızda ciddi sənədlər imzalanıb. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində olduqca mühüm rol oynayır və bu, Avropa dövlətləri tərəfindən də təsdiqlənir. Belə bir zamanda müxtəlif Avropa ölkələrini təmsil edən AP-nin deputatları tərəfindən bu cür qətnamənin qəbul edilməsi təəssüf doğurur.

Deputat hesab edir ki, bu ədalətsizliyə, haqsızlığa, böhtana qarşı fəaliyyətimizi, mübarizəmizi təkcə daxili deyil, həm də Avropa auditoriyası üçün genişləndirməliyik: "Ən müxtəlif bəhanələrlə Azərbaycana qarşı əsası olmayan növbəti qətnamə qəbul edildi. BMT-nin Təhlükəsizlik Şurasında və onun müxtəlif qurumlarında fiaskoya uğrayan Fransa indi də Avropa Parlamentində ölkəmizə qarşı təhdidlərini davam etdirir. Gözlərindəki qara eynəyi götürərək həqiqəti dərk edib başa düşməlidirlər ki, ekofəallar Azərbaycan ərazisində ölkəmizin təbii sərvətlərini vəhşicəsinə talayıb dünya bazarına çıxarıb pul əldə edərək separatizmi maliyyələşdirən, ekologiyamıza ciddi zərbə vuran faşist rejimin əməllərinə son qoymaq üçün böyük fədakarlıq göstərirlər. Onların əlində silah yoxdur. Sadəcə olaraq bu vandallığa qarşı öz etirazlarını bildirir və yataqlarda monitorinqin aparılmasını tələb edirlər".

Deputat qeyd edib ki, dünyanın müxtəlif ölkələrindən gələn jurnalistlərin də gözü önündən Laçın-Xankəndi yolunda humanitar xarakter daşıyan müxtəliftəyinatlı avtomobillərin sərbəst keçidi müşahidə olunur. Yəni Ermənistanla Xankəndi arasında humanitar əlaqələr bu gün də mövcuddur, hər hansı məhdudiyyət yoxdur. Bu, ən müxtəlif platformalarda təsdiq olunmuş faktdır.

"44 günlük Vətən müharibəsində kağız parçalarına əhəmiyyət vermədən haqqı, ədaləti bərpa etdik, ərazi bütövlüyümüz təmin olundu. Avropa Parlamenti kimi qurumların qəbul etdiyi bu cür kağız parçaları bizim üçün son dərəcə əhəmiyyətsizdir. Azərbaycan öz haqqını reallaşdırmaq üçün beynəlxalq hüquq normalarına söykənərək addımlar atacaq", - deyə F.Ağamalı əlavə edib.

### Azərbaycan Prezidentinin müstəqil siyasəti məkrli qüvvələrin planlarını pozur

Milli Məclisin deputatı Kamilə Əliyeva qeyd edib ki, Avropa Parlamenti zaman-zaman Azərbaycana qarşı qərəzli qətnamələr qəbul edir. Bu gün Avropa Parlamentinin korrupsiyaya bulaşmış rüsvayçı quruma çevrildiyini deyən deputat parlamentdə təmsil olunan bir sıra dövlətlərin nümayəndələrinin Qərb ölkələrində fəaliyyət göstərən erməni milyarderlərin əlində oyuncağa çevrildiyini bildirib: "Vaxt keçdikcə istər Avropa Parlamentinin rəhbər vəzifələrindəki şəxslər, istərsə də bir sıra deputatlar rüşfətxorluqda ittiham olunurlar. Məlum olur ki, onlar erməni lobbisinin çirkli pullarının yuyulmasında iştirak ediblər", - deyə K.Əliyeva əlavə edib.

Deputat vurğulayıb ki, Avropa Parlamentinin Azərbaycana qarşı qəbul ediyi əsassız qətnaməyə dövlətimiz kağız parçası kimi yanaşır. Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasət bu qüvvələrin planlarını heçə endirir: "Bir neçə gün əvvəl ölkəmizə qarşı qəbul edilən qərəzli qətnamə əvvəldən məlum idi. Belə ki, ölkə rəhbərimiz də bu qətnamənin qəbul edilməsinin Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmədiyini vurğulamışdı".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Müstəmləkə cinayətlərinə görə üzr istəməyən Fransa, bu azmış kimi, işğalçı Hayastanı da dəstəkləyir

Qarabağ münaqişəsi 2020-ci ildə tarixin arxivlərinə gömüldü. Həmin ilin payızında Hayastanın növbəti təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun zəfəri ilə ədalət bərpa olundu. Hayastanın silahlı qüvvələri məğlubiyyətə uğrayaraq 1990-cı illərdə zəbt etdikləri Azərbaycan ərazilərini tərk etməli oldular. Beləliklə, otuz ilə yaxın davam edən işğala son qoyuldu.

Əslində, bütün bu illər ərzində münaqişəni meydana çıxaran, problemin yaranmasına səbəb olan bəlli idi. Özgə torpaqlarında yoxdan bir dövlət qurmuş təcavüzkar ermənilərin, necə deyərlər, ağızlarında şirə yeri qalmışdı. Hər fürsətdə mənfur xislətlərini büruzə verərək Azərbaycan ərazilərində işğalçılıq siyasətini davam etdirməyə səy göstəriblər. Həm də zaman-zaman niyyətlərini həyata keçirmək üçün ən dəhşətli vasitələrə əl atıblar. Azərbaycanlılara qarşı soyqırımları törədiblər. XX əsrim sonuncu onilliyində də erməni təcavüzkarları minlərlə günahsız insanı ən ağır işgəncələrlə qətlə yetirdilər. Ana bətnindəki uşağa, yatağından ayağa qalxa bilməyən xəstəyə, qocaya belə qıydılar. Yalnız bir səbəb vardı: onlar azərbaycanlı idilər.

2020-ci ildə, Vətən müharibəsində də işğalçı, terrorçu Hayastanın silahlı qüvvələri Azərbaycanın cəbhədən uzaq, mülki əhalinin yaşadığı ərazilərini ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutdu. O zaman da dinc azərbaycanlılar şəhid oldular.

Münaqişə bitib. Azərbaycan Ordusunun gücü ilə geri qaytardığı əzəli ərazilərində tikinti-bərpa, quruculuq işləri ilə məşğuldur. Azərbaycan işğal illərində erməni vandallarının xarabazara çevirdikləri ərazilərini abad etməkdədir. Hayastan isə yenə öz terroçuluğundan, təcavüzkarlığından əl çəkmir. Və ən böyük ədalətsizlik, haqsızlıq budur ki, dünyada özünü sivil, demokrat ölkə kimi təqdim etməyə çalışan bəzi dövlətlər həqiqəti dilə gətirmək, günahkarın beynəlxalq qanunların tələb etdiyi şəkildə cəzalanmasını istəmirlər. Onlar biləirəkdən Cənubi Qafqazda sülh təşəbbüslərinə, Hayastanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə zərbə vuran siyasət həyata keçirirlər.

Bu günlərdə Avropa Parlamentinin (AP) Azərbaycana qarşı yeni qərəzli və ziddiyyətli qətnamə qəbul etməsi də bu təşkilatın demokratiyadan, ədalətdən uzaq olduğunu, reallığı görmək istəmədiyini bir daha göstərdi.



Olduqca ədalətsiz, qərəzli vəziyyət yaranıb. Fransa kimi özü tarix boyu başqa ölkələrin ərazisinə göz dikən, işğalçılıq, talançılıq edən, həmin yerlərdə yaşayan xalqları əsarətdə saxlayan dövlətlər bu məsələdə canfəşanlıq göstərirlər. Öz siyasi fəaliyyətlərində sülhdən uzaq olduqları halda sülhsevər kimi çıxış edirlər. Həqiqətdə sülhün, əmin-amanlığın bərqərar olması naminə çalışan Azərbaycanı deyil, özləri kimi işğalçı, irticaçı olan Hayastanın tərəfində dayanır, onun mövqeyini müdafiə etmək adı ilə münaqişəni qızışdırırlar.

Azərbaycan Qarabağda yaşayan erməniləri öz vətəndaşları hesab edir. Bunu dövlət başçısı İlham Əliyev çıxışlarında dönə-dönə vurğulayıb. Prezident İlham Əliyev fevralın 18-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışında bildirib: "Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, onlar azlıq təşkil edirlər. Azərbaycan çoxmillətli ölkədir. Azərbaycandakı bütün azlıqlar bərabər hüquq və imtiyazlara, o cümlədən mədəni, linqvistik və digər hüquqlara malikdirlər, onların təhlükəsizliyi də təmin edilib".

Azərbaycan tarixi boyu başqa xalqların torpağına göz dikməyib. Bu qədim məmləkət həm də tolerantlığı ilə nümunədir. Bu ölkədə yaşayan bütün xalqlar, etnik azlıqlar sülh, sabitlik içərisində, birlik, bərabərlik nümayiş etdirərək rahat yaşayırlar. Azərbaycan dövləti yalnız öz ərazilərində deyil, bütün, regionda, dünyada sülhün, əmin-amanlığın hökm sürməsini arzulayır və buna səy göstərir. Hətta soyqırımlara, qətliamlara, böyük dağıntılara baxmayaraq, Ermənistana sülh təklif edib. Həmçinin Azərbaycan öz torpaqlarında - Qarabağda yaşayan erməni sakinlərə çağırış edərək respublika Konstitusiyasında təsbit olunan hüquq və təhlükəsizliklərinin qorunacağına təminat verir.

Sözdə ədalətli, barışdırıcı tərəf kimi çıxış etmək istəsə də, əslində, erməniрərəst mövqeyi açıq-aşkar görünən, Fransanın işğalçı Hayastanı dəstəkləməsi, başadüşüləndir. Fransa dünyanın müxtəlif regionlarında 50-dən artıq dövlətin ərazisini işğal edərək əhalisini uzun illər əsarətdə saxlamış, sərvətlərini talamış bir ölkədir. Tarixi müstəmləkə siyasəti, soyqırımları, qətliamları ilə dolu olan Fransa beynəlxalq hüququ heç saydığını bu günlərdə korsikalılara münasibəti, Korsika adasında korsikan dilini qadağan etməsi ilə bir daha təsdiq etdi. Belə ki, Bastia inzibati məhkəməsi yerli parlamentdə müzakirələrin Korsika və fransız dilləri olduğunu bildirən prosedur qaydalarının müddəalarını ləğv etdi. Məhkəmə hesab etdi ki, bu müddəa Fransa Konstitusiyasının 2-ci maddəsinə ziddir.

Qərar, haqlı olaraq, Korsikada böyük narazılıqla qarşılanıb. Korsikalılar doğma dillərinin yaşaması və inkişafı üçün fransız dili ilə yanaşı, onların dilinə də rəsmi status verilməsini tələb edirlər. Korsikalıların ən böyük arzusu isə yüz illərdir ki, davam edən Fransa işğalından xilas olmaq, dövlətlərinin müstəqilliyinə yenidən nail olmaqdır.

Fransa, həmçinin Afrika ölkələrində etdiyi soyqırımlara görə beynəlxalq bilik qarşında cavab verməlidir. Martın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışında diqqətə çatdırıb ki, Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır: "Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# 36 min ailəyə bayram sovqatı

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən qarşıdan gələn Novruz bayramı münasibətilə respublikanın rayonlarında yaşayan 4650 aztəminatlı ailə, o cümlədən şəhid və qazi ailələri üçün ərzaqla dolu avtomobil karvanı yola salınıb.



Bundan başqa, Naxçıvan Muxtar Respublikasında yaşayan həmin kateqoriyadan olan 1250 ailəyə də bayram sovqatı verilib. Bununla da AHİK tərəfindən sovqat göndərilən ailələrin ümumi sayı 36 minə çatıb.

AHİK-dən başqa, sahə həmkarlar ittifaqları da bu ərəfədə bütün bölgələr üzrə qeyd etdiyimiz kateqoriyadan olan ailələrə ərzaq yardımları göstərirlər.





Məlumat üçün bildirək ki, AHİK İcraiyyə Komitəsinin qərarları əsasında 2020-ci ilin aprelində 3 900, 2021-ci ilin martında 3 900, mayında 4 000, 2022-ci ilin martında 4 065, noyabrında 4 500, dekabrında isə 4500 şəhid ailələri və qazilər, həmçinin aztəminatlı ailələr üçün ərzaq göndərilib.

Eləcə də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına orada yaşayan həmin kateqoriyadan olan ailələrə sovqat göndərilməsi üçün hər dəfə maliyyə vəsaiti ayrılıb.

AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bildirib ki, vətəndaşların qayğısına qalmaq, onların üzləşdiyi çətinlikləri aradan qaldırmaq, həmçinin şəhid ailələrinə və qazilərə, müharibə iştirakçılarına, aztəminatlı ailələrə qayğı ilə yanaşmaq, lazımi maddi və mənəvi dəstəyi göstərmək dövlətimizin sosial siyasətinin mühüm tərkib hissəsidir: "Bu məqsədlə ölkəmizdə müxtəlif layihələr icra olunur, vətəndaş rifahının təminatı, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əhəmiyyətli işlər görülür. Dövlətimizlə bərabər, ölkəmizin aparıcı ictimai təşkilatları da bu cür humanist layihələrə dəstək verir, qeyd olunan kateqoriyaya aid insanlara qayğı göstərirlər. Hər bir sahədə olduğu kimi, Heydər Əliyev Fondu bu istiqamətdə də nümunəvi fəaliyyəti ilə fərqlənir. Belə ki, fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə şəhid ailələrinə, qazilərə, aztəminatlı ailələrə bayramlarda və dövlətimiz üçün əlamətdar günlərdə sovqatlar, hədiyyələr göndərilir, onlar üçün bayram süfrələri təşkil olunur. Azərbaycan həmkarlar ittifaqları da qeyd olunan sosial layihələrin əsas iştirakçılarındandır. Bu yöndə dövlətimizin bütün çağırışlarına adekvat cavab verir, həmçinin öz təşəbbüsləri ilə xeyirxah addımlar atırlar".

Səttar Möhbalıyev həmçinin AHİK-in ölkəmizdə məşğulluğun təmin edilməsi, ittifaq üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində gördüyü işlər haqqında da məlumat verib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Jurnalistlərə bayram töhfəsi









"Novruz" öz gözəlliyi, milli xüsusiyyətləri, tarixi adət-ənənələri yaşadıb gələcək nəsillərə ötürməsi, milli ruhun qorunub saxlanmasında əhəmiyyəti ilə seçilən milli bayramımızdır.

İmkansıza əl tutmaq, ehtiyacı olana kömək etmək, qohumu, qardaşı, kimsəsizi ziyarət edib qəlbini sevindirmək Novruz ənənəsi olaraq minillərdir ki, davam edən müqəddəs adətlərimizdəndir. Novruz bayramı ərəfəsində Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası 4650 aztəminatlı ailəyə Novruz sovqatı göndərərək evlərdə bayram ovqatı yaratmağa vəsilə olmuşdur.

Bu əziz günlərdə Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi də üzv təşkilatların aztəminatlı ailələrini, media qurumlarını, o cümlədən "Azərbaycan" qəzetinin kollektivini də yaddan çıxarmamış, jurnalistlərə bayram hədiyyələri verilmişdir.

Atalar gözəl deyib, bir imkansızın evində bayramdırsa, bir eldə bayramdır. Bu nəcib təşəbbüsə görə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə minnətdarlığımızı bildirir, əməkdaşlarına "Novruz" ovqatı, bayram əhvali-ruhiyyəsi arzu edirik.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Serbiyanın Novi Pazar şəhərinin meri Şuşada görülən işlər barədə məlumatlandırılıb

Martın 17-də Serbiyanın Novi Pazar şəhərinin meri Nihad Bişevaç Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonundakı xüsusi nümayəndəliyinin dəvəti ilə Şuşa şəhərinə səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Serbiya nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonağa Şuşa şəhərinin tarixi, burada görülən bərpa-quruculuq işləri barədə məlumat verib. Qeyd edək ki, Nihad Bişevaçın Şuşaya səfərinin məqsədi Şuşa ilə Novi Pazar arasında qardaşlaşmış şəhərlər haqqında protokolun imzalanmasıdır.

# Azərbaycanın Şuşa və Serbiyanın Novi Pazar şəhərləri qardaşlaşıb

Martın 17-də Azərbaycanın Şuşa və Serbiyanın Novi Pazar şəhərləri arasında qardaşlaşma əlaqələrinin təsis edilməsi və mədəniyyət, turizm, şəhərsalma, elm, iqtisadiyyat və ictimai həyatın digər uyğun sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, beləliklə, işğaldan sonra ilk dəfə Şuşada qardaşlaşma haqqında anlaşma memorandumu imzalanıb.



## *Aydın KƏRİMOV:* "Azərbaycan-Serbiya münasibətləri yeni mərhələyə qədəm qoyur"

"Bu gün Azərbaycanın Şuşa və Serbiyanın Novi Pazar şəhərləri arasında dostluq və əməkdaşlıq haqqında memorandum imzalandı. İnanıram ki, imzalanmış sənəd Şuşanın yeni tarixinə düşəcək".

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov söyləyib.

O qeyd edib ki, qardaşlaşma haqqında memorandum Azərbaycanla Serbiya arasındakı yüksəksəviyyəli strateji münasibətlərin məntiqi davamıdır. Bu da xalqlarımız arasında əlaqələrin münasibətlərin daha da möhkəmləndirilməsinə, mədəni, sosial, iqtisadi əlaqələrin daha da inkişafına xidmət edəcək.

"Bu gün imzalanan memorandum Şuşa şəhəri ilə digər şəhərlər arasında qardaşlıq və əməkdaşlıq haqqında 7-ci sənəddir. Əvvəlki sənədlərdən fərqli olaraq, bu sənəd ilk dəfədir Şuşa şəhərində imzalandı. Bu da rəmzi və müsbət bir haldır", - deyə A.Kərimov vurğulayıb.

O əlavə edib ki, Azərbaycanla Serbiya arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur.

## *Novi Pazar şəhərinin meri:* "Ölkələrimiz və şəhərlərimiz arasında böyük potensial var"

"Azərbaycanın Şuşa və Serbiyanın Novi Pazar şəhərləri arasındakı əlaqələr ölkələrimizin münasibətlərinə, inkişafına töhfə verəcək. Azərbaycan və Serbiya arasında yaxşı strateji əməkdaşlıq mövcuddur. Bu gün Şuşa ilə Novi Pazar şəhərləri arasında imzalanan qardaşlaşma haqqında sənəd də həmin strateji tərəfdaşlığımızın nəticəsidir".



AZƏRTAC xəbər verir ki, bu fikriləri jurnalistlərə açıqlamasında Serbiyanın Novi Pazar şəhərinin meri Nihad Bişevaç söyləyib.

Nihad Bişevaç deyib ki, ölkələrimiz və şəhərlərimiz arasında potensial böyükdür. Belə ki, biz turizm, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə əməkdaşlıq edə bilərik.

"Qarabağda həyata keçirilən bərpa və quruculuq işləri bizi həqiqətən də heyran etdi. Mən bu regionun və Şuşanın inkişafında sizə uğurlar arzulayıram. Əlbəttə ki, sizin Serbiyanın Novi Pazar şəhərində də bir tərəfdaşınız və qardaş şəhəriniz olacaq", - deyə mer qeyd edib.

# BMT-nin Ətraf Mühit Proqramı Azərbaycandakı QHT-lərlə əməkdaşlığa hazırdır

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndə heyəti BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa Ofisinin direktoru xanım Silviya Motardla görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə agentliyin dəstəyi ilə ətraf mühitin mühafizəsi sahəsində qeyri-hökumət təşkilatlarının icra etdiyi layihələr haqqında məlumat verən Aygün Əliyeva bu istiqamətdə beynəlxalq dəstəyin olduqca vacib olduğunu vurğulayıb. O bildirib ki, ətraf mühitin mühafizəsi sahəsi son illərdə ölkəmiz üçün daha da aktuallaşıb. Belə ki, işğaldan azad olunan ərazilərimizdə 30 il ərzində flora və faunaya vurulan zərbələr, eyni zamanda çayların çirkləndirilməsi ekoloji problemlər yaradıb. Bu səbəbdən BMT-nin müxtəlif ekspertlərinin yerli QHT-lərlə birlikdə bu ərazilərdə monitorinq proseslərinin keçirilməsi aktuallığının olduğunu vurğulayıb.

Silviya Motard agentliyin fəaliyyətinin ətraf mühitin qorunması sahəsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirilib ki, BMT-nin Ətraf Mühit Proqramı mütəmadi olaraq QHT-lər üçün proqramlar həyata keçirir. Xanım direktor bu istiqamətdə Azərbaycanda fəaliyyət göstərən QHT-lərlə də əməkdaşlığa hazır olduqlarını vurğulayıb.

## Cenevrədəki müsabiqədə uğur qazanan Azərbaycanın iki sosial layihəsi "Çempion layihə" mükafatına layiq görülüb

Cenevrədə "İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2023" çərçivəsində keçirilən müsabiqənin "Çempion layihə"ləri seçilən İKT layihələri üzrə mükafatların təqdimetmə mərasimi keçirilib.

Müsabiqədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin iki innovativ sosial layihəsi - e-sosial.az portalı və "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) də uğur qazanaraq "Çempion layihə"lər elan olunub.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mərasimdə hər iki mükafat nazirliyin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin direktoru Kənan Əkpərova təqdim edilib.

Xatırladaq ki, BMT-nin İKT üzrə ixtisaslaşmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının keçirdiyi müsabiqədə müxtəlif ölkələrdən 18 kateqoriya üzrə 900 layihə iştirak edib.

E-sosial.az internet portalı 2019-cu ildə istifadəyə verilib və ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlar barədə toplanmış bütün sosial məlumatlara real vaxt rejimində çıxış və sosial-əmək hüquqlarının təminatına nəzarət imkanı verir.

2022-ci ilin may ayında istifadəyə verilən ƏMAS isə əmək münasibətləri zamanı kağız üzərində aparılan bütün əməliyyatların rəqəmsal müstəviyə keçidini, əmək və məşğulluq sahəsində xidmətlərin çevikliyini, şəffaflığını və səmərəliliyini təmin edən vahid əmək münasibətləri platformasıdır.

## QHT Agentliyinin nümayəndələri Azərbaycanın Cenevrədəki BMT Bölməsində olublar

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndə heyəti Azərbaycan Respublikasının Cenevredəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyində olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Qalib İsrafilov BMT-nin 52-ci insan hüquqları sessiyasında yerli QHT-lərin təmsilçiliyinin və fəallığının əhəmiyyətli olduğunu, qurumun müxtəlif strukturları tərəfindən vətəndaş cəmiyyəti nümayəndələrinin fəallığının diqqətdə saxlanıldığını bildirib.

Daha sonra çıxış edən agentliyin icraçı direktoru Aygün Əliyeva BMT-nin təsisatları və digər nizamnamə orqanları ilə əməkdaşlığın agentlik üçün prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. O, vətəndaş cəmiyyəti təsisatlarının qeyd olunan tədbirlər çərçivəsində iştirakının davamlı olması üçün sistemli iş aparılmasının vacibliyindən, beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün qarşıda duran hədəflərdən bəhs edib.

## Bir yumruq, bir ürək, bir can



# FHN-in Türkiyədə olan çevik xilasetmə qüvvələrinin sonuncu qrupu ölkəmizə yola düşüb





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Türkiyə Respublikasında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə qardaş ölkədə olan Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələrinin sonuncu qrupu ölkəmizə yola düşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, 8 ədəd nəqliyyat vasitəsindən ibarət avtomobil karvanı bu gün səhər saatlarında Kahramanmaraş şəhərindən ölkəmizə yola düşüb.

Qeyd edək ki, güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə zəlzələ baş verən ilk gündən etibarən FHN tərəfindən Türkiyəyə 8 baş xüsusi təlim görmüş xilasetmə iti, 3 ədəd xüsusi təyinatlı xilasedici nəqliyyat vasitəsi və digər zəruri xilasetmə vasitələri ilə təchiz olunmuş ümumilikdə 760 nəfərdən ibarət xilasedici və tibbi heyət göndərilib. Həyata keçirilmiş axtarış-xilasetmə əməliyyatları nəticəsində FHN-in qüvvələri tərəfindən dağıntılar altından 17-si uşaq olmaqla 53 nəfər sağ, 755-i Kahramanmaraşda və 25-i Hatayda olmaqla 780 nəfərin cəsədi çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Bununla yanaşı, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, FHN tərəfindən qardaş ölkəyə humanitar yardım olaraq 2 min 630 ədəd müxtəlif ölçülü çadır, 707 ədəd qızdırıcı, 5 ədəd böyük gücə malik generator, 540 ədəd çarpayı, 724 ədəd adyal, 724 ədəd adyal üzü, 650 ədəd masa, 2 min ədəd oturacaq, 8 min ədəd geyim dəsti, 20 min cüt corab, 7 min ədəd iplik dəsmal və digər ləvazimatlar çatdırılıb. Həmçinin, ümumilikdə 19 min 330 nəfər zərərçəkmiş nazirliyin Kahramanmaraş rayonunda qurduğu mobil səhra mətbəxlərində hazırlanan qida ilə təmin olunub.

# Azərbaycan könüllülərinin Türkiyədəki zəlzələ bölgəsində fəaliyyəti yüksək qiymətləndirilib





Martın 17-də Bakı Konqres Mərkəzində Azərbaycan gənclərinin Türkiyədə zəlzələ bölgəsindəki könüllü fəaliyyətinin yekunlaşmasına həsr olunmuş mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında Azərbaycan Könüllü Təşkilatları İttifaqının baş katibi Vüqar Əliyev və Türkiyədə fəaliyyət göstərmiş könüllülərin bir qrupu iştirak edib, görülmüş işlər barədə ətraflı məlumat verib, jurnalistlərin ünvanlandığı sualları cavablandırıblar.

Bildirilib ki, Azərbaycan könüllüləri Türkiyədəki fəaliyyəti bir ay davam edib, on minlərlə zərərçəkmiş şəxsə yüzlərlə azərbaycanlı gənc kömək əlini uzadıb, qardaşlıq borcunu yerinə yetirib. Xüsusi vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin çağırışına dərhal qoşulan gənclərimiz dövlət başçısının "Bir yumruq, bir ürək, bir can" şüarını özlərinin devizinə çevirərək, qardaş ölkədə zəlzələ qurbanlarına dəstək olmaq üçün canla-başla xidmət ediblər. Məlumat verilib ki, könüllülərimiz zəlzələnin ilk günlərində zərərçəkənlərə harada dəstəyə ehtiyac varsa, ora dərhal yardım üçün tələsiblər. Onlar həm çadırlar quraşdırıb, həmin düşərgələrdə yerli sakinlərə xidmət edib, həm də ucqar kəndlərdə zərərçəkənlərə zəruri humanitar xidmətlər göstəriblər.

Bildirilib ki, Azərbaycan könüllüləri koordinasiyalı şəkildə fəaliyyət göstərərək təkcə zəlzələnin episentri Kahramanmaraşda yox, həmçinin Hatay, Adıyaman və Malatya kimi bölgələrə gedib, oradakı zəlzələ qurbanları üçün də bu nəcib humanitar missiyanı yerinə yetiriblər.

Qeyd edilib ki, Azərbaycan gənclərinin bu dəstəyini həm yerli sakinlər, həm də qardaş ölkənin rəsmi şəxsləri çox yüksək qiymətləndirib. Kahramanmaraşda Türkiyə Prezidenti Rəcəp Tayyib Erdoğan könüllülərimiz ilə şəxsən görüşüb, Azərbaycan dövlətinə və xalqına təşəkkür edib. Eyni zamanda Türkiyənin XİN başçısı Mövlud Çavuşoğlu, DİN rəhbəri Süleyman Soylu, Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan, KADEM Fondunun Qəyyumlar Şurasının sədri Sümeyye Ərdoğan, "BaykarMakine" şirkətinin texniki direktoru Selçuk Bayraktar, habelə millət vəkilləri, valilər və tanımış şəxslər könüllülərimizin fəaliyyəti ilə yaxından tanış olub, gənclərimizə təşəkkürlərini çatdırıb.

Xüsusi olaraq vurğulanıb ki, Türkiyədə baş vermiş zəlzələdən sonra orada fəaliyyət göstərən yeganə könüllü heyət Azərbaycan könüllüləri olub. Eyni zamanda bu fəaliyyət Azərbaycan gənclərinin həm müddət, həm də say baxımından mütəşəkkil formada xarici ölkədə humanitar yardım istiqamətində təşkil olunmuş ilk könüllülük fəaliyyəti kimi tarixə düşüb. Azərbaycanlı könüllülər zəlzələ bölgəsində çox çətin şəraitin olmasına, dağılmış ərazilərə yetişməyin çətinliklərinə baxmayaraq, uzun yol qət edərək, zəlzələdən zərərçəkənlərin köməyinə çatıblar. Azərbaycan gənclərinin Türkiyədəki bu nəcib fəaliyyəti bir daha sübut edir ki, ölkə rəhbərliyinin könüllülük fəaliyyətinə, könüllülərə daimi diqqət və qayğısı nəticəsində Azərbaycanda geniş vüsət almış könüllülük hərəkatı daha da genişlənir.

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## *97-ci gün:* Ekoaksiyanın uzanması etirazçıların iradəsinə təsir etmir

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan haqlı etiraz aksiyası 97 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Şuşada hazırda az dumanlı hava şəraiti müşahidə olunur. Ərazidə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən bütün təhlükəsizlik tədbirləri yüksək səviyyədə təşkil olunub.



Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər. Aksiya iştirakçıları tələbləri yerinə yetirilməyənədək etirazlarını davam etdirəcəklərini bildirirlər. Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

# Ekofəallar tələblərində israrlıdırlar

Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəalların, QHT təmsilçilərinin Şuşa şəhərində - Laçın-Xankəndi yolunda başladıqları etiraz aksiyası fasiləsiz olaraq 97 gündür ki, davam edir.

Aksiyanın keçirildiyi bu uzun zamanda iştirakçılar bütün çətinliklərə sinə gərib hava şəraitinin qarlı-boranlı olmasına baxmayaraq, qətiyyət, prinsipiallıq nümayiş etdiriblər. Qanuni tələbləri yerinə yetirilməyənədək aksiyanı keçirməkdə qərarlı olduqlarını bildirirlər. Bu ərəfədə haylar da "fəallıq"larını xeyli artırıblar. Qarabağda etdikləri özbaşınalığa, talançılığa, ekoloji terrora siyasi don geyindirməyə çalışırlar. Himayədarları olan Fransanın və regionda maraqlarını təmin etmək istəyən digər siyasi dairələrin vasitəçiliyi ilə məsələni BMT-nin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarıb öz bədxahlıqlarını ört-basdır etməyə cəhdlər də göstərirlər. Məsələ burasındadır ki, aksiya keçirilən müddət ərzində heç bir zorakılıq faktı, qanunazidd hərəkət müşahidə edilməsə də, aksiya iştirakçıları yoldan istifadə etmək istəyən dinc vətəndaşlar üçün yolun açıq olduğunu dəfələrlə bəyan etsələr də, erməni tərəfi hələ də yoldan istifadə etmədikləri görüntüsünü yaratmağa çalışırlar. Dünyaya səs salıb blokadada olduqlarını, humanitar böhran yaşadıqlarını isbatlamağa cəhd edirlər. Halbuki bəyan edildiyi kimi, Laçın yolu bir saat da olsun bağlı olmayıb. Beynəlxalq Qızıl Xaç Təşkilatının və Rusiya sülhməramlı kontingentinin avtomobilləri hər gün sərbəst şəkildə, yolboyu istənilən istiqamətə hərəkət edə bilirlər.

Məlum idi ki, humanitar məqsədlər üçün verilmiş Laçın yolundan ermənilər hərbi məqsədlər üçün istifadə edirdilər. Təbii sərvətlərimizin qanunsuz istismar olunmasından savayı, bu yolla Hayastanın hələ də Qarabağda qanunsuz olaraq saxladıqları silahlı birləşmələrə silah-sursat daşınırdı. Torpaqlarımızda mina terroru davam etdirilirdi. Aksiya başlandıqdan sonra ermənilərin əllərindən bu imkan alındığı üçün daha çox həyasızlıq edib ölkəmizə qarşı şər-böhtan kampaniyasını davam etdirirlər. Bu azmış kimi ermənilər bədxah niyyətlərini həyata keçirmək üçün "alternativ" yollardan istifadə olunaraq təxribatlarını davam etdirmək niyyətindən də əl çəkmirlər. Martın 5-də hayların yüksəkrütbəli zabitlərinin Turşsu yolundakı təxribat cəhdləri də artıq Laçın yolundan hərbi məqsədlər üçün istifadə edə bilmədiklərinin "çarəsiz"liyinin göstəricisi idi.

İlk gündən aksiyada fəal iştirak edən Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyevlə əlaqə saxladıq. Bizimlə telefon söhbəti zamanı Yusif Vəliyev dedi: "İlk növbədə xalqımızı Laçın-Xankəndi yolunda 97 gün dinc etiraz aksiyası keçirən gənclərimiz adından Novruz bayramı münasibətilə təbrik edirəm. İstəyirəm xalqımız və dünya ictimaiyyəti bilsin ki, biz ermənilərdən fərqli olaraq yolkəsən, quldur deyilik. Laçın yolunu bağlamamışıq.




Mülkü şəxslər, sıravi vətəndaşlar yoldan istədikləri vaxt sərbəst istifadə edə bilərlər. Biz torpaqlarımızı talayanlara, təbiətimizi məhv edənlərə, ekoloji terrorla məşğul olanlara etiraz edirik. Biz Qarabağa silah-sursat daşıyıb yenidən müharibə alovu yandırmaq istəyənlərə, Qarabağla heç bir bağlılığı olmayıb ədavət toxumu səpənlərə qarşıyıq. İlk gündən "Ekoloji terrora son!", - deyirik. İstəyirik bilsinlər ki, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!" Qətiyyətlə bildirirəm ki, Rusiya sülhməramlılarına məxsus təminat-təchizat avtomobilləri Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edirlər. Xankəndidə yaşayan əhalinin ərzağa, dərmana və digər lazım olan zəruri mallara tələbatları təmin edilir. Yox, əgər ermənilər öz maşınlarından istifadə edib yolla hərəkət etmək istəmirlərsə, bu, onların problemidir.

Bizim dinc aksiyamıza siyasi don geydirmək istəyənlərə demək istəyirik ki, tələblərimiz çox sadədir. Yerinə yetirsinlər, bu gün aksiyanı dayandıraq. Əks halda, aksiya tələblərimiz yerinə yetirilənə kimi davam edəcək".

Söhbətə qoşulan gənc fəal Aydan Hüseynli dedi ki, bizi haqq yolumuzdan kimsə çəkindirə bilməz. Tələblərimiz qanunidir. Beynəlxalq hüquq normalarına uyğundur. Öz ölkəsində minillərlə yaşamış insanları ana dilində danışmaq hüququndan məhrum edən fransız millətçiləri, Fransa prezidenti anlamalıdır ki, biz burada etiraz aksiyası keçirməklə Qarabağda məskunlaşmış ermənilərə heç bir problem yaratmırıq. Heç bir zorakılıq tədbirləri həyata keçirmirik. Sadəcə olaraq, ekoloji terrora "yox" deyirik. Sərvətimizin talanmasına etiraz edirik. Fransa min kilometrlərlə uzaqlarda "pozulmuş erməni hüququ" uğrunda canfəşanlıq etməkdənsə öz ölkəsində, öz dilində danışmağı qadağan etdikləri korsikalılara muxtariyyət versin. Azadlıq versin. Demokratik seçki keçirmək imkanı yaratsın. İnsanları küçələrdə güllələbaran edib öldürməsin. Fransanın narahatçılığını anlamaq o qədər də çətin deyil. Aksiya başlayan gündən daha Fransız millətçiləri gəlib Qarabağda müharibə təbliğatı aparıb, yalan vədlərlə erməniləri qızışdıra bilmirlər. Fransızların erməni lobbisindən pul qoparmaq imkanları məhdudlaşıb. Qətiyyətlə bildiririk, nə Avropa Parlamenti, nə Fransa dövləti bizi haqq yolumuzdan çəkindirə bilməz.

Söhbətimizi aksiya iştirakçısı Sərxan Hümbətli ilə davam etdiririk. Sərxan deyir ki, Şuşanın qışının da, yazının da bir ayrı gözəlliyi var. Şuşadan Novruz ətri gəlir. Torpaq oyanır, ağaclar tumurcuqlayır, dağların yamacları yaşıl örtüyə bürünür. Biz apardığımız mübarizə ilə, şəhidlərimizin qanı hesabına alınmış bu torpaqlarda olmağımızla qürur duyuruq. Xalqımızı bir daha əmin etmək istəyirəm ki, tələblərimiz yerinə yetirilməyənə kimi bu müqəddəs yerdən geri çəkilmək niyyətimiz yoxdur.

Digər həmsöhbətimiz isə aksiya iştirakçısı, könüllü Rufiz Quluzadə oldu. Rufiz deyir ki, xalqımızın müqəddəs milli bayramı olan Novruzu Şuşada qeyd etməyin öz gözəlliyi var. Şuşa mədəniyyətimizin, milli kimliyimizin paytaxtıdır. Biz burada aksiya keçirdiyimiz müddətdə bir daha sülhə, sabitliyə sadiq olduğumuzu nümayiş etdirdik. Yalnız mahnılar oxuyur, musiqilər səsləndirdik. Bu müddətdə heç bir zorakılıq faktı olmayıb, hüquqazidd hərəkətə yol verilməyib. Novruz bayramı günü bu tarixi məkanda milli adət-ənələrimizi davam etdirəcəyik. Aksiya keçirdiyimiz məkan bir növ bayram meydançasına çevriləcək. Dünyanın heç bir yerində bu cür xoş niyyətli etiraz aksiyası baş tutmayıb. Biz müharibəyə, qanunsuzluğa, ekoloji terrora "yox" deyirik. Bu haqqı əlimizdən kimsə ala bilməz.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Avtomobillər aksiya ərazisindən maneəsiz keçib

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edir.

Xankəndidən Laçın istiqamətinə hərəkət edən Rusiya sülhməramlılarına məxsus üç minik avtomobili aksiya ərazisindən maneəsiz keçib. Bundan əlavə, sülhməramlıların iki təminat avtomobili Xankəndiyə gedib.

* * *

Xankəndidən Laçına doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus üç minik və beş təminat avtomobili aksiya ərazisindən maneəsiz keçib. Bundan əlavə, sülhməramlıların 13 təminat-təchizat avtomobili də Xankəndiyə gedib.

* * *

Xankəndidən Laçın istiqamətinə hərəkət edən Rusiya sülhməramlılarına məxsus 17 təminat-təchizat və bir minik avtomobili aksiya ərazisindən maneəsiz keçib. Bundan əlavə, sülhməramlıların 1 minik avtomobili Xankəndiyə gedib.





Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

* * *

Ekoaksiyanın iştirakçıları martın 17-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçına doğru hərəkət edən BQXK-ya məxsus altı minik və bir yük avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

Qeyd edək ki, erməniəsilli şəxslər bu avtomobillərdə Ermənistana aparılıb.

*AZƏRTAC*

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 29 noyabr (Cümə günü) tarixli 52-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 24 səfərülmüzəffər sənə 1337.
29 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Bununla "Azərbaycan" qəzetəsi idarəsi elan edir ki, həmin qəzetənin intişara [nəşrə] başladığı günədək Qafqazda türk və rus lisanlarında nəşr edilmiş qəzetə, jurnal, əkslər [fotoşəkillər], tarixi məlumat və Azərbaycan həyat və mədəniyyətində əhəmiyyəti olan asarı [əsərləri] idarəyə təqdim edənlərə gözəl mükafat veriləcəkdir. Arzu edənlər Vorontsovski caddədə 4 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə saat 10-dan 2-yə kimi müraciət etməlidirlər. Telefon nömrə 39-60.

*6/8 5-1*

## ELAN

Bununla ümuma elan olunur ki:

1) Bakı şəhərinə Azərbaycan (sabiq Zaqafqaz) dəmiryolu mövqiflərindən [stansiyalarından], Poyludan başlamış Bakı şəhərinə, sərbəst ərzaq (taxıl, düyü, göyərti, meyvə və ələfiyyat [yem]) və içki, odun və kömür gətirməyə icazə verilir.

2) Azərbaycan (sabiq Zaqafqaz) dəmiryolunun hamı mövqiflərində, Poylu mövqifi və Bakı arasında bilamümaniət [maneəsiz] nəqliyyat başlanır.

Qeyd: Müvəqqəti olaraq Gəncə mövqifindən taxıl çıxarmaq qadağandır. Həmçinin Bakı mövqifindən isə malı ancaq Ərzaq nazirinin xüsusi şəhadətnamələri ilə çıxarmaq mümkündür. Qalan mövqiflərdə malı qəbul edib göndərməsinə Ərzaq nazirinin icazənaməsi lazım deyil. (Bakı və Gəncə mövqiflərindən siva [başqa]).

*Ərzaq naziri: Yusifbəyov*
*Dəftərxana müdiri: Luçinski*

## BÜTÜN AZƏRBAYCAN ƏHALİSİNƏ

Vətəndaşlar!

Müharibə və inqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurayi-Millisi iqtizayi-zaman [zamanın tələbi] ilə təkrar Azərbaycan paytaxtı Bakıda toplandı. Şurayi-Millinin ən əvvəl qəbul eylədiyi qanun, sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurayi-Millini, milli bir şəkildən çıxarıb da dövləti bir şəkilə salmaq oldu. Bu ayın 19-da qəbul eylədiyi qanunnaməyə görə Şurayi-Milli, dekabrın üçünə qədər 120 əzalıq [üzvlük] bir Məclisi-Məbusan (Parlaman) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq Məclisi-Məbusan, iləridə ümumi intixab [seçki] üsulu ilə Azərbaycan Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] yığışıncaya qədər, yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini mühafizə edəcəkdir.

Vətəndaşlar!

Hərbi-ümumi axıra çatır. Millətlərin dörd gözlə gözlədikləri sülhi-ümumi bayramının axşamındayız. Böylə səadətli bir günün ərəfəsində cahan tarixi Hərbi-ümumi qədər böyük və manidar inqilabların şahidi olmaqda, məhkum millətlər kəndi haqlarını qaytarmaq, istiqlal və hürriyyəti-tamına [tam bir istiqlal və hürriyyətə] qiyam etməkdədirlər [qalxmaqdadırlar].

Beşinci sənəyə varan o şeytani qitali-əqvam [millətlər qırımı] nəhayət "Cəmiyyəti-Əqvam" [Millətlər Cəmiyyəti] kimi rəhmani bir nəticəyə gəlir.

Bu gün yalnız məğlubların deyil, qaliblərin də şüarı, "Millətlər öz müqəddəratlarını təyin eyləmək haqqına malikdirlər" düsturundan ibarətdir. Vicdani-bəşərin milyonlarca insan qanı bahasına qazanmış olduğu "Cəmiyyəti-Əqvam" fikri boş bir söz olmayıb, şübhəsiz ki, bir mənaya malik olacaqdır.

Bizi təxribkar qüvvətlərdən, məhvedici anarşidən, hərc-mərcdən qurtarmaq üçün öz dəvətimizlə gələn türklər vəzifeyi-xilaskaranələrini [xilaskarlıq vəzifələrini] ifa edərək, bu gün mövqelərini Müttəfiq əsgərlərə təslim etmişlərdir. Qafqaziya ərazisi üzərində asayişi təmin eyləmək üçün gələn bu yeni qüvvət, millətlərin müqəddəratını təyin edib də istədikləri kimi yaşamaq əzminə mane bir qüvvət deyildir. Cəmiyyəti-Əqvam fikrinin ələmdarı [bayraqdarı] bulunan rəisi-cümhur [prezident] Vilson bu zümrəyə mənsubdur. Paytaxtımızda müsafir bulunan Müttəfiq əsgərlərin komandanı müsyö Tomson, Qafqaziyaya aid məsələlərin Sülhi-Ümumi Konqresində həll olunacağını rəsmən bəyan etmişlərdir.

Əvət, vətəndaşlar! Azərbaycanın müqəddəs haqqı-istiqlalı heç bir millət tərəfindən inkar edilməyir. Biləks [əksinə], hüsntəvvəcöh [rəğbət] və qəbul görməkdədir. İnanalım millətimizin istiqbalına [gələcəyinə], inanalım Azərbaycanın səadətinə!

Dünya müharibəsinin sükut bulmaqda olan təlatümlü ümmanı mavərasından [arxasından] millətlərin hürriyyət və səadət günəşi möhtəşəm bir surətdə tülu edir [doğur]. Millətlər üzərlərindəki əski həyat və istibdad qüyud [bağlarını] və zəncirlərini ataraq yeni bir həyat və istiqlala hazırlanırlar.

Vətəndaşlar! Bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı tərk edəlim. Müqəddərati-tarixiyyə [tarixi müqəddəratımız] həpimizi bir yerdə yaşamaq məcburiyyətində bulundurur. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək və müşkül mənzillərini rahatlıqla keçmək və yeni həyata layaqət qazanmaq üçün yaşayışımızı məqul [məntiqi] və insani əsaslar üzərinə quralım! Yekdigərimizi [bir-birimizi] sevəlim, birbirimizə ehtiram edəlim!

Bütün Azərbaycan vətəndaşları bilafərqi-millətü-məzhəb [millət və məzhəb fərqi olmadan] bir vətənin övladıdırlar. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi səadətlərini hazırlamaq üçün onlar yekdigərinə əl uzatmalı və yardım etməlidirlər.

Bu xüsusda ən böyük məsuliyyət və ən ağır vəzifə bittəbii Azərbaycanın türklərinə, müsəlman camaatına düşəcəkdir. Onlar bu torpaq üzərində yaşayanların ən böyük əksəriyyətini təşkil etdiklərindən, daha ziyadə fədakar və daha ziyadə mütəhəmmil [dözümlü] bulunmalıdırlar.

Əvət, vətəndaşlar! Zamanın əhəmiyyətini dərk edəlim! Hər millətin haqqını təslim edəcək Sülhi-Ümumi Konqresi uzaq deyildir. O zamana qədər vətənimizi iğtişaşdan qoruyalım. Azərbaycan Məclisi-Məbusanını təsis, hökumətini yenidən təşkil edəlim və var qüvvət və mücahidəmizlə sülhi-ümumi məclisinə hazırlaşalım!

Yaşasın Azərbaycan Məclisi-Məbusanı!
Yaşasın Azərbaycan Cümhuriyyəti!
Yaşasın Cəmiyyəti-Əqvam!

*Şurayi-Milli namına: Rəis Məhəmməd Əmin Rəsulzadə*

## BAKI, 29 TƏŞRİNİ-SANİ

Müttəfiqlərin şəhərimizə vürudundan [gəlişindən] istifadə edərək qəlbləri dürlü-dürlü ehtirasat ilə dolu bir taqım əşxas və firqələr nümayəndələri dəxi Bakıya gəlmişlərdir. Bunların içində indi olduğu üzrə bolşeviklərdən tutmuş, hətta rus qaragüruh fikri və amalını təqib edən [daşıyan] həriflər dəxi vardır. Bunlar gələr-gəlməz öz məhəlli [yerli] həmdaşları ilə görüşüb, danışıb yavaş-yavaş hər kəs öz fikrini yürütməyə şüru etmişlərdir [başlamışlardır].

Bunların təşviq və təhrikatı [təhrikləri] sayəsində yerli rus məhafili [qrupları], Azərbaycan türklərinin onlara qarşı göstərdiyi hüsnrəğbətə rəğmən yavaş-yavaş öz iddialarını artırmaqla bərabər "hakim millət" təəssübünü [ideyasını] büruzə verirlər. Hökumətimizə və məmləkətimizə artıq etina göstərmir və özlərini Nikolay dövründəki kimi bir əyyamda hiss etmək istəyirlər. "Azərbaycan" sözü onlara xoş gəlmir, "böyük Rusiya" dan başqa ayrı kəlimə eşitməyi özləri üçün ağır hesab edirlər.

Şayani-diqqət [diqqətəlayiq] burasıdır ki, bunlar təklikdə birbiri ilə həmməslək [eyni əqidədə] olmadıqları halda, məsələ Azərbaycanın istiqlaliyyətinə gəldikdə hamısı yekdil və həmrəy olurlar. Məsələn, əksəri "İnqilabiyyuni-İctimaiyyun" [Sosialist İnqilabçılar] firqəsinə mənsub olub da özlərinə "Qafqaz və Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti" adı qoyan sosialistlər bizə "lütf" edərək deyirlər ki, "Eybi yoxdur, müsəlmanalara da təzə təşəkkül edəcək hökumətdə bir-iki yer verərik, bu şərt üzrə ki, yer verilənlər Osmanlı orientasiyası tərəfdarı olmayıb, demokrat məsləkli olsunlar." Bizə böylə bir "mərhəmət" göstərirlər.

Burada təbii olaraq bir sual əmələ gəlir:

– Əgər siz həqiqi sosialistsinizsə, o halda Osmanlı rəngi və ya rus, ingilis rəngi ilə nə işiniz vardır? Osmanlı nə vaxt sosializmə və ya demokratizmə zidd getdi? Və ya hangi demokratik əsasdır ki, bir taqım yabançı əşxasın [şəxslərin] milyonlarca nüfusu olan bir məmləkətə və onun millətinə hakim olmaq iddiasına müsaidə versin?

Nəşr etdikləri qəzetənin əvvəlinci nömrələrindən Azərbaycan tərzi-hökumətini [idarə şəklini] "tənqidə" girişib, məsləki müəyyən Rus Milli Komitəsi tərəfindən təşviq edilən tək-tək "şikayətləri" dəstaviz [bəhanə] edərək: "Hanı bəs, siz dediyiniz əmnü-asayiş [əmin-amanlıq və asayiş]? Budur, Şamaxı uyezdinin filan malakan kəndində pristav filankəsdən bir belə rüşvət alıbdır." deyə bağırırlar.

Böylə cüziyyatı [xırdalıqları] həman dəm Müttəfiqlərin gözlərinə çarpmaq istəyirlər. Lakin, biz isə cavabında bunu söyləməyirik:

– Siz indi böylə cüziyyatı gözə çarpmaqla, bizi fəna nəzərə vermək istəyirsiniz. Bəs həmin göstərdiyiniz uyezddə 40-adək müsəlman kəndləri dağılıb, minlərcə məsum əhali öldürüləndə hökumət kimin əlində idi? Sizin və sizin yoldaşlarınızın əllərində deyilmiydi? Bəs, nə üçün bu xüsusda bir ləfz [söz] belə söyləməyirsiniz? Əcəba, demokratik əsası böyləmi olar?

Digər tərəfdən, kadetlər və sağ güruhlarla dolu olan Rus Milli Komitəsi "Vahid Rusiya" şüarı ilə qalxıb bizə deyirlər ki: "Rusiyanın adi bir üzvi olub da Ufa Hökumətinə tabe olunuz." Lakin, Ufa Hökuməti ayrılmış millətləri nə əsasla "Vahid Rusiya" bayrağı altına sövq edəcəkdir? Və həmin Hökuməti rus milləti özü təsdiq etmişdirmi? Kimlərdən ibarətdir və hal-hazırda mövcuddurmu?"

Bu sualları cüziyyatdanədd [hesab] edərək: "Rus Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] ufaq millətlər üçün nə yol göstərsə, siz də o yol ilə gedərsiniz" deyirlər. "Ufaq millətlər kəndi müqəddəratlarını kəndi əllərinə alacaqlar" şüarını artıq etiraf etməyə meyl göstərməyən kimi görünürlər. İndiyə qədər başqa Qafqaz hökumətləri hər bir işlərini milliləşdirmək üçün rusları içlərindən çıxartmaq təşəbbüsündə olduqda, ruslara məmləkətimizdə hüsnrəğbət göstərib, baş yerdə əyləşdirməmizi, indi heç bir nəzərietibara almayırlar və açıq-açığına "Burası Rusiya dövlətidir" deməkdən nə utanıb, nə çəkinirlər. Burasının Rusiya dövləti olması cümləsini o qədər vüsətləndirmişlər ki, hətta, bəzi ictimai müəssisələr böylə bir şüarı ciddi surətdə yürütmək qəsdinə düşmüşlərdir. Böylə ki, məşhur "Sentrodom", yəni ev komitələrinin mərkəzi müəssisəsi – ki kadet fikirli əzalar [üzvlər] ilə doludur – gürcü dilində yazılan ərizələri geri göndərərək əmr edir ki, burada dövlət dili rus dilidir. Başqa dildə yazılan ərizələr qəbul edilməz. Xəlayiqin [xalqın] iqtisadi ehtiyacını rəf etməkdən [aradan qaldırmaqdan] başqa siyasət işlərinə dolaşmamağı lazım gələn bir müəssisə, bu gün siyasət aləminə girişib də əhaliyə "ton" vermək iddiasında olur.

Bizcə böylə hal artıq davam edərsə, məmləkətimiz və camaatımız dürlü-dürlü intriqalar qurbanı ola bilər. Bu dərəbəyliyi aradan qaldırmaq və Müttəfiq Baş komandanlığı ilə məsələni qəti bir surətdə həll etmək lüzumu növbəti mühüm məsələlərin ən başlıcasıdır. Çünki aralıqda böylə intriqaların vücudu hər kəsi öz vəzifəsindən çəkindirib, qayda və nizamı pozmaqla hərc-mərc ehdasına [əmələ gəlməsinə] böyük bir səbəbiyyət verə bilər.

## TELEQRAF XƏBƏRLƏRİ

- Prins Maks, Almaniya dövlətinin naibüssəltənəsi [səltənət naibi, vəkili] təyin ediləcəkdir. Kansler təyin edilən Ebert sosialist olub, keçmişlərdə Berlində dərzilik edirmiş.

- Əhalini bolşevizm və ərzaq anbarlarını dağıtmağa qoymamaq üçün İngiltərə Hökuməti tərəfindən bir para şəhərlərə acentələr göndərilmişdir. Bu qətnamə nəticəsi olaraq bir çox yerlərdə inqilab hərəkatı dayandırılmışdır.

- Londondan xəbər verirlər ki, 1900-cü ildən bəri davam edən İngiltərə Parlamanı buraxılmışdır. Təzə seçkilər kanuni-əvvəlin (dekabrın) 12-sinə təyin edilmişdir.

- 11100 nəfər fransız Peştə şəhərinə daxil olmuşdur. İnsbruk italyanlar tərəfindən zəbt edilmişdir. Romaniya Şurayi-Millisi [Milli Şurası] Serbiya əsgərlərinin Banata daxil olmaları və Banatın Serbiyaya yapışdırılması ilə Serbiya bayraqları altında Romaniya əhalisinə zorla yəmin etdirmək əleyhinə Müttəfiq hökumətlərə və Çiçerinə protesto etmişdir. Romaniya Şurayi-Millisi Serbiya Hökumətinə öz zəbt edici qəsbkaranə [niyyətlərindən] dəstbərdar olmaq [əl çəkmək] üçün icrayi-nüfuz yetirilməsini [təzyiq göstərilməsini] və bununla Romaniya əhalisinə öz müqəddəratını həll etmək imkanı verilməsini xahiş edir.

- Cenevrədən xəbər verirlər ki, Yassıda Transilvaniyanın zəbt edilməsi lehinə nümayişlər vaqe olmaqdadır. Müttəfiqlərin siyasi firqələri öz aralarında müşavirə etməkdədirlər. Romaniyada Nəzarət Kabinəsinin istefası xəbərini verirlər. Milli hökumət təşkili gözlənir.

- Pekindən xəbər verirlər ki, Müttəfiq dövlətlər heyəti Çin Hökumətinə nota verib, Çin Hökuməti tərəfindən xələldar edilmiş [pozulmuş] bir çox maddələri göstərmişlərdir. Çin Hökuməti öz istehsalatını genişləndirmək əvəzinə, öz mədaxilini daxili mübarizəyə sərf etməsinə görə, Qlam öz məyusluğunu izhar etmişdir.

- Stokholmdan verilən xəbərə görə, İsveç heyəti Ukraynadan qayıtmışdır. Onların dediyinə görə, bolşeviklər Ukraynanı təhdid etməkdədirlər. Bolşeviklər əleyhinə müdafiə olaraq alman əsgərlərinin Ukraynada qalmalarına təhəmmül edilir.

**Hindistan haqqında**

"Royter" acentəliyi tərəfindən 30 təşrini-əvvəldə [oktyabrda] xəbər verilib də idarəmizə indi çatmış olan və Hindistan haqqında İngiltərə nazirlərindən Lloyd Corcun nəzəriyyatını [fikirlərini] havi [ehtiva edən] bir teleqrafı əhəmiyyətindən naşi [ötrü] dərc ediriz.

Gildholl bələdiyyə rəisi evində verilmiş olan bir ziyafətdə Lloyd Corc irad etdiyi nitqində demişdir ki:

*"Müttəfiqlərin yorulmaqsızın almanları təqib etmələri sayəsində almanlar Müttəfiq xətti-hərbini [cəbhəsini] yara bilmədilər. Kayzerin xəl'ini [taxtdan endirilməsini] Lloyd Corc tarixi-cahanda [dünya tarixində] ən böyük bir vəq'ə [hadisə] ədd [hesab] edir. Millətin iştiraki-rizası ilə cahanı əziyyət və dəhşətlərə düçar etmiş Almaniya cəzasını çəkməlidir.*

*Almaniya bəşəriyyətə qarşi bir cinayət yapdı. İşbu cinayətdə hökmdarlarını alqışlayan alman xalqı da iştirak etmişdi. Şimdi qalibiyyət onlar tərəfində olsaydı, şu xalq yenə də onları alqışlardı. Təhdiddən xilas məsələsini həll etdikdə, bunu da xatirdən çıxarmamalıyız. Biz xalqa qarşı xüsumət [düşmənçilik] qaldırmaq istəməyiriz. Lakin bu həqiqəti unutmaq olmaz. Şərait öylə olmalıdır ki, bu dörd il fəcaye [faciələri] və məzalimi [zülmləri] təkrar edilməsinlər. (Alqışlar)*

*Biz ədalətsizlik yapmarız. Biz Almaniyadan bir qarış da olsa belə yer almaq niyyətində deyiliz. 1870-ci sənədəki xətanı təkrar etməriz ki, onun da böylə bir cəzası olsun.*

*Əsgərlərə gəldikdə, söyləmişdir ki, dəryaları aşıb, müavinət [yardım] üçün bizə könüllü sifətində köməyə gələn qəhrəman və rəşid [rəşadətli, cəsur] əsgərləri xatirdən çıxarmamalıdır. Onların böylə qalibiyyətdə bizimlə şərik olduqları bədihidir [açıqdır]. Ona görə də, sülh məsələsi həll edildikdə onların da fədakarlıqlarına münasib səsləri olmalıdır. İngiltərə bir il bundan əqdəm [əvvəl] sülh məclisində təklif edəcəyimiz şəraiti hazırlayanda, onlarla məsləhətləşdik. Bu sənə yenə də bərabər həmən sülh şəraitini nəzərdən keçirdikdə, hökmdarların və Hindistanın nümayəndələri ilə bir fikrə gəldik. Bu gənc millətlər o qədər qəhrəmanlıqlar göstərmişlər ki, qalibiyyətə o qədər səbəb olmuşlar ki, Şurada iştirak etməyə kəndilərinə haqq qazanmışlardır.*

*Düşməni iflas dərəcəsinə yetirən bu qalibiyyətə maddi cəhətdən bizə müavinət [yardım] edən o böyük Hindistan imperiyasına da böylə ədalətli əlaqə olmalıdır. Hindistanın ehtiyacları sülh məclisində unudulmamalıdır. Dörd sənə davam edən üxüvvətimiz [qardaşlığımız] bu gün birdən-birə qırılmamalıdır. İngiltərə dövlətinin şuralarda olan vəziyyəti bugünkü dərəcədən yüksək heç bir zaman olmamışdı. (Alqışlar) Fəqət, bizim fəaliyyətimiz sülhdən sonra başlanacaqdır. Ən yaxın vaxtlar Britaniya və imperiyamızın müqəddəratına həsr edilməlidir. Böylə bir əzəmətli vaxtımda mən də sizi, imperiyanı nicat yoluna çıxaranadək üsyanı unutmağa dəvət edirəm."*

## LORD-KANSLER FİNLEYİN NİTQİ

Təşrini-əvvəlin [oktyabrın] 28-də Londondan xəbər verilir ki, lord-kansler Finley Etilaf dövlətləri parlaman nümayəndələri şərəfinə kəşidə edilmiş [verilmiş] ziyafətdə söylədiyi nitqində demişdir ki, Belçika yalnız alman ordusuna deyil, Almaniya Hökumətinin hiyləkaranə intriqalarına da müqavimət etmişdir. Tarixi-bəşərdə almanların müharibə üsulu və tərzi-hərəkəti yeni bir şeydir. Lilldən dinc əhalinin köçürülməsi öylə bir cinayətdir ki, müqəssirləri rüsva etməlidir. Sualtı qayıqları komandanlarına sərnişin gəmiləri[ni] qərq etməyə görə "Dəmir Xaç" nişanı verilirdi. Yəni "Dəmir Xaç" namussuzluq və insaniyyətsizlik əlaməti imiş. Lakin, almanlar ən böyük vəhşiliyi əsirlərimiz haqqında icra etmişlərdir. Bunlar aclıqdan başqa, min dürlü işgəncələrə məruz qalmışlardır. Beynəlmiləl adabın [qayda-qanunun] müdafiə və mühafizəsi üçün bu canilər tənbeh edilməlidir.

Mötəliflərin [Etilaf dövlətlərinin] müzakirə edəcəkləri digər bir məsələ də zərərlərin ödənməsidir. Əlbəttə, hər zərər ödənəmməz. Ölü dirilməz və heç bir məbləğ məqtulun [qətl edilənin] baqi mandələrini [arxada qalanlarını] qənaətləndirməz. Fəqət, Fransa ilə Belçikanın nəhayətsiz maddi zərərləri ödənməlidirlər. Hər bir qərq edilmiş gəminin əvəzi alınmalıdır. Biz razı ola bilmərik ki, müharibədən sonra davadan mütəzərrir olmamış [zərər görməmiş] qalan Almaniya ticarət donanması üstünlük qazansın. Alman dənizdə bütün məsaisi [gücü] ilə buna çalışmışdır. Fəqət biz buna mane olmalıyız.

Özünü hökumətlə bir bilən alman milləti, militarizm onlara bir mənfəət verməz, vermədi də. Qalibiyyətdən şadlanan və müdhiş təcavüzlərə laqeyd baxan alman milləti şimdi kayzerinin əməlinə cavabdeh olmalıdır. Həqiqətdə alman milləti özünü kayzerdən ayırmamışdır. Millət həmişə onun müvəffəqiyyətlərini təhsin [tərifləmiş] və cinayətlərini əfv etmişdir. İndi də cəzasını çəkməlidir.

## ALMANİYADA

- Berlin Şurasının İcraiyyə Komitəsində müntəxəb [seçilmiş] komanda ilə alman sosialist ordusu təşkil edilməsi planı hazırlanmaqdadır. Sosialist cümhuriyyəti nişanı olaraq, köhnə nişanlar əvəzinə təzə qırmızı nişanlar tətbiq edilmişdir. Rəşadət təməyyüz [fərqlənmə] nişanları ləğv edilmişdir. Silah ancaq xidməti vəzifələr ifasında gəzdirilir.

- Kiyev Şurası, bütün hökumət ixtiyarının şuralara vagüzar olunmasını [tapşırılmasını]; sənayenin, bankların və böyük mülklərin milliləşdirilməsini tələb edir. Drezden iştirakiyyunları [sosialistləri] Milli Şuranın macəracu [macərapərəst] və ictimai inqilaba təhlükəli təsiri olduğu haqqında Şura tərəfindən bir qətnamə qəbul edilməsi üçün dəvətnamə nəşr etmişlər. Rəsmi surətdə xəbər verirlər ki, Berlin Şurasının İcraiyyə Komitəsinə bütün cümhuriyyətə dəxli olan məsələlərin həlli üçün Reyxstaq üzvləri daxil ediləcəklərdir.

- Stokholmdan xəbər verirlər ki, İngiltərə generalı Betti Almaniya Şura nümayəndələrini Hökumət tərəfindən təsdiq olunmamış ədd [hesab] etdiyinə görə, onlarla müzakirata [danışıqlara] başlamaqdan imtina etmişdir.

- Təşrini-saninin [noyabrın] 24-də alman mətbuatı xəbər verir ki, Fəhlə və Saldat Vəkilləri Şurasının [Fəhlə və Əsgər Deputatları Sovetinin] İcraiyyə Komitəsi ilə Xalq Komissarları Şurasının iclasında böylə bir qətnamə çıxarılmışdır: İnqilab təzə məşrutiyyət [konstitusiya] qanunları vücuda gətirmişdir. Birinci intiqal [keçid] zamanında təzə qanun Fəhlə və Saldat Şurasının İcraiyyə Komitəsi ilə Xalq Komissarları Şurası arasında böylə sazişə bais olmuşdur. Əvvəla, siyasi hökumət, Alman Sosialist Cümhuriyyətinin Fəhlə və Saldat Vəkillər Şuraları əlində olar, onların məqsədi inqilab fütuhatını [nailiyyətlərini] saxlamaq və əks-inqilaba imkan verməmək üçün bu inqilabı möhkəmləşdirmək. Saniyən [ikincisi], Fəhlə və Saldat Şuraları Vəkillərinin ictiması [yığıncağı] Alman Cümhuriyyətinin İcraiyyə Komitəsini intixab edənə [seçənə] qədər Berlin İcra Komitəsi Alman Cümhuriyyətinin Fəhlə və Saldat Şuraları fəaliyyətini Berlin və həvalisində [ətrafında] olan Fəhlə və Saldat Vəkilləri Şurası ilə bərabər görəcəkdir. Salisən [üçüncüsü], Xalq Komissarları Şurasının Berlin Fəhlə və Saldat Vəkilləri Şurası tərəfindən təsdiq edilməsi, cümhuriyyət icra qüvvəsinin zəbt edilməsindən ibarətdir. Rabiən [dördüncüsü], milli münasibat [münasibətlər] qəti surətdə həll edilənə qədər, həmçinin Prussiyada Cümhuriyyət kabinəsi üzvlərinin təsdiq və kənar edilmələri Mərkəzi İcra Şurası ixtiyarında qalır. Kontrolluq [təftiş] ixtiyarı. Xamisən [beşincisi], Kabinə tərəfindən xüsusi vəzirlər [nazirlər] təyin edildiyi zaman, Şuranın rəyi nəzərə alınmalıdır. Fəhlə və Saldat Vəkillər Şuralarının Milli Şurası mümkün olan qədər tez vaqe olmalıdır [baş tutmalıdır].

- Təşrini-saninin [noyabrın] 23-də Berlindən verilən xəbərə görə, Almaniya Hökuməti Petroqradda və Moskvada olan alman Fəhlə və Saldat Şuralarına xəbər verilməsini xahiş edir ki, onların etiraf edilməsi [tanınması] məsələsi ancaq onların nə cür təşkil edilmələri, məhəlli [yerli] hökumətlə alman məmurlarına olan münasibətləri aşkar edildikdən sonra həll edilə biləcəkdir. Buna binaən [görə], bu məsələlərin müzakirəsindən ötrü mümkün qədəri tezliklə birər nümayəndə Berlinə göndərilməsini xahiş etmişdir.

## TÜRKİYƏDƏ QADINLIQ MƏSƏLƏSİ
### "Feminizm"

**3**

Feminizm məsələsini ruhu və qəvamisi [mübhəm tərəfləri] ilə meydani-ələniyyətə vəz [aşkara çıxarmaq], əfkari-ümumiyyə [ictimai rəy] üzərində dolaşan kabusu rəf etmək [aradan qaldırmaq] üçün müzlim [qaranlıq] həyatdan nurani nicata [işıqlı qurtuluşa] isal edici [istiqamətləndirən] qüvvətli əllər, müqtədir mühərrirlər meydana çıxdı. Bidayəti-məşrutiyyətdən [Məşrutiyyət dövrünün başlanğıcından] bu hərb sənələrinə qədər nəşr edilən risalələrdən alır oxursanız... məsələn, bir vaxtlar "Halə", "Şəhab" və sairə çıxdı, "Sərvəti-fünun", "Şəhbal", "Zəka" kimi salon məcmuələri [jurnalları] çıxdı. Bir vaxt "Piano", "Düşünürəm" qəzetələrini çıxaran heyəti-təhririyyədən [yazı heyətindən] Tofiq və Nəbillər azmı çalışdı? Sonralar "Rəsimli kitab", "Donanma" məcmuəsi, bilxassə [xüsusilə] Türkiyədə də qadınlığa, şeirin hesabı [sayı] nöqteyi-nəzərindən ən ziyadə xidmət edən "Rəbab" qəzetəsi, "Türk yurdu", "İctihad"... Bu məcmuələrin kamilən qadınlığa aid ayrıca fəsilləri vardır.

Son zamanlarda milli cərəyanlar oyandırmaq əsasına binaən [görə] intişar edən [nəşr edilən] "Yeni məcmuə"də yenə o fikirlər nəmalanmağa [çiçəklənməyə] başlamışdır. Nəticə etibarı ilə İstanbul mətbuatı feminizm məsaili [məsələləri] haqqında ciddi uğraşdı. Mühərririni-Osmaniyyədən [Osmanlı yazıçılarından] müxəllədati-güzideyi-irfan [idrakın ən gözəl şah əsərləri] ilə şöhrətyab olan [şöhrət tapan] Cəlal Nuri bəy, qadınlara aid bir çox məqalələr yazdığı kimi, "Feminizm" namında bir də kitabı vardır.

Türkiyədə bir günəş qədər parlaq şeirləri ilə qadınlıq ruhunu tənvir [işıqlandıran] və təsvir edən Tofiq Fikrət kimi bir ədib vardır. Bunlar kamilən qadınlıq həyati-ictimaiyyəsi [qadınların ictimai həyatı] uğruna mücahidini-qələm [qələm mücahidləri] əddinə [sayılmağa] səzadır [layiqdir]. Türkiyədə feminizm bəhsini qüvvətləndirən şairlər, ədiblər olduğu kimi, roman yazan romantiklər[in], fərəzə [məsələn] ən ziyadə romançılıqda şöhrət bulan Hüseyn Rəhmi bəy kiminin, xoş əsərləri vardır. Qadınlıq həyati-ictimaiyyəmiz haqqında nə gözəl məlumat verir.

Qadınları ictihada [çalışmağa; cəhd etməyə] dəvət edən erkəklər olduğu kimi, qadınları qadınlığa dəvət edən qadınlar da bulunmuşdur. "Qadınlar dünyası" deyə risalə [broşür] çıxırdı. Xanım qızların səlis ifadələri ilə, gözəl üslubi yazıları ilə mətbuatda olduqca mövqe tutdu. Xatiri sayılır yazı yazanlar var idi; bunlar yalnız xəyalpərvəranə, şeriyyəti-füsunkaranə [füsunkar şeriyyət] ilə sahibi-xamə [qələm sahibi] olmaqla qalmadılar. Bilfeil [həqiqətən], qadınlıq ruhunu ictimaiyyat içərisində parlaqlığını ibraz edəcək [göstərəcək] cəmiyyətlər meydana gətirdilər. Qadınların İşlətmə Cəmiyyəti Türkiyədə pək çox xanımların iaşələrinə mədar [bünövrə] oldu. Yalnız, əcnəbi Avropa hökumətlərində olduğu kimi, məələsəf [təəssüf ki], mürəbbiyəxanalar olmadı. İnşallah, bunu da pək yaxında görmək nəsibdir.

Donanmayi-Osmaninin [Osmanlı donanmasının], Müdafiyeyi-Milliyyənin qayeyi-amalına [məqsədinə, qayəsinə] müvafiq xidmətlərdə bulunmağı bir vəcibeyi-vətəniyyə [vətən borcu] ədd [hesab] edərək, sevinə-sevinə əlindəki-ovcundakı qiymətdar [qiymətli] mücəvhəratına [daş-qaşlarına] varıncaya qədər, hibə etməkdən [bağışlamaqdan] çəkinmədilər. Bunlardan anlaşılır ki, qadınlıq hissiyyatı zamanına görə ən böyük bir qüdrət olaraq tövsif edilməli [qiymətləndirilməlidir].

Ənənəvi fikri-səqamətpərvəranəyə [eyib və nöqsan arayan fikirlərə] hədəf olmaqda məna yox. Bu hərb sənələri içərisində İstanbulda görülən ticarət üzündən sərbəstlik həqiqətən qibtərəsandır [qibtə oyandırır]. Qadınlara hər yerdə bir mövqe verilir. Konfranslarda, konqrelərdə bir mövqe sahibi bulunurlar.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 29 noyabr (Cümə günü) tarixli 52-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Son sənələrdə görülən asari-tərəqqidən [tərəqqi işarətlərindən] bir nümunə də bütün tüccaran [tacirlər] məiyyətlərində [yanlarında] namuskaranə [namuslu bir şəkildə], iffətpərəstanə [iffətli bir şəkildə], kəndi məişətini kəndiləri tədarük etmək surəti ilə mücadileyi-həyata [həyat mübarizəsinə] addım atmış bulunur, hər tərəfdə türk xanım qızlarına görə xidmətlər pək çox feminizmin qayələrinə vüsul [çatma] imkanını göstərir.

Maarif Nəzarətinin bəsirətkar [sağlam düşüncəli], fikri-durəndişanəsinə [uzaqgörən qənaətinə] binaən [əsasən], Türkiyə xanım qızlarını darülfünuna [universitetə] qəbul etmək kimi böyük bir asari-tərəqqi [tərəqqi nümunəsi] görüldü. Rəhleyi-tədrisdən nəşət edən [təhsil görən, təhsil ocağında yetişən] bir diplomat qızla qolay-qolay müsahibələrə girişilməyəcək bir dərəcədə iqtidar [qabiliyyət] göstərərlərsə, nə gözəl olar! Xanım qızlarımızın fikirləri nə qədər geniş, alimanə, vaqifanə düşüncələrə malik olarsa, o qədər iftixar edəriz. Qadınlara mövqeyi-mümtaz [yüksək mövqe] verilə bilmək üçün əvvəli-əmrdə [işin əvvəlində] bir hərəkəti-fikriyyənin [ideolojik bir fəaliyyətin] meydana çıxması mətlub [tələb olunur]; bu isə fəzləsi [artıqlaması] ilə icra edildi. Nəticə, Türkiyə qadınları hüququnu müdafiəyə qadir, natiqə-pərdaz [gözəl nitq qabiliyyəti olan] xanımların bulunması, yarın üçün yetişəcək şübbani-vətənin [vətən gənclərinin] milli, irqi səciyyələrin[in] ən böyük inkişaf və təzahhürünə [çiçəklənməsinə] səbəb olacaqlar. Vətənin təalisi [ucalması, inkişaf etməsi] qadınların əllərindədir. Bunun üçün müqəddərati-atiyyəyə [gələcək müqəddərata] nigahbani-naümid olmaqdansa [ümidsizliklə baxmaqdansa], şimdidən selli-seyfi-qələm edib [qələm qılıncını çəkib] ümidvar bulunmaq, mömin [imanlı, inanmış] bir iqbal [gələcək] hazırlamaq əlbəttə xeyirlidir.

Bir millətin yüksəlməsi maariflə qaimdir [mümkündür]. Qadınlarımız[ın] kiçik çocuqlara verəcəyi tərbiyə əsasi [əsaslı, bünövrəsi möhkəm] olarsa, nə böyük bir əxlaq sahibi olar. Əxlaqiyyat bəhsində də zikr edəcəklər ya.

* * *

Qadınlığın bu hərəkəti-ictimaiyyəsi [ictimai hərəkəti] və daireyi-şümulu [əhatə dairəsi] məhduddur. İstanbuldan taşraya [əyalətə] gedən məmurin [dövlət qulluqçusu] ailələrinə baxaraq, görənək deyilən bir təqliddən sonra işə başlanır. Getdikcə böyük bir vüsət kəsb edir [qazanır]. Əsasən buna hacət qalmadı, zərurəti-ictimaiyyə çoxaldıqca təbiəti ilə o nöqtəyə isal edilir [yönəlirlər, çatırlar]. Şəhərlərdə, qəsəbələrdə yaşayan əhalinin qadınlıq haqqında fikrini sorar isəniz, sizə yalnız əsl iffət sahibi olduğunu və zəkiyyə [təmiz, saf] bir ailəyə mənsubiyyəti ilə iftixar edər. Halbuki əxlaq nöqteyi-nəzərindən dərəceyi-tərbiyyəti [tərbiyə səviyyəsi] yoxsa, o qayəyə davam surəti ilə səadət [müvəffəqiyyət] mümkün olar. Fəzaili-əxlaqiyyə [əxlaqi fəzilətlər] nə qədər ülvi xislət olduğunu təqdir edəmməyən cühəlaya [cahillərə] görə, qadınlığın fəzlə [çox] oxumağı günahi-kəbairdən [böyük günahlardan] mədud bulunduğu [sayıldığı] sərd [irəli sürür] və isbat edir. Bunlar isə cəhalətin qoyu kölgəsi altında qalmış izbə dari-hicrandır [qaranlıq, kiçik hicran yurdudur]. Ruhi mahiyyəti, xəlqi əxlaqsızlığı badi [səbəb] olacağına şübhə yoxdur. Dərəceyi-şümulu [əhatə dairəsi] nə qədər vüsətli [geniş] olsa, cəhalətin saiqəsi [sövq etməsi, yönləndirməsi] ilə o zərbeyi-qəhhar [qəhredici zərbə] hər vaxt fikri-sərbəstanəsini [azad düşüncəsini] zülmət içərisinə sövq edər.

Qadınlardaki məsai [iş, çalışma] dərəcəsi erkəkdən fərqli isə də, əsri təkamülat [müasir inkişaf mərhələsi] bunları getdikcə müsavi [bərabər] qılmaqdadır. Baxınız, Avropada sülh masasına bir rus qadını oturduğu kimi, almanların cəbheyi-hərbinə bir alay rus qadınları hərbə bilfeil [bilavasitə; əməli olaraq] iştirak edirlər. İngilislərin sufrajistləri – inqilabi-əfkar [fikirlərdə inqilab] – əhraranə [sərbəstcəsinə] müsavati-hüquq [hüquq bərabərliyi] qaydalarını qasiblər [qəsb edənlər] əlindən qurtarmaq istəyirlər. Bir çox sosialist məsləkini ixtiyar etmişlər var. Bunlar kamilən qadınlıq aləmində böyük işlər görə biləcək bir istedadın mövcudiyyətinə bəraəti-istehlaldır [varlığını isbat edən ilk işarələr, ilk addımlardır].

Mən Türkiyədəki qadınları bu qədər yüksək fətanəti-əxlaqiyyədə [əxlaqi qavrayışda] görəmməm. Yalnız, istiqbal [gələcək] üçün bir qeyd ola bilər. İngilis qadınlarındakı onur qədər, fransız qadınlarındakı zövqpərəstlik qədər, alman qadınlarındaki şəfqəti-milliyyəçilik qədər qayələr, ruslar qədər siyasi məqsədlərdə canını fəda edici qədər böyük işlər bacarmaları hənüz [hələlik] mümkün deyildir. Hökumət işlərində, bələdiyyə ümurunda [işlərində], bankalarda, şiməndifərlərdə [qatarlarda], əsnaf [sənətkarların] və tüccaranın [tacirlərin] xəfif xidmətlərində, əl işlərində nə qədər böyük məharəti-kamilə sahibi bulunduqlarını pək əla isbat etdilər.

*Əbdüllətif*

## SÜLH ƏTRAFINDA

Alman Xariciyyə Nəzarəti Müttəfiq dövlətlərə böylə bir nota ilə müraciətdə bulunmuşdur:

Vilson tərəfindən elan edilən əsaslara istinadən Almaniya xalqı mütarikə [atəşkəs] əqd edildiyi [imzalandığı] zaman Vilsonun vasitəliyini xahiş etmişdi. Məlum olduğu üzrə, bütün millətlərin sülh və hüququ bərpa edilməsi ümidi ilə əqd edilən mütarikə şəraiti əvəzinə bizim məhv olmağımız nəzərə alınmışdır. Şimdiki mütarikə şərtlərinin sülh əqd edilməsinə bais ola biləcəyi müşkül olmaqla bərabər, Almaniyada sülh və asayiş bərpa edilməsi və əsgər tərxisi imkan[ı] əvəzinə, bizi başqa vəsilələrlə müharibəni davam etdirməyə məcbur edəcəkdir. Mütarikə şəraiti məmləkətdə hərc-mərcliyə bais olacaqdır. Bizim protestolarımız təsirsiz qalırlar. Hərgah mütarikə şəraiti Almaniyanı gələcəkdə düşmənanə hərəkat başlamağa qeyri-müqtədir etmək arzusu ilə əqd edilmişsə, o zaman Müttəfiq dövlətlər indidən anlamalıdırlar ki, alman milləti müharibəni davam etdirmək arzusunda olmaqla bərabər, bunu etmək qüvvəsinə malik deyildirlər. Almaniya Hökuməti bu fikrə gəlmişdir ki, Müttəfiqlər alman millətini məhv etmək arzusundadırlar. Mütarikə əqd edildikdən sonra Almaniya Hökuməti dərhal Vilsona müraciətlə, mümkün qədər tezliklə müzakirələrinin başlanmasını xahiş etmişdi. Fəqət indiyə qədər Almaniya Hökumətinə cavab verilməmişdir. Alman milləti bu fikirdədir ki, Müttəfiqlər müharibəni davam etdirməkdən ötrü alman pulemyotçu əsgərlərindən ifası qeyri-mümkün olan şəraitin ifasını tələb etməklə bir səbəb arayırlar. Vilson deyir ki, sülh, hüquq əsasınca əqd edilməlidir. Buna görə də mübahisəli məsələləri Sülh Konfransından əvvəl həll etmək olmaz. Lakin, Almaniya Hökuməti bu nəticəyə gəlir ki, fransızlar... Almaniya Hökuməti sülh müzakiratı müddətinin uzadılması əleyhinə protesto edir. Alman millətinə müvəqqətən təcavüz etmək olar, lakin, alman milləti hər halda yaşayıb, öz hüququnu müdafiə və mühafizə edəcəkdir. Almaniya Hökuməti Müttəfiq dövlət əsgərlərinin alman əsgərləri dalınca on kilometrədən yaxın gəlməklə mütarikə şəraitini pozmaları müqabilinə protesto və tutulmuş dəstələrin buraxılmasını xahiş edir.

## QƏZETƏLƏRDƏN

**Suriya hökumətinin protesti**

"F. Ç." qəzetəsi xəbər verir ki, Suriyanın məşhur millətpərvərlərindən, Türkiyə Parlamanı məbusu Arslan ümum müharib [savaşan] və bitərəf dövlətlərə teleqraf çəkərək Parlamanın Suriya Ərəb Fraksiyası namından İngiltərə və Fransanın Suriya daxili işlərinə müdaxilələri müqabilinə protesto etmiş, Suriyanın müqəddəratını həll etməyə yeganə səlahiyyətdar ədd [hesab] olunan rəyiamm icrasını [referandum keçirilməsini] tələb etmişdir.

## ŞİMALİ QAFQAZİYA VƏ DAĞISTAN CÜMHURİYYƏTİ

Şimali Qafqaziya Cümhuriyyəti istiqlaliyyəti xüsusunda müzakirata girişmək üzrə Şimali Qafqaziya mürəxxəsləri [nümayəndələri] gəldiklərini qəzetələrəmizdə xəbər vermişdik. Bu günlərdə mürəxxəs əfəndilər general tərəfindən qəbul edilərək, əhvali-hazirə və Şimali Qafqaziya Cümhuriyyətinin gələcək müqəddəratı üçün bir çox müzakiratdan sonra işbu cümhuriyyətin istiqlaliyyəti və Dağıstanlılar Hökumətinin Müttəfiq qoşunlarla əlbir işləməsi məsələsinə dair general Tomsondan müsbət cavablar almışlardır. Əsas etibarı ilə Şimali Qafqaziya və Dağıstan Cümhuriyyətinin istiqlaliyyəti həlli, generalın dediyinə görə, Müttəfiqlərin sülh müşavirə məclisində qət edilə biləcəkdir. Bu vaxtadək Şimali Dağıstanlılar Hökuməti müstəqilən (Azərbaycana tətbiq edilmiş üsullara münasib) öz mahalını idarə etmək üçün imkan bulacaqdır.

Teymurxanşuradan təşrini-saninin [noyabrın] 17-dən verilən məlumata görə, Dağıstan ve Çeçenistan qövmləri nümayəndələri Qafqaziya Dağıstanlılarının Cümhuriyyəti əzasının [üzvlərinin] fəaliyyətləri barəsindəki məruzəsini dinlədikdən sonra işbu qətnaməni təsdiq etmişdir:

*"On ay sükuta məcbur olmuş Dağıstan və Çeçenistan qövmləri öz hökumətlərinin fəaliyyəti sayəsində yenidən söz söyləməyə qadir olur. Bundan dolayı Dağıstan xalqı öz ixtiyar və amalını aşkar surətdə söyləməklə, may ayındakı elan edilmiş istiqlaliyyəti təsdiq və işbu millətlərin azadəlik və hürriyyət yoluna qədəmnihad olmasını [qədəm qoymasını] təbrik edirlər. Dağıstan ve Çeçenistan qövmləri nümayəndələri şimdiki hökumətə izhari-etimadla [etimad bildirərək] təklif edir ki, işbu sənənin kanuni-əvvəlinədək [dekabrınadək] demokrasi əsasları ilə bütün Dağıstan və Çeçenistan qövmləri nümayəndələrinin qurultayını çağırsın, bu var qüvvə ilə bütün cahan hökumətləri nəzdində Dağıstan Millətləri İttifaqının Cümhuriyyətini təsdiq etdirmək qəsdi ilə təşəbbüsat və lazımi iqdamatda bulunsun [addımlar atsın]."*

## MÜSƏLMAN KOOPERATİVLƏRİNƏ MÜRACİƏTNAMƏ

Neçə ildən bəridir ki, bizim Bakı şəhərində Mavərayi-Bəhri-Xəzər Müstəhliklər Cəmiyyəti işləməkdədir. Bu cəmiyyətdə yalnız bircə müsəlman üzv işləyir və halonki [halbuki] həmin cəmiyyətin yüzdə həştadı müsəlman üzvdür. Bəs nədən ötrü bu cəmiyyətin idarəsində müsəlman görülməyir? Buna səbəb nə olmuş? Odur ki, bizim müsəlman kooperativləri heç iclaslara öz nümayəndələrini göndərmirlər. Kooperativlərin nə qədər camaata mənfəəti olmağını hamı kooperativçilər bilirlər. İndi Bakıda yerli hökumətlə Müttəfiqlər, cəmi kooperativlərin açılmasına tərəfdardırlar.

Mən cəmi müsəlman kooperativlərinə üzümü tutub deyirəm ki, işləmək zamanıdır!

Bakıda olan ümum (açıq və bağlanmış) kooperativlər, hansılar ki, bu vaxtacan pay pullarını kooperatsiyadan almayırlar, ixtiyarları var kooperatsiyanın iclaslarına nümayəndə göndərməyə.

Dekabr ayının əvvəlində kooperatsiyanın idarəsində Qorçakovski və Merkuryevski küçələrin küncündə Tsaturovun evində nümayəndələr iclası olacaqdır. Bu iclasda idarə və təftiş komissiyası əzası seçiləcəkdir. Bakıda mövcud yetmiş müsəlman kooperativinin hamısı nümayəndə göndərə bilərlər. Əlbəttə, bu işə kəmetinalıq etmək olmaz. Gərək nümayəndələr gəlsinlər, ta ki, müsəlmanlar dəxi bu iclasda özgələrlə bərabər iştirak edərək bari idarəyə bir ya iki müsəlman üzv intixab etsinlər [seçsinlər]. Bu idarədə gərəkdir müsəlman olsun ki, müsəlmanların şəhərdə və kəndlərdə olan kooperativlərinə köməkləri dəysin. Güman edirəm ki, idarədə bizim iki ya üç müsəlman nümayəndəmiz olsa, o vaxt bağlı müsəlman kooperativləri açılar.

Qomşu kooperativlərə baxınız. Bakının hər tərəfində Samopomoş və qeyrisidir. Bu nədəndir? Hümmətdən!

Mən cəmi yoldaşlardan təvəqqe edirəm, dekabrın əvvəli, yekşənbə [bazar] gününü yaddan çıxartmasınlar.

İndi bir müsəlman kooperativ nümayəndəsi kooperatsiyanın idarəsinə gəlsə, ona heç etina edən, onunla danışmaq istəyən olmaz. Buna binaən [görə], gərək hümmət edib, öz nümayəndələrinizi göndərəsiniz. Mən çox təəccüb edirəm ki, açıq olan kooperativlərindən ötrü keçən iclasa öz nümayandələrini göndərməyiblər. Çox heyif olsun. Bizim bu cür işə soyuq baxmağımız... Güman edirəm ki, bu dəfə daha böylə boşluq olmasın. Kəndlər də öz nümayəndələrini göndərsinlər.

Nümayəndələr gərək əllərində kağızları olsun. Ta ki, səsləri itməsin. İclas yekşənbə günü, səhər saat 11-də açılacaqdır.

*Kooperativçi*

## BAKI XƏBƏRLƏRİ

- Şurayi-Vükəla [Nazirlər Kabineti] sədri Bakı Bələdiyyə rəisinə xəbər vermişdir ki, yeni təsis olunan Azərbaycan Parlamanında Bakı şəhəri müsəlman əhalisindən beş nümayəndə göndərməlidir. Ona görə xahiş edir ki, Bələdiyyə Məclisinin müsəlman vəkillərini, qlasnılarını seçmək üçün iclasa dəvət etsin. Bu münasibətlə Duma sədri bu gün müsəlman qlasnıları namizəd təyini üçün iclasa dəvət edir. Bələdiyyə rəisi isə intixabatı [seçkini] ayın birinə təyin etmişdir.
- Bir neçə İran tacirlərinin 49 cəbə [qutu] çaylarının həcz [müsadirə] edilməsi barəsində Ərzaq şöbəsinə verdikləri etiraza cavab olaraq, Ərzaq şöbəsi Bələdiyyə İdarəsinə xəbər vermişdir ki, çay sahiblərinə 400 min rublə vermişdir. Ən yaxın zamanda pulun mabaqisini [qalanını] də verəcəyini bildirmişdir.
- "Müqəddəs Nina" məktəbi bütün valideynə elam edir [bildirir] ki, milliləşmiş ehtiyat [hazırlıq] sinfinin tədrisatı təşrini-saninin [noyabrın] 30-undan etibarən səhər saat 9-dan başlanacaqdır.

**Slav-Rus Cəmiyyətində**

Qafqaziyadakı Slav-Rus Cəmiyyəti, Müttəfiqlər komissarından qurultay dəvətinə icazə almışdır. Slav-Rus Cəmiyyəti Şurasının iclası təşrini-saninin 29-unda, saat 6-da iniqad edəcəkdir [açılacaqdır]. İclas, cəmiyyətlə bərabər işləyəcək təşkilatlar nümayəndələrinin iştirakı ilə olacaqdır. Şura əhvali-hazirə [mövcud vəziyyət] münasibətilə aşağıdakı düsturları qəbul etmişdir:

1. Qafqaziyadakı Slav-Rus Cəmiyyətinin başlıca məqsədi, rus-slav nəcabətli bütün əhalini birləşdirib əlaqəni möhkəmləşdirmək, millətlərin rahat və mədəniyyət yolunda, tərəqqi tapmaq yolunda çalışacaq başqa milli təşkilatlarla əlbir fəaliyyətdə bulunmaqdır.
2. Rusiyanın 1914-cü sənədəki hüdud [sərhəd] dairəsində birləşdirilməsi, millətlərin müqəddəratının kəndilərinə verilməsi və muxtariyyət idarəsi ilə ola biləcəyi ittifaq fəaliyyətinin əsası olmalıdır.
3. Dövlətin tamamilə mülkiyyəsi əleyhinə qalxışacaq bütün təşəbbüsat müqabilinə ciddi mübarizə ediləcəkdir. Millətlərin istiqlaliyyəti əsasında demokratik əsası ən lüzumlu məsələ olmalıdır.
4. Binaileyh [ona görə], Slav-Rus Cəmiyyəti millətlərin rahat yaşamasına çalışacaq hökumətlərə var qüvvəsi ilə müzahirətdə [yardımda] bulunacaqdır.
5. Hökuməti qüvvətli etməkdən ötrü məmləkətdə hərbi qüvvə saxlamalıdır.
6. Ümumrusiya Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] təşkil olanadək istiqlaliyyət elan etmiş millətin məhəlli hökumət[i], yerli əhali nümayəndələrindən təşkil etməlidir.
7. Hökumətin başlıca məqsədi anarşini bərtərəf etməklə [aradan qaldırmaqla] asudəlik hüsulə gətirməkdir.
8. Hökumətin ən başlıca fəaliyyəti torpaqsız və torpağı kafi dərəcədə olmayan kəndçilərin əhvalını nəzərə almaqla, təmin etməkdir.
9. Məmləkətin sənayesinə müvafiq, əhalinin ziraət və fəllahət [kənd təsərrüfatı sənayesi] əsbabını [imkanlarını] fərahəm etməlidir [bir yerə cəm etmək lazımdır].
10. Əhalini mədəniyyətə tərəfdar etmək qəsdi ilə tərəqqi və təalisinə [ucalmasına] çalışmalı.

**Lənkəranda taxıl almaq məsələsi**

Təşrini-saninin [noyabrın] 27-də Lənkərandan gəlmiş Qafqaziya-Kaspi İttifaqlar Hökumətinin Xalq Təsərrüfatı şöbəsinin müdiri, Muğan diktaturasının üzvü Suxorukov Bələdiyyə İdarəsi tərəfindən Lənkərandan taxıl almağa müvəkkil edilmiş Qalantadze görmüşdür. Suxorukov demişdir ki, Qafqaziya İttifaqları Hökumətinin əmri sadir olmayınca [rəsmi surətdə əmir verilmədən], Muğandakı taxıl işləri heç bir məhəlli hökumətin əmrinə müvafiq heç kəsə verə bilməyəcəkdir.

**Taxıl**

Dünən Bələdiyyə İdarəsinin Ərzaq şöbəsi Xaçmaz mövqifindəki [stansiyasındakı] nümayəndəsindən böylə bir teleqram almışdır:

*"Xaçmaza varid oldum [gəlib çatdım]. Yarın Qubaya gedirəm. Həcz [müsadirə] etməkdən ötrü dəmir yolunda 25 vaqon buğda və arpa mövcuddur. Taxılı Bakıya göndərəcəyəm. Şimdilik bir vaqon kələm, bir vaqon da kartof göndərirəm. Taxılı kanunu-əvvəlin [dekabrın] birindən etibarən göndərəcəyəm. Rica edirəm ki, Nazirlər Şurası nəzdində möhtəkirləri buraxmamaqdan ötrü təşəbbüsatda bulunasınız. Bunlar taxılın qiymətini bahalandırırlar."*

- Dünən Bakı mövqifinə 20 vaqon buğda gətirilmişdir. Bunlardan üç vaqonu vəsiqə ilə xüsusi zəvata [şəxslərə] məxsusdur. 17 vaqon isə vəsiqəsizdir. Buğdanın putuna təyin edilən 160 rubləyə üç vaqonun sahibləri razı olmadıqlarından, Ərzaq şöbəsi üçün çalışan böyük dəyirmanlara verməyib, bazarda satmışlar. 17 vaqon buğdanın kimə məxsus olmasını bilmək üçün tədabir ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Düyü**

Müttəfiqlər Komandanlığının əmri mövcibincə [əsasında] İrandan Bakı üçün düyü gələcəkdir. Düyü hər ay əhali arasında 6 min put miqdarda təqsim ediləcəkdir [bölünəcəkdir]. Böyləliklə hər ay adam başı 7 ½ girvənkə düyü düşəcəkdir. 2 min putluq əvvəlinci düyü Bakıya gətirilib, Ərzaq şöbəsi anbarına təhvil verilmişdir.

**Vaporlar vürudu [gəmilərin gəlişi]**

Təşrini-saninin [noyabrın] 29-u saat 9 raddələrində Ənzəlidən "Salyanets" nam vapor Bakıya varid olmuşdur.

Təşrini-saninin 27-də Lənkərandan "Həmid" vaporu varid olmuşdur. İşbu vaporda bakılılardan əlavə, 314 Petrovsk qaçqınları da Bakıya gəlmişdir. Bunlar Petrovskdan təşrini-əvvəlin 25-ində çıxıb, Bakıya gəlmək istərkən Jiloy adası yanında tutulub Sara adasına göndərilmişdir. İki həftə orada qaldıqdan sonra buraxılmışlardır.

**Kəsbkarlar [Həmkarlar] İttifaqında**

Təşrini-saninin 27-sində Kəsbkarlar İttifaqında Azərbaycan rəisi-cumhurundan böylə bir məktub alınmışdır:

*"Milli Şura 20 təşrini-sani iclasında milli təşkilatlar və kəsbkarlar ittifaqları nümayəndələrini dəvət etməyi qət etmişdir. Binaileyh, Bakı Kəsbkarlar İttifaqı da üç nümayəndə göndərməlidir. Bununla rica edirəm ki, üç nümayəndə intixab edib [seçib], xüsusi etibarnamələrlə Azərbaycan Parlamanına göndərəsiniz. Parlaman kanuni-əvvəlin [dekabrın] 3-ündə açılacaqdır."*

Əldə edilmiş məlumata görə, Kəsbkarlar İttifaqı Komitəsi qət etmişdir ki, Azərbaycan Parlamanına nümayəndə göndərməsin.

**Fəhlə Klubunda**

Türk Ocağına dəvət edilmiş Kəsbkarlar İttifaqı nümayəndəsinə Türk Ocağı xəbər vermişdir ki, Türk Ocağı, Fəhlə Klubunun Kəsbkarlar İttifaqına məxsus olduğunu inkar etməyir. Fəqət, onlarla bərabər çalışmağı daha müvafiq sanır.

**Silah tapılması**

Təşrini-saninin 25-də, səhər vaxtı Krasnovodski, Malakanski küçələrin küncündəki mağazalardan birisinin zirzəmisində 7 dənə təzə "Berdan" tüfəngi, neçə yüz güllə və "Daşnaksutyun" firqəsinin bəzi kağızları tapılmışdır.


**Elan**

"Svyataya Nina" ünas [qız] məktəbi valideynə elan edir ki, məktəbin türk əlifba şöbəsində dərslər təşrini-saninin 30-unda, şənbə günü, saat 9-da başlanacaqdır.

*288 1-1*

**Türk Ocağı**

Cümə günü, dekabr ayının 6-sında, gündüz saat 10-da Türk Ocağının iclasi-ümumisi olub, cəmiyyətin heyəti-idarəsi [idarə heyəti] intixab ediləcəkdir [seçiləcəkdir]. Türk Ocağının cəmi üzvlərinin hazır olmaları təmənna edilir.

*279 1-3*

**ŞURAYI-MİLLİ ƏZALARINA**

Şurayi-Milli əzaları noyabrın 16-sına dəvət edilmişkən, bir çoxları hələ Bakıya gəlməmiş və nə səbəbə dəxi gəlmədiklərini bildirməmişlərdir. Şurayi-Milli rəyasəti əzayi-müşarileyhimin [haqqında danışılan üzvlərin] bəhəməhal [mütləq] dekabrın 3-də Bakıda bulunmalarını rica edir.

*Şurayi-Milli rəisi:*
*Məhəmməd Əmin Rəsulzadə*
*6/6*

**ŞURAYİ-MİLLİ İDARƏSİNDƏN**

Şurayi-Milli dəftərxanasında xidmət etmək üçün türkcə və rusca bilir təcrübəli bir mütərcim lazımdır. Xahiş edənlərin Şurayi-Milli rəyasətinə müraciəti tövsiyə olunur.

*Şurayi-Milli idarəsi müdiri: Məhəmməd Səid*
*6/5*

**Elan**

Bakı ikinci zükur [oğlanlar] gimnaziyası cənbində [yanında] kamilən [tamamən] milliləşmiş əlifba şöbəsi açılır. Bu şöbəyə daxil olan çocuqlar türkcə təlim alacaqlar. Əhalinin nəzəri-etinası bu milliləşmiş əlifba şöbəsinə cəlb olunaraq uşaqlarını qeyd etdirəcəklərinə ümid ediriz. Qeyd etdirmək istəyənlər məktəbin dəftərxanasına müraciət edə bilərlər.

*725*

**Hamam**

İcarə verilir Yuxarı Təzəpir caddəsində "Hacı Yunis" hamamı. Arzu edənlər, Merkuryevski caddədə Əşrəfovun mağazasına müraciət edə bilərlər.

*277*

**Diş həkimi B. L. Levin**

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni diş qayırır. Tsitsyanovski caddə nömrə 7, Qubernskinin küncündə.

Qəbul edir: 9-dan 2-yə kimi; 4-dən 7-yə kimi.

*280 12-1*

**O. A. Salmanın**
**Diş kabinəsi və süni diş müalicəxanası**

Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır.

Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.

*253*

**Həkim Arşak Ayrapetoviç Akopyans**

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

Saat 3-ə kimi 32-77 nömrəli telefon ilə danışmaq mümkündür. (16-ncı xəstəxana).

*256*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Doktor Ağahüseyn Kazımov**

Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.

*244*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstəxanası mövcuddur.

*209*

**Mama-feldşer M. K. Markoviç**

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

*240*

**Doktor Kamilə xanım İsmayılov**

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

*235*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

*237*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Телеф. 36-91.

*236*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*



**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Hindistan haqqında***

"30 təşrini-əvvəldə": Qəzetdə səhvən "təşrini-sanidə" [noyabrda] getmişdir.

"Gildholl bələdiyyə rəisi evində verilmiş olan bir ziyafətdə...": Burada söhbət, Londonun mərkəzi hissəsi "London-Siti"nin Bələdiyyə sədrinin ("Lord-mer"inin) rəsmi iqamətgahı olan Gildhollda təşkil edilən ziyafətdən gedir.

"1870-ci sənədəki xətanı...": Fransanın 1870-ci ildə Prussiyaya müharibə elan etməsi nəzərdə tutulur.

***Sülh ətrafında***

"Lakin Almaniya Hökuməti bu nəticəyə gəlir ki, fransızlar…": Cümlə yarımçıq qalmışdır; qəzetdə belədir.

***Suriya Hökumətinin protesti***

"…Türkiyə Parlamanı məbusu Arslan…": Livanlı siyasətçi Əmir Şəkib Arslan nəzərdə tutulur.

***Müsəlman kooperativlərinə müraciətnamə***

"Bizim bu cür işə soyuq baxmağımız…": Burada cümlə yarımçıq qalmışdır; qəzetdə belədir.

***Lənkəranda taxıl almaq məsələsi***

Bu xəbərin mətnində qarışıqlıq və anlaşılmazlıq var. Burada söhbət, Bakı Bələdiyyə İdarəsi adından Lənkərandan ərzaq tədarükü üçün müvəkkil edilən Kalandadzenin; Qafqaz-Xəzər İttifaqı Hökumətinin Xalq Təsərrüfatı və Ərzaq şöbəsi müdirinin müavini və Muğan diktaturasının üzvü Suxorukovla görüşməsindən gedir. Suxorukov Qafqaz-Xəzər İttifaqı Hökumətinin müvafiq göstərişi olmadan, yerli hökumətin əmriylə Muğandakı ərzaq işlərini Kalandadzeyə təhvil verə bilməyəcəyini söyləmişdir.

***O. A. Salmanın…***

Bu elan qəzetdə yarımıq çıxmışdır.



# REGİONLAR



## "Heydər Əliyev İli" çərçivəsində Şəkidə ağacəkmə aksiyası keçirilib





**"Heydər Əliyev İli" çərçivəsində Şəki Şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Şəki rayon təşkilatının birgə təşkilatçılığı ilə martın 17-də ağacəkmə aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, aksiya zamanı Şəki Heydər Əliyev Mərkəzinin qarşısındakı ərazidə şam ağacları əkilib. Əkilən ağaclar suvarılıb, aqrotexniki qulluq göstərilib.

Aksiyada şəhər icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbər və əməkdaşları, YAP rayon təşkilatının könüllüləri iştirak ediblər.

# Savad fermeri həm də ziyandan qoruyur



**Azərbaycanda həyata keçirilən genişmiqyaslı layihələr demək olar ki, ölkə iqtisadiyyatının bütün sahələrini əhatə edir. Təbii ki, bu sırada aqrar sektorda da var. Həmin layihələr hesabına kənd təsərrüfatına aid müasir dünya təcrübəsi öyrənilir, yüksək texnologiyalar tətbiq olunur və bunun sayəsində fermerlərimiz ciddi nailiyyətlərə imza atırlar.**

Kənd Təsərrüfatı Nazirliyi yanında yaradılmış Fermerlər Şurası bu yeniliklərin təbliğində fəal rol oynayır. Tərkibi 6 aydan bir rotasiya qaydasında yenilənən şurada ölkənin 15 bölgəsindən taxılçılıq, pambıqçılıq, tütünçülük, meyvəçilik, heyvandarlıq, arıçılıq, toxumçuluq və digər sahələr üzrə fəaliyyət göstərən qabaqcıl fermerlər təmsil olunurlar. Ölkənin aparıcı fermerlərinin belə bir formatda birləşməsi həm qabaqcıl təcrübənin sürətlə yayılmasına, həm də gündəmə çıxan problemlərin zamanında həllinə imkan yaradır.

Fermerlər Şurasının bir neçə gün əvvəl keçirilən toplantısında da kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı ilə bağlı fikir mübadiləsi aparılmış, bir sıra aktual məsələlər müzakirə edilmişdir. Tədbirdə fermerlər məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin ardıcıllığından, torpaq sahələrinin dincə qoyulmasından, aqrokimyəvi analizlərin aparılmasının zəruriliyindən danışmışlar. Müzakirə olunan mövzuların sırasında mineral gübrə, dərman və pestisidlərdən düzgün istifadə, zərərvericilərə qarşı mübarizə tədbirləri də diqqət mərkəzində olmuşdur.

Qeyd edilmişdir ki, məhsuldarlıq yalnız yeni texnologiyaların tətbiqindən yox, həm də istehsalçılar arasında maarifləndirmə tədbirlərinin davam etdirilməsindən, qabaqcıl təcrübənin yayılma sürətindən asılıdır. Aparılan müzakirələrdə fermerlərin özləri də etiraf edirlər ki, yüksək məhsulun əldə edilməsi üçün mineral gübrələrdən düzgün istifadə etmək, toxum və texnikadan elmi qaydada faydalanmaq vacib rol oynayır. Əkin sahələrində bitkinin qida ehtiyacları bilinməyəndə, əkin düzgün becərilməyəndə, gübrələr kor-koranə veriləndə ildən-ilə həm torpağın münbitliyi, həm də məhsuldarlıq aşağı düşür.

Qubadan fermer Kərim Həsənov deyir ki, 7 hektar dəmyə torpaqda neçə ildir arpa əkir. Özü də bilir ki, torpaq zəifdir, amma pul xərcləməyə də əli gəlmir: "Artıq 7 ildir ki, hektardan gücə bir ton arpa biçirəm. Biz kəndlilər arpanı əkirik, sonra da ruzini Allahdan gözləyirik. Amma fasiləsiz əkilən torpaq gücdən düşür, tələb edir ki, onun qayğısına qalaq. Mütəxəssislər çağırmışam, analiz ediblər ki, torpaq çox zəifdir, qulluğa, gübrəyə ehtiyacı var. Gərək çoxdan məsləhətləşəydim".

Göründüyü kimi, Azərbaycanda fermerlər bağlara, əkin sahələrinə qulluq edilməsində aqranomlara getdikcə daha çox müraciət etməyə, aqrotexniki qaydalar çərçivəsində işləməyə meyillidirlər. Artıq bilirlər ki, əkin sahələrində torpaqlar analiz ediləndə tələb olunan qida maddələrinin miqdarı düzgün təyin edilir. Bundan başqa, torpaq mühitinin reaksiyasını, duzluluğunu da öyrənmək olur. Fermerlər belə geniş analizlərin nəticələrinə uyğun nə əkib-becərəcəklərini, necə dərman verəcəklərini asanlıqla dəqiqləşdirə bilirlər. Üstəlik, torpağın aqrokimyəvi analizi aparıldıqda ona qulluq etmək də asandır.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Xaçmazda Aqrar İnnovasiya Festivalı



**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə sayca 15-ci Aqrar İnnovasiya Festivalı Xaçmaz rayonunda keçirilib.**

Festivalda Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat İnstitutları, "Aqroservis" ASC, Aqrar Xidmətlər Agentliyi, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Sığorta Fondu, Süni Mayalandırma Mərkəzi, Dövlət Toxum Fondu və digər tabeli qurumlar, həmçinin aqrar sahənin müxtəlif istiqamətləri üzrə fəaliyyət göstərən 60-dan çox yerli və xarici şirkət, fermerlər iştirak ediblər. Tədbirdə çıxış edən Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev və Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rafail Quliyev regionlarda təşkil edilən belə festivalların əhəmiyyəti barədə danışıblar. Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov "Agroinnofest" layihəsinin təqdimatı ilə çıxış edib, festival barədə ətraflı məlumat verib.

Xaçmaz Olimpiya İdman Kompleksinin ərazisində təşkil edilən festivalda müxtəlif innovativ məhsul və avadanlıqların əyani nümayişi keçirilib. Festivalda bölgənin aqrar potensialının və perspektivinin müəyyən olunması və bölgəyə uyğun kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı aqrar sahədə ixtisaslaşmış iri şirkətlər öz uğurlu təcrübələrini, habelə təsərrüfatlarında tətbiq etdikləri innovativ texnologiyalar ilə bağlı məlumatları fermerlərlə bölüşüb. Həmçinin festivalda bölgənin prioritet kənd təsərrüfatı məhsulları və aqrar sahənin inkişaf etdirilməsinə hədəflənən prioritet istiqamətlər üzrə təlimlər keçirilib.

Festival zamanı Aqrar Təlim Mərkəzi tərəfindən "Superintensiv fındıq bağlarının salınması", Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu tərəfindən "Gilas bitkisinin xəstəlik və zərərvericilərinə qarşı inteqrir mübarizə tədbirləri" və ölkədə müasir suvarma sistemləri sahəsində xidmət göstərən şirkət tərəfindən "Pivot suvarma sistemi" mövzularında maarifləndirilmə işləri həyata keçirilib. Eyni zamanda Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və təşəbbüsü ilə keçirilmiş bir sıra startap yarışma və müsabiqələrin iştirakçıları, eləcə də ali təhsil müəssisələri öz prototiplərini, məhsul və həllərini, ixtiralarını nümayiş etdiriblər. Festival Quba-Xaçmaz və ətraf bölgələrin fermerləri tərəfindən maraqla qarşılanıb.

Aqrar İnnovasiya Mərkəzi tərəfindən mütəmadi olaraq bölgələrdə təşkil edilən bu festivalların əsas məqsədi aqrar sahənin innovativ əsaslarla inkişaf etdirilməsi, innovativ həllərə əsaslanan texnoloji yeniliklərin təşviqi üzrə dəstək xidmətinin həyata keçirilməsi və kənd təsərrüfatı məhsul istehsalçılarının innovasiyalara əlçatanlığının təmin edilməsidir.

## Naxçıvandakı əmək yarmarkasında 38 işəgötürən tərəfindən 350 vakansiya təqdim edilib

**Aktiv məşğulluq tədbirlərinin davamı olaraq Naxçıvan şəhərində əmək yarmarkası keçirilib.**

Tədbirdə iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli aktiv məşğulluq proqramlarının ildən-ilə genişləndirildiyini vurğulayıb. Bu tədbirlər arasında əmək yarmarkalarının əhəmiyyəti, keçən il də ölkə üzrə 63 əmək yarmarkasının keçirildiyi, həmin tədbirlərdə işəgötürənlər tərəfindən 11 min vakansiyanın təqdim edildiyi qeyd olunub.

Həmçinin ötən dövrdə 60 min ailə üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatların yaradıldığı diqqətə çatdırılıb. Bu aktiv məşğulluq tədbirlərinin, eləcə də əmək yarmarkalarının Naxçıvan MR-ini da əhatə etdiyi, ötən gün də Naxçıvanda daha bir qrup şəxsə özünüməşğulluq proqramı üzrə aktivlər təqdim edildiyi bildirilib.

Naxçıvan Biznes Mərkəzində təşkil olunan əmək yarmarkasında 38 işəgötürən tərəfindən 350 vakansiya təqdim edilib. Bu vakansiyalar üzrə orta aylıq əməkhaqqı 520 manat təşkil edib. Yarmarkada özünüməşğulluq proqramına, peşə hazırlığına, peşəyönümü xidmətlərə cəlb edilmək istəyənlərin qeydiyyatı da aparılıb.



## Balakəndə də bayram ovqatıdır

**Xalqımızın əziz bayramlarından olan Novruz Balakən rayonunda böyük coşqu ilə qeyd olunur. Balakənlilər baharın gəlişini böyük sevinc və ruh yüksəkliyi ilə qarşılayırlar.**

Balakən şəhərindəki Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında keçirilən ümumrayon Novruz şənliyi bayram tonqalının alovlandırılması ilə başlayıb. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları sonra xalqımızın, eləcə də rayonda yaşayan azsaylı xalqların milli adət-ənənələrini özündə əks etdirən sərgi və guşələrə baxıb, el sənətkarlarının əl işləri və milli mətbəx nümunələri ilə tanış olublar.

Tədbirdə qədim adət-ənənələrimizdən olan Novruzun xalqımız tərəfindən həmişə böyük sevinc və coşqu ilə qarşılandığı qeyd olunub, milli adət-ənənələrimizin özümüzə qaytarılmasında Ümummilli Lider Heydər Əliyevin, onun siyasi varisi Prezident İlham Əliyevin böyük xidmətlərinin olduğu vurğulanıb.

# Bahar gözəlliyin başlanğıcıdır

## Şimal bölgəsinin Novruz ənənələri

**Azərbaycanın bölgələrində tarix bərabərliyi olsa da, adətlər az və ya çox dərəcədə fərqlidir. Bu baxımdan multikultural dəyərlərin hörmətlə yanaşıldığı ölkəmizin şimalında yaşayan xalqlar da Novruzu özlərinə məxsus tərzdə müxtəlif cür qarşılayırlar.**

Qusar və Xaçmazda boz ayın əvvəlində odun yığmağa başlarlar. Qədərincə topladıqdan sonra öz aralarında Kosa və Keçəli müəyyən edirlər. (Novruz sözü ləzgi dilində "Yaransuvar" - yeni gün deməkdir.) Çərşənbə günlərində 7 su dolu qabı 7 evə apararlar. Əgər su hamıya çatarsa demək arzular həyata keçəcək. Qabları daşıyanlar sonra bir yerə yığışar, deyib-gülər, şənlənərlər. Qusarlılar yeyib-içən olduğundan həmin günlər evlər qonaqlı-qaralı olar.

Bayram axşamı tonqal qalanar, hamı ocaq başına yığışar. "Ləzgi qızı"nın ("Ləzginka"nın) sədaları altında yorulana qədər rəqs edərlər. Sonra lətifə yarışı başlar. Kimin danışdığı daha çox gülməli olarsa, hərə ona bir hədiyyə verər.

Axşam hər ləzginin evində plov bişirilməsi vacib sayılar. Amma ev sakinləri həmin plovu qonşulara paylar, qazan boşalandan sonra şükür edərlər: Sən bizim qəlbimizi təmiz, ruhumuzu sağlam, gözümüzü tox eylə. Qoy əlimizin bərəkəti həmiya yetsin!

Bir də subayların toyunu çox vaxt bayram gününə salar, həmin evlilikdən doğulan uşaqlara Bahar və Novruz adını qoyarlar. Ümumiyyətlə, Qusarda bu adları daşıyan insanlara hörmətlə yanaşılır.

Siyəzəndə çərşənbə axşamları hündür yerdə tonqal qalayar, hərə gətirdiyi azuqəni bir yerə toplar. Sonra onu birlikdə yeyər və şənlənərlər. Sədan kəndində duzlu və şirin qoğal bişirər, onu paylarlar. Kim şirin qoğalı götürübsə, onu duzlu qoğal götürənlər evə qonaq çağırarlar. Bir də bayram axşamı bütün küsülülər barışar, etdiklərinə görə üzr istərlər. Barışmaq istəməyəni "qonaqlıqla" o qədər yüklərlər ki, tərsliyinə peşman olar.

Bir də bayram günü dağ kəndlərində camaat bir yerə yığılar, il boyu bəslədikləri xoruzları döyüşdürərlər. Məğlub tərəfin xoruzunu qoltuğuna verib yola salarlar.



Şimal bölgəsində Qubanın "bahar xonçası" daha maraqlıdır. Multikultural dəyərlərə söykənən bu rayonda xeyli sayda azsaylı xalqların və etnik qrupların nümayəndələri yaşayırlar. Qubada 20 minə yaxın tat və ləzgi, 3 min mehsəti türkü, 3500 buduqlu, 4 min xınalıqlı, 1000 rus, 4 minə yaxın yəhudi, tatar, gürcü, ukraynalı, belarus yaşayır. Rayonda onlar bir ocaq ətrafına topalanan mehriban ailəni xatırladır. Bu ailənin üzvləri ötən əsrin əvvəlində erməni qəsbkarlarına qarşı birlikdə mübarizə apardılar. Novruzda isə bayram xonçasına hərə öz adətini, inancını, mətbəxini əlavə edir.

Qubada axır çərşənbədə evdəki qabları su ilə doldurar, bayram gecəsi onu həyətə, bostana bağçaya səpərlər ki, il ruzulu gəlsin. Kosa və Keçəl cütlüyü üç gün ərzində qapıları gəzər, payları toplarlar. Bayram axşamı həmən torba açılar, içindəkilər uşaqlara paylanar. Buduqda qovurmalı, yaxud cücə-plov bişirər və onu 7 qonşuya paylarlar. Buduqlular bayram günü şorqoğalı bişirməz, süfrəyə yalnız şirin nemət düzərlər.

Xınalıqlılar axır çərşənbədə nişanlı qız evindən oğlan evinə yeddi növ pay göndərərlər. Xınalıq dilində buna "yiq tikə" deyirlər. Sədaqət, sağlamlıq, məhəbbət, ruzi, bərəkət, mehribanlıq və övlad rəmzi sayılan yeddilik yeni qurulan ailəyə edilən dualardır.

"Qırmızı qəsəbə"də yaşayan yəhudilər də baharı coşqu ilə qarşılayırlar. Axşam qalanan tonqallar bu yaraşıqlı qəsəbəni nura boyayır. Sakinlər yolda rastlaşdıqları hər kəsə qoğal, paxlava və şəkərbura paylayır, sonra etiqadından asılı olmayaraq, bir yerdə tonqal başında yanaşı oturar, əllərindəki ruzini dadarlar. Dünyanın müxtəlif yerlərində yaşayan qırmızı qəsəbəlilər bahar bayramında doğma yurda qayıdırlar.

Qubada bayramın 13-cü günü gənclər Qudyalçayın ətrafına yığışar və səməniatma mərasimi keçirər. Bu adətin təxminən 1000 ilə yaxın yaşı var. Səməninin axar suya atar, niyyət edərlər.

Şabranda yaşayan dağlı, ləzgi, tat və məhsəti türkləri bayramın keçirilməsinə martın əvvəlində başlarlar. Hər çərşənbə tonqal qalayar, şeir məclisləri keçirər, bayatı deyərlər. Burada səməni halvası bişirər, onu bütün evlərə paylarlar.

Adət və ənənələr min illərin sınağından keçib bu günümüzə adlayan ruh şəcərəsidir. Bəşəriyyəti sabahlara, insanları gözəlliklərə dəşıyan hər nə varsa, yadigar kimi qorunmalıdır. Səmənin hökmünü yerlərə çatdıran bahar isə böyük gözəlliyin başlanğıcıdır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına namizədliyi təklif edilib

Türkmənistanın keçmiş prezidenti, ölkənin Xalq Şurasının sədri Qurbanqulu Berdiməhəmmədov Türk Dövlətləri Təşkilatının (TDT) Ankarada keçirilən sammitində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına namizədliyini irəli sürməyi təklif edib.



Prezident Rəcəb Tayyib Ərdoğanın görkəmli şəxsiyyət və dünya səviyyəli siyasətçi olduğunu vurğulayan türkmən xalqının liderinin dediyinə görə, Türkiyə rəhbəri bütün müsəlman xalqları üçün sülhün təmin edilməsi, həmçinin regional və qlobal miqyasda təhlükəsiz və davamlı inkişaf naminə çox iş görür: "Bunun əsasında Türkiyə Prezidentinin Nobel sülh mükafatına namizədliyinin irəli sürülməsi təklif edilir və biz bütün müvafiq təklifləri tam dəstəkləyirik. O, bu beynəlxalq mükafata layiq liderdir".

Q. Berdiməhəmmədov həmçinin qeyd edib ki, R.T.Ərdoğan XXI əsrdə bu mükafata layiq görülən islam dünyası ölkələrinin dövlət və hökumət başçıları arasında birinci ola bilər.

Xatırladaq ki, yeni il ərəfəsində də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına namizədliyi irəli sürülüb.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop bildirib ki, o, Ərdoğanın bu nüfuzlu mükafata Rusiya və Ukrayna arasında sülh səylərinə verdiyi töhfəyə görə namizəd göstərilməsinə təşəbbüs göstərib.

Bu günlərdə Vladimir Zelenski və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub və Türkiyə lideri növbəti dəfə sülhə töhfə verməyə hazır olduğunu bildirib.

Bu arada, Rusiya Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına mümkün namizədliyini şərh edib. Kremlin sözçüsü bununla bağlı deyib: "Əlbəttə, biz cənab Ərdoğanın səylərini, sülhməramlı fəaliyyətini, vasitəçilik xidmətləri göstərmək cəhdlərini və ikitərəfli Rusiya-Türkiyə münasibətlərinin inkişafına münasibətini yüksək qiymətləndiririk" .

Nobel sülh mükafatı sülh sahəsində nailiyyətlərə görə Nobel Fondu tərəfindən hər il verilən mötəbər mükafatdır və Alfred Nobelin vəsiyyətində təsis etdiyi beş mükafatdan biridir.

Nobel Komitəsinin qaydalarına görə, hazırkı dövlət başçıları, hökumət və milli parlamentlərin üzvləri namizəd irəli sürmək hüququna malikdirlər. Həmçinin ötən illərin laureatları, hüquq və humanitar elmlər üzrə professorlar, beynəlxalq məhkəmələrin üzvləri, Nobel Komitəsinin indiki və keçmiş üzvləri sülh mükafatına öz namizədlərini irəli sürə bilərlər.

Nobel sülh mükafatı 1901-ci ildən bəri hər il verilir.

Mükafat təqdim edildikdə, yalnız qaliblərin adları məlum olur. Bütün digər nominantların adları və Nobel Komitəsinin üzvlərinin rəyləri 50 il ərzində gizli saxlanılır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "AzərEnerji" Heydər Əliyevin 100 illiyi ilə bağlı silsilə aksiya keçirir









Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq "AzərEnerji" ASC silsilə tədbirləri davam etdirir.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, müstəqil energetika sisteminin qurucusu Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilən "Azərbaycan" İES, "Şimal" ES, "Bakı" İEM və "Şəmkir" SESS-də, o cümlədən "AzərEnerji"nin balansında olan "Qobu", "Sumqayıt", "Cənub" və digər elektrik stansiyalarının ərazisində ağacəkmə aksiyası keçirilir. Bundan əlavə, ölkənin digər yerlərində olan 500, 330 və 110 kilovoltluq yarımstansiyaların ərazisində də ağaclar əkilir.

Aksiyanın keçirilməsində əsas məqsəd ölkədə ekologiyanın qorunmasına və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etmək, Ümummilli Liderin ənənəsinə sadiq qalmaqdır. Bakı və ölkənin regionlarında yerləşən enerji obyektlərində "hərə bir ağac əksə" devizi ilə keçirilən aksiyalarda müxtəlif növdə 5 minə yaxın ağac əkilir.

Qeyd edək ki, bundan əvvəl də "AzərEnerji", "Azərişıq" və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar olaraq Xocəsən qəsəbəsində 7 minədək ağac əkilməsi aksiyasını gerçəkləşdirib.

## B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 07.02.2023-cü il və 18.02.2023-cü il tarixlərdə elan edilmiş

- **330/110/10 kV-luq "Ələt Azad İqtisadi Zona" Yarımstansiyanın tikintisi, "Qobu" Elektrik Stansiyasının 330 kV-luq Açıq Paylayıcı Qurğuda və "Cənub" Elektrik Stansiyasının 330 kV-luq Qapalı Paylayıcı Qurğuda genişlənmə tədbirlərinin icrası, yeni xətt üçün əlavə 330 kV-luq yuvaların quraşdırılması işlərinin satın alınması;**
- **330 kV-luq "Qobu Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması;**
- **330 kV-luq "Cənub Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin** satın alınması üzrə müsabiqələrin müddəti podratçının sorğusuna əsasən uzadılır.

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərin son təqdim olunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 08 may 2023-cü il saat 15:00-dək uzadılır.

Bank təminatının və tender təklifinin son təqdim olunma tarixi 17 may 2023-cü il saat 15:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 18 may 2023-cü il saat 15:00-a keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanda (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


AZƏRBAYCAN
İlham Əliyevin təşəbbüsü ilə...
Fövqəladə Zirvə görüşü
Ankara Bəyannaməsi
Böyük qayıdışda növbəti mərhələ
Günahsız insanları hədəf seçən ermənilərin mina terroru
Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının birgə şəkli çəkilib
Prezident İlham Əliyevin Türkiyəyə səfəri başa çatıb
Avropa İttifaqının ulaşkanı Avropa Parlamenti niyə düşmən elan edir?

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz,* ***(012) 539-59-33*** *nömrəli telefona zəng vura bilərsiniz.*


# ABŞ səfirliyi: "Qarabağda minalarla çirklənmə köçkünlərin təhlükəsiz qayıdışına mane olur"

Qarabağda minalarla çirklənmə iqtisadi inkişafın qarşısını alır və köçkünlərin təhlükəsiz qayıdışına mane olur.



AZƏRTAC xəbər verir ki, bunu martın 16-da Azərbaycanın Ağdam rayonunda iki dinc sakinin ölümünə səbəb olan mina partlayışı ilə əlaqədar Trend-in sorğusuna cavab olaraq ABŞ-nin ölkəmizdəki səfirliyindən bildiriblər.

"ABŞ səfirliyi Ağdamda mina partlayışı nəticəsində həlak olanların ailəsinə başsağlığı verir. Münaqişə rayonunda minalar və partlamamış hərbi sursatlar dinc sakinləri öldürməyə və şikəst qoymağa davam edir", - deyə diplomatik nümayəndəlikdən bildirilib.

Səfirlik ABŞ-nin humanitar minatəmizləmə işlərini dəstəklədiyini qeyd edib. "Regionda sülhə və əməkdaşlığa kömək etmək məqsədilə ABŞ 2021-ci ilin noyabrından münaqişə rayonlarında humanitar minatəmizləmə işlərinə 2,5 milyon dollar vəsait ayırıb", - deyə ABŞ səfirliyindən məlumat verilib.

Qeyd edək ki, Ağdam rayonunun Yusifcanlı kəndinin iki dinc sakini mina partlayışı nəticəsində həlak olub. 1999-cu il təvəllüdlü Həsənov İsrail İbrahim oğlu, 1987-ci il təvəllüdlü Həsənov Amid Hüseyn oğlu heyvan otararkən minaya düşüblər.

# Bayram günlərində ölkə ərazisində hava şəraitinin əsasən qeyri-sabit keçəcəyi proqnozlaşdırılır

İstirahət və bayram günlərində ölkə ərazisində hava şəraitinin əsasən qeyri-sabit keçəcəyi, qısa fasilələrlə yağıntılı olacağı gözlənilir.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, martın 19-u axşamdan 24-ü axşamadək ölkə ərazisində hava şəraitinin arabir yağıntılı olacağı proqnozlaşdırılır. Bəzi yerlərdə yağıntının intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimal edilir.

Qərb küləyi əsəcək, martın 21-i axşamdan 23-ü gündüzədək əsasən dağlıq və dağətəyi rayonlarda arabir 18-23 metr/saniyəyədək güclənəcək.

Gözlənilən yağıntılarla əlaqədar bəzi dağ çaylarında sululuğun artacağı ehtimalı var.

# Hərbi İnstitutun kursantları ilə praktiki təlim keçirilib

Heydər Əliyev adına Hərbi İnstitutun 2022-2023-cü tədris ili üçün hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələri fakültəsinin kursantları ilə praktiki dəniz təlimi keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə kursantlara şəxsi heyətin gəmidə davranışı, təhlükəsizlik qaydaları və gündəlik fəaliyyəti izah edilib. Kursantlar gəmilərin döyüşə və səfərə hazır vəziyyətinə gətirilməsi, eləcə də digər fəaliyyətləri yerinə yetiriblər.

Keçirilən məşğələlərdə əsas məqsəd kursantların tədris müddətində yiyələndikləri nəzəri bilik və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Ülviyyə Mövsümovaya atası

**ZAKİR MÖVSÜMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları Ədalət Əhmədliyə qardaşı

**SABİR MİKAYIL OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasov və institutun əməkdaşları AMEA-nın müxbir üzvü, professor Misir Mərdanova əzizi, Əməkdar elm xadimi, professor

**ELDAR QOCAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5184**
**Sifariş 683**

**Qiyməti 40 qəpik**